Xalqın qəzeti!

# Xalq qəzeti

№ 248 (30942) 22 noyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Zəngəzur dəhlizinin açılmasının beynəlxalq önəmi günbəgün artır



*Bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir. Prezident Tramp layihəyə öz adını verib və bu, layihənin mütləq reallaşdırılacağından xəbər verir. Bununla da Orta Dəhlizin daha bir marşrutu açılır. Ənənəvi mövcud olanlara daha biri əlavə olunur – Zəngəzurdan ən yüksək müasir standartlarla 15 milyon ton yük dövriyyəsi. Zəngəzur dəhlizi layihəsi böyük potensiala malikdir.*

*Azərbaycan ərazisində bütün avtomobil və dəmir yolu əlaqələri gələn ilin ortalarına qədər tamamlanacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də hər şey belə sürətlə reallaşdırılacaq və belə olan halda, Zəngəzur dəhlizinin açılması 2028-ci ilin sonuna qədər baş verə bilər.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## İdeyalarla qurulan körpü



Səhifə ⇨ 5

## Avropada rəqəmsal ziddiyyət




Səhifə ⇨ 8

## D-8 platforması diqqət mərkəzində




**D-8 ideyası 1997-ci ildə Türkiyənin təşəbbüsü ilə formalaşanda dünya dərin geosiyasi dəyişikliklərin astanasında idi. "Soyuq müharibə"nin bitməsi yeni qlobal güc bölgüsünü hələ tam müəyyən etməmiş, Qlobal Cənub ölkələri isə öz iqtisadi maraqlarını qorumaq üçün alternativ əməkdaşlıq formatları axtarırdı. Belə bir şəraitdə D-8, yəni İnkişaf Edən Səkkizlərin yaradılması müsəlman dünyasının iqtisadi-siyasi baxımdan yeni bir kollektiv güc formalaşdırmaq cəhdi kimi meydana çıxdı. Təşkilatın coğrafiyası genişdir: Ankaradan Cakartaya, Qahirədən Dəkkəyə qədər uzanan xəritə ilk baxışda heterogen görünə bilər. Amma bu müxtəliflik üçün səthə baxmaq kifayət etmir, çünki bu ölkələri birləşdirən dərin strukturlar var.**

*(ardı 4-cü səhifədə)*

## Vaşinqtonun Zəngəzur dəhlizi missiyası

Səhifə ⇨ 9

## Azərbaycan Prezidentinin Mərkəzi Asiya zəfəri



Səhifə ⇨ 7

## Milli Məclis 2026-cı ilin dövlət büdcəsini təsdiqlədi



Səhifə ⇨ 6

## Tbilisinin qəti addımı



Səhifə ⇨ 6

## "3+3" vacibdir, ...amma nəyə görə?




Səhifə ⇨ 4

## Latviyada İstanbul Konvensiyası qüvvədə qaldı



Səhifə ⇨ 8

## Diplomatiyamızın turizm marşrutu



Səhifə ⇨ 5

## Sumqayıt – yeniləşmə və tərəqqi məkanı



Səhifə ⇨ 13

## Çoxmərtəbəli bina sakinlərinin "torpaq vergisi"



Səhifə ⇨ 12

# “Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti ilə Vyetnam Sosialist Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi arasında təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

*Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il oktyabrın 26-da Hanoy şəhərində imzalanmış “Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti ilə Vyetnam Sosialist Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi arasında təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Vyetnam Sosialist Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 noyabr 2025-ci il**

# Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sistemi (bundan sonra – MİRAS) yaradılsın.

**2** “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sistemi haqqında Əsasnamə” təsdiq edilsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**4** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**5** Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti:

5.1. MİRAS-ın formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi, həmçinin ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün;

5.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə MİRAS-ın “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri”nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

**6** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 3-cü hissəsində göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etmək məqsədilə altı ay müddətində zəruri tədbirlər görsünlər və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 noyabr 2025-ci il**

# Azərbaycan Respublikası ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Ədliyyə orqanlarında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Tərəqqi” medalı ilə**

Əbilov Adil Fazil oğlu
Muradova Aytən Cahangir qızı
Nəsibov Elçin Rafiq oğlu

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə**

Abdullayeva Gültən Ramiz qızı
Abdulov Hakim Abdulhəsən oğlu
Hüseynov Emil Fuqan oğlu
İsayev Oqtay Əli oğlu
Məmmədov Cavid Mirzəbaba oğlu
Məmmədov Yunis Məmməd oğlu
Muradova Mətanət Fadil qızı
Zakirova Leyla Əziz qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 noyabr 2025-ci il**

# “Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi” mövzusunda D-8 Media Forumunun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları!**

İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) ilk Media Forumunda Sizi səmimi-qəlbdən salamlayıram. Bu Forumun Azərbaycanın təşəbbüsü ilə birinci dəfə Bakı şəhərində keçirilməsi mühüm hadisədir.

Bildiyiniz kimi keçən il Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilmişdir. Əlamətdar haldır ki, otuz ilə yaxın müddət ərzində fəaliyyət göstərən bu təşkilat ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul etmişdir. Bu, ölkəmizə olan beynəlxalq etimadın göstəricisi, təşkilata üzv olan hər bir ölkə ilə möhkəm dostluq və əməkdaşlıq münasibətlərimizin, birliyimizin və həmrəyliyimizin təzahürü idi. 1,2 milyard əhalini əhatə edən və böyük iqtisadi potensiala malik D-8 təşkilatına üzv olan dövlətlər ortaq dini-mədəni dəyərləri bölüşürlər. Bu gün artıq üç qitəni əhatə edən D-8 platforması dayanıqlı iqtisadi artım, rəqəmsal transformasiya, süni intellekt, qlobal iqlim dəyişmələri ilə mübarizə və enerji təhlükəsizliyi kimi mühüm sahələrdə inkişafı irəli aparmaq üçün geniş imkanlara malikdir. Azərbaycan enerji, nəqliyyat və kommunikasiya sahələrində D-8 ölkələri ilə çoxşaxəli tərəfdaşlıqlar qurmaqla regional və beynəlxalq əməkdaşlığın mühüm iştirakçısına çevrilmişdir.

Azərbaycan D-8 ailəsinin üzvü olduğu gündən təsisatın inkişafı ilə bağlı səylər göstərir. Bu, təkcə iqtisadi deyil, həm də mədəni, sosial və humanitar əməkdaşlıq sahələrində özünü büruzə verir. Azərbaycanın D-8-ə üzvlüyə qəbul edilməsindən ötən bir ilə yaxın müddət ərzində ölkəmizin təşəbbüsü ilə Bakı şəhərində D-8 ölkələrinin QHT-lərinin ilk dəfə görüşü təşkil olunmuş, D-8 Həftəsi çərçivəsində “D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoq”u baş tutmuşdur. Azərbaycan bundan sonra da təsisat çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinə öz töhfəsini verməyə davam edəcəkdir.

Dost ölkələrin ictimai-siyasi xadimlərini, kommunikasiya üzrə mütəxəssislərini, media nümayəndələrini bir yerə toplayan bu Forumun qlobal informasiya məkanında meydana çıxan yeni çağırışları müzakirə etmək və ortaq məqsədlərə çatmaq üçün səmərəli platforma olacağına inamımı ifadə edirəm. Qlobal böhranlar, bəşəriyyət qarşısında duran yeni sınaqlar və çətinliklər dövründə ölkələrimizin bir-birinə qarşılıqlı dəstək göstərməsi, o cümlədən media sahəsində həmrəyliyi nümayiş etdirməsi olduqca vacibdir.

Müasir dünyada informasiya adi xəbər olmaqla məhdudlaşmır, beynəlxalq münasibətlərin, ictimai rəyin və iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilərək xalqlar arasında etimadın və anlayışın formalaşmasında mühüm rol oynayır.

Hazırda media mühiti sürətli transformasiyaya məruz qalır. Təəssüflər olsun ki, qlobal informasiya məkanında dezinformasiya, saxta xəbərlər, hibrid təhdidlər, “deepfake”lər, süni intellektin imkanlarından sui-istifadə və digər manipulyasiya halları dayanmadan artmaqdadır. Bu amillər ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərməklə yanaşı, bütövlükdə beynəlxalq sabitliyə zərbə vurur və ölkələr arasında etimadı sarsıdır. Bu səbəbdən D-8 Media Forumunun əsas vəzifələrindən biri – doğru, qərəzsiz, obyektiv və məsuliyyətli informasiya mühitinin qurulması üçün üzv ölkələrin media qurumları arasında etibarlı əməkdaşlığın formalaşdırılmasıdır.

Azərbaycan media sahəsində bir sıra mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir, bu istiqamətdə daim mühüm təşəbbüslərlə çıxış edir. Biz milli media strategiyamızı beynəlxalq təcrübə ilə uzlaşdıraraq, jurnalistlərin peşəkarlığının artırılmasına, faktlara əsaslanan xəbərlərin yayılmasına və media savadlılığının inkişafına xüsusi diqqət yetiririk. Eyni zamanda, biz regional əməkdaşlıq vasitəsilə ortaq informasiya platformalarının yaradılmasını dəstəkləyirik.

Bugünkü Forum dost ölkələrin media qurumları arasında qarşılıqlı təcrübə mübadiləsi üçün əlverişli imkanlar yaradan yeni əməkdaşlıq müstəvisidir. İnanıram ki, burada səslənəcək ideyalar, təkliflər və irəli sürüləcək birgə layihə təşəbbüsləri gələcəkdə D-8 ölkələrinin informasiya siyasətində mühüm rol oynayacaqdır.

D-8 Media Forumunun xalqlarımız arasında əməkdaşlıq, qarşılıqlı etimad və həmrəyliyin möhkəmlənməsinə, informasiya təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verəcəyinə ümidvar olduğumu bildirir, forumun işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 noyabr 2025-ci il**

# Baş nazir Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 21-də Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Dorin Boqdan-Martin ilə görüşüb.**



Görüşdə Beynəlxalq Telekommunikasiya İttifaqının Bakıda keçirilən Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının əhəmiyyəti vurğulanıb. Konfransın Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə Azərbaycanda təşkil edilməsi əlamətdar hadisə kimi qiymətləndirilib, tədbirdə 2500 mütəxəssisin iştirak etdiyi qeyd olunub.

Konfrans çərçivəsində Bakı şəhərində Beynəlxalq Telekommunikasiya İttifaqının Regional Akselerasiya Mərkəzinin açılışının əhəmiyyətinə toxunularaq, Mərkəzin region üçün innovasiya və sahibkarlıq sahəsində aparıcı platformaya çevriləcəyinə əminlik ifadə olunub.

Azərbaycanda İKT sektorunun, informasiya və biliklər iqtisadiyyatının, süni intellektin inkişaf etdirilməsi, rəqəmsal infrastrukturun genişləndirilməsi, kibercinayətkarlıqla mübarizənin gücləndirilməsi sahələrində görülən ardıcıl tədbirlər barədə söhbət açılıb.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İKT sektorunun inkişafını ölkəmizdə prioritet istiqamət elan edib. Cari ildə Rəqəmsal İnkişaf Konsepsiyası və 2025-2028-ci illəri əhatə edən Süni İntellekt Strategiyası təsdiq edilib.

Azərbaycanın bu gün 100 faizlik genişzolaqlı internet əhatə dairəsi ilə regionda lider mövqe tutduğu diqqətə çatdırılıb.

Yüksək texnologiyaların inkişafının "ağıllı şəhər/ağıllı kənd” konsepsiyasının tətbiqinə zəmin yaratdığı diqqətə çatdırılıb, hazırda ölkəmizin işğaldan azad edilmiş ərazilərində bu konsepsiyaya əsaslanan unikal və innovativ şəhərsalma modelinin geniş tətbiqi barədə məlumat verilib.

Görüşdə Azərbaycan ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında rəqəmsal transformasiya, kibertəhlükəsizlik, elektron hökumət və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Beynəlxalq Telekommunikasiya İttifaqının beynəlxalq təcrübəsinin xüsusilə rəqəmsal idarəetmə, rəqəmsal bacarıqların artırılması sahəsində tətbiqinin ölkəmiz üçün faydalı olacağı qeyd edilib.

Eyni zamanda, Azərbaycan nümayəndələrinin Beynəlxalq Telekommunikasiya İttifaqının rəhbər orqanlarında və işçi qruplarında təmsilçiliyinin artırılması, xüsusilə İttifaqın Şurasında ölkəmizin üzvlüyünün növbəti müddətə uzadılması və ikitərəfli əməkdaşlıq gündəliyində duran digər məsələlər ətrafında müzakirələr aparılıb.

***XQ***

# Azərbaycanın daxili işlər naziri Gürcüstanda





**Gürcüstanın Baş naziri İrakli Kobaxidze Tbilisidə rəsmi səfərdə olan Azərbaycanın daxili işlər naziri Vilayət Eyvazov ilə görüşüb.**

Görüş zamanı iki ölkə arasında səmərəli əməkdaşlığın və strateji tərəfdaşlığın daha da dərinləşdirilməsi perspektivləri müzakirə olunub. Bildirilib ki, Gürcüstan və Azərbaycanın hüquq-mühafizə orqanları arasında illər ərzində qurulan uğurlu ikitərəfli tərəfdaşlıq mövcuddur. Qeyd olunub ki, bu gün iki ölkənin Daxili İşlər nazirlikləri arasında imzalanmış əməkdaşlıq sazişi tərəfdaşlığı gücləndirəcək, xüsusilə cinayətlərin qarşısının alınması, açılması və təqsirkarların müəyyənləşdirilməsi sahəsində birgə fəaliyyətə töhfə verəcək.

Görüş zamanı regionda sabitliyin və davamlı sülhün təmin edilməsinin vacibliyi də diqqətə çatdırılıb.

*

**Azərbaycanın daxili işlər naziri Vilayət Eyvazov Gürcüstana rəsmi səfəri çərçivəsində bu ölkənin daxili işlər naziri Geka Geladze ilə də görüşüb.**

Görüşdə ölkələrin Daxili İşlər nazirlikləri arasında ikitərəfli əlaqələr, hər iki xalqın maraqlarına uyğun olaraq təhlükəsizlik məsələləri müzakirə edilib.

Səfər çərçivəsində nazirliklər arasında qarşılıqlı informasiya mübadiləsi, əməkdaşlıq və birgə təhlükəsizlik tədbirlərinə dair saziş imzalanıb.

***XQ***

# D-8 Media Forumu

**Bakıda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin media sahəsinə məsul qurumlarının və aparıcı media subyektlərinin rəhbərlərinin, digər yüksəkvəzifəli nümayəndələrin və sahə üzrə tanınmış ekspertlərin iştirakı ilə "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumu keçirildi.**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev əvvəlcə Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətini səsləndirib.

Tədbirdə çıxış edən D-8 təşkilatının Baş katibi İsiaka Abdulqadir İmam təşkilata üzv ölkələrin əməkdaşlığının təkcə iqtisadiyyatda deyil, həmçinin media və kommunikasiya sahəsində böyük önəm daşıdığını deyib: "Azərbaycan D-8-ə üzv seçilən gündən öz töhfəsini əsirgəməyib, bu təşkilatda qeyri-adi təşəbbüslərlə çıxış edib. Keçən ay keçirilən D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoqunda yol xəritəsi müəyyən olunub".

Baş katibin sözlərinə görə, D-8 təşkilatı öz mövqeyini, həmçinin medianın nüfuzunu və təsir gücünü artırmalıdır. "Təşkilatımızın tutduğu mövqeyi beynəlxalq səviyyəyə çatdırmalıyıq. Planlarımızda ümumi yayım assosiasiyasını yaratmaq var. Həmçinin təşkilata üzv ölkələrdə jurnalistika məktəblərinin yaradılmasını və təqaüdlərin ayrılmasını təklif etmək istərdik. Bu tədbirin hər il keçirilməsi medianın inkişaf etdirilməsinə kömək ola bilər. D-8 ölkələrinin birgə əməkdaşlıq edərək fərqlənmə mərkəzi ərsəyə gətirmələri üçün vəsait ayrılmasını təklif edirik", - deyə İsiaka Abdulqadir vurğulayıb.





Pakistanın federal informasiya və yayım naziri Attaullah Tarar Azərbaycanın D-8-in tamhüquqlu üzvü olduqdan sonra bu təşkilata verdiyi dəstəyi dəfələrlə nümayiş etdirdiyini diqqətə çatdırıb. Nazir qeyd edib ki, qlobal informasiya məkanında qeyri-adi transformasiyalar baş verir. Artıq ənənəvi çap mediasından rəqəmsal mediaya keçid sürətlə baş verir və bu sahə dinamik şəkildə inkişaf edir. "Təklif edirəm ki, D-8 təşkilatına üzv dövlətlərin media peşəkarları və media nazirlikləri arasında işçi qrupu yaradılsın. Bu qrup mütəmadi görüşlər keçirərək fikir mübadiləsi aparsın", - deyən pakistanlı nazir, həmçinin media mühitində dezinformasiyanın qarşısını almaq məqsədilə D-8 üzvləri üçün vahid platformanın yaradılmasını təklif edib.

Banqladeşin Məlumat və Yayım Nazirliyinin baş katibi Noor Md. Mahbubul Haq öz növbəsində deyib: "Bu gün biz ənənəvi elektron mediadan deyil, artıq təkamül etmiş yeni mediadan - sosial şəbəkələrdən danışırıq. Sosial şəbəkələr ənənəvi medianın sərhədlərini aşaraq informasiyanın son dərəcə sürətlə yayılmasına imkan yaradır".

Misir Ərəb Respublikasının Kütləvi İnformasiya Vasitələrinin Tənzimlənməsi üzrə Ali Şurasının sədr müavini Essam Alamir İsmayıl Xəlil D-8 təşkilatına üzv dövlətlər arasında dialoqun, əməkdaşlığın və koordinasiyanın gücləndirilməsi naminə sıx əməkdaşlığa böyük ehtiyac olduğunu qeyd edib. Bu təşkilat böyük insan resursu, iqtisadi potensialı və zəngin mədəni müxtəlifliyi ilə təkcə regional platforma deyil, həm də qlobal təsir gücünə malik birlik kimi çıxış edə bilər.

İndoneziyanın Xarici İşlər Nazirliyinin çoxtərəfli məsələlər üzrə baş siyasi məsləhətçisi Agustaviano Sofjan D-8 Media Forumunun ilk dəfə Azərbaycanda keçirildiyi üçün məmnunluğunu ifadə edərək deyib: "Rəqəmsal platformaların inkişaf etdiyi dövrdə biz bu sahəyə ciddi şəkildə nəzarət yetirməliyik və öz töhfələrimizi verməliyik".

İranın Xarici İşlər Nazirliyinin xarici media üzrə baş direktoru və sözçünün müavini Alireza Miryusefi Aval D-8 təşkilatının, ilk növbədə, iqtisadi əməkdaşlığı təşviq etmək məqsədilə yaradığını diqqətə çatdırıb: "Lakin bu gün biz hamımız yaxşı anlayırıq ki, üzərimizdə yalnız iqtisadi sahə ilə məhdudlaşmayan, daha geniş ölçülü məsuliyyət mövcuddur. Bu məsuliyyət, ilk növbədə, informasiya məkanında aydınlıq, şəffaflıq və etibarlılığın təmin edilməsindən ibarətdir. Bu isə hər bir ölkənin ictimai rifahına, regional sabitliyə və qlobal təhlükəsizliyə xidmət edən strateji hədəfdir".

Malayziya Milli Xəbər Agentliyinin (BERNAMA) Baş direktoru Nur-ul Afida Kamaludin tədbirin dinamik inkişaf edən tarixi Bakı şəhərində keçirildiyini vurğulayaraq bu gün mədəniyyət, tarix və digər məsələlərdən danışarkən, əlaqələrimizin möhkəmlənməsində medianın ortaq dəyərlərimizi birləşdirən mühüm vasitə olduğunu söyləyib.

Nigeriya Mətbuat Şurasının Baş direktoru Dili Ezughah Azərbaycana ilk səfəri olduğunu və hava limanından tədbir məkanına qədər gördüyü mənzərənin onda böyük təəssürat yaratdığını deyib. O qeyd edib ki, D-8 Media Forumu olduqca böyük əhəmiyyət kəsb edən bir platformadır. Dayanıqlı həllər isə hər bir ölkənin öz reallıqlarından irəli gəlir. Məhz buna görə də medianın inkişafı sahəsində əməkdaşlıq bizim üçün strateji önəm daşıyır.

Türkiyə Prezidentinin Rabitə, Strateji Rabitə və Böhran İdarəetmə İdarəsinin rəisi Bora Bayraktar bu gün ölkələrin hibrid təhdidlərlə üzləşdiyini söyləyib: "Süni intellektlə hazırlanan xəbərlərin sürətlə yayılması cəmiyyətin dövlət təsisatlarına inamına zərbə vura bilər".

Forum panel sessiyalarla davam edib.

*

D-8 Media Forumu çərçivəsində "Məsuliyyətli jurnalistika və rəqəmsal innovasiya" mövzusuna həsr olunmuş panel sessiya təşkil edilib.




"AnewZ" beynəlxalq televiziya kanalının baş redaktor müavini Orxan Amaşovun moderatorluq etdiyi panel sessiyada müasir media mühitində məsuliyyətli informasiya istehsalı və rəqəmsal transformasiyanın yaratdığı imkanlar barədə müzakirələr aparılıb.

Banqladeş Mətbuat İnstitutunun Baş direktoru Faruk Vasif Omar qeyd edib ki, ölkələr arasında əməkdaşlıq, təcrübə mübadiləsi və birgə texnoloji həllərin hazırlanması zəruridir. Biz real və saxta məzmunu ayırd edən sistemləri inkişaf etdirməli, süni intellektlə yaradılmış videoların aydın şəkildə etiketlənməsini təmin etməliyik. Bu, həm ictimai etimadın qorunması, həm də məlumat təhlükəsizliyi üçün həyati əhəmiyyət daşıyır.

Misirin "Al-Ahram National Foundation" media qurumunun "Al-Ahram Weekly" və "Al-Ahram Online" nəşrlərinin baş redaktoru Ezzat İbrahim Azərbaycanın D-8 təşkilatına verdiyi önəmi yüksək qiymətləndirərək deyib: "Bu gün Media Mükəmməllik Mərkəzinin yaradılması isə xüsusilə təqdirəlayiq addımdır. Çünki ənənəvi media sisteminə rəhbərlik edən qurumlar bu gün çox ciddi bir çağırışla üzləşiblər. Süni intellekt sənayesinin sürətli inkişafı mövcud vəziyyəti tamamilə dəyişib. Artıq ənənəvi media orqanları əvvəlki kimi tək mənbə və ya əsas istiqamətverici rolunu asanlıqla qoruya bilmir. AI həm məzmun istehsalını sürətləndirir, həm məlumat axınını dəyişir, həm də müxtəlif platformalar vasitəsilə ənənəvi medianın təsir gücünü azaldır. Bu reallıq mediaya yeni yanaşmalar, yeni strategiyalar və yeni öyrənmə prosesləri tələb edir. D-8 çərçivəsində yaradılan mərkəz isə məhz bu çağırışlara kollektiv cavab vermək üçün böyük imkan yaradır".

İndoneziyadan rəqəmsal biznes və media innovasiyası üzrə ekspert Ferdian vurğulayıb ki, jurnalistlər süni intellekt əsaslı texnologiyalardan həddindən artıq asılı vəziyyətə düşə bilərlər. Bu isə peşəkar qərarvermənin, mənbəyi yoxlama mədəniyyətinin və redaksiya məsuliyyətinin zəifləməsinə səbəb ola bilər. "Süni intellekt bəzən həqiqi mənbələri şübhə altına ala və ya yanlış izahlar yarada bilər. Bu problem xüsusilə media sahəsində işləyənlərə daha aydın görünür, çünki onlar real məlumatın, faktların və etibarlı mənbələrin nə qədər vacib olduğunu dərindən bilirlər. Ancaq mühüm məsələ bu sahədə işləməyən geniş ictimaiyyətin düzgün məlumatlandırılmasıdır. Bu, hamımızın üzərinə düşən məsuliyyətdir. Media nümayəndələri, ekspertlər, dövlət qurumları və akademik dairələr birlikdə çalışaraq ictimaiyyət üçün maarifləndirici təlimlər, sadə izahlarla təqdim olunan məzmunlar və asan başa düşülən qaydalar hazırlamalıdır. İnsanlara süni intellektdən istifadə qaydaları, məlumatın doğruluğunu yoxlama üsulları və dezinformasiya ilə mübarizə üçün praktik metodlar izah edilməlidir", - deyə indoneziyalı ekspert vurğulayıb.

İranlı jurnalist, "Press TV"nin Beynəlxalq əlaqələr üzrə direktoru Elham Abedini isə bildirib ki, süni intellektlə bağlı etik aspektlər mütləq nəzərə alınmalıdır. Biz bu gün, əlbəttə, süni intellektdən geniş şəkildə istifadə edirik. Lakin digər tərəfdən qarşımızda çoxsaylı çağırışlar dayanır və onların ən əsası məhz etik məsələlərdir, faktların yoxlanılmasıdır. Çünki faktların hansısa məqsəd naminə dəyişdirilməsi və ya manipulyasiya olunması ciddi təhlükə yaradır. Məsuliyyətli jurnalistika isə bu baxımdan çox çətin, eyni zamanda, olduqca vacib bir vəzifədir. "Media nümayəndələri, xəbər istehsalçıları və texnologiya qurumları etik prinsipləri qorumağı özünün əsas missiyası kimi qəbul etməlidirlər. Süni intellektdən istifadə bizi sürətləndirə bilər, lakin etika və faktların doğruluğu unudularsa, informasiya mühitinin bütövlüyü zərər görər", - deyə E.Abedini əlavə edib.

Panel sessiya müzakirələrlə davam edib.

*




Forum çərçivəsində "Strateji kommunikasiya və böhranın idarə olunması" mövzusunda ikinci panel sessiya da təşkil edilib.

Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü Şəfəq Mehrəliyevanın moderatorluğu ilə keçirilən panel müzakirədə Malayziya Milli Xəbər Agentliyinin Kommersiya Departamentinin rəhbəri Mastura Hassan, Nigeriyanın informasiya və milli istiqamət nazirinin tədqiqat və strategiya üzrə köməkçisi Saidu Ahmed, Pakistan Televiziyasının rəhbəri Adil Şahzeb, Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin Strateji kommunikasiya və böhran idarəetməsi departamentinin rəhbəri, dosent Bora Bayraktar isə spiker qismində çıxış edərək dövlət qurumlarının kommunikasiya strategiyalarının yenilənən informasiya mühiti ilə uyğunlaşdırılması barədə fikirlərini bölüşüblər.

Panel sessiya zamanı iştirakçılar böhran vəziyyətlərində operativ, şəffaf və dəqiq məlumatlandırmanın ictimai etimadın qorunmasındakı rolunu vurğulayıblar. Müzakirələrdə rəsmi qurumların kommunikasiya fəaliyyətinin koordinasiyası, vahid informasiya axınının idarə olunması, sosial media platformalarında böhran kommunikasiya alətlərindən istifadə imkanları və informasiya risklərinin qiymətləndirilməsi kimi məsələlər geniş şəkildə təhlil edilib.

Proqram çərçivəsində media və kommunikasiya üzrə beynəlxalq ekspert Tiffany J.Bell tərəfindən "Rəqəmsallaşan dünyada media etikası: Texnologiyalar, trendlər və narrativlər" mövzusunda vörkşop keçirilib. Vörkşop zamanı media etikasının yeni texnoloji reallıqlarda qarşılaşdığı çağırışlar, rəqəmsal platformalarda məsuliyyətli davranış qaydaları və innovativ kommunikasiya tendensiyaları haqqında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, forumda 8 ölkədən və Təşkilatın Katibliyindən 71 xarici nümayəndə olmaqla, ümumilikdə 150-ə yaxın qonaq iştirak edib.

*

Bakıda keçirilən "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumunda üzv dövlətlər arasında media sahəsində birgə inkişaf və əməkdaşlıq ilə bağlı Bakı Bəyannaməsi imzalanıb.

*XQ*

## D-8 Media Forumunun Bakı Bəyannaməsi

"Biz - İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) üzvlərinin - Azərbaycan Respublikasının, Banqladeş Xalq Respublikasının, Misir Ərəb Respublikasının, İndoneziya Respublikasının, İran İslam Respublikasının, Malayziyanın, Nigeriya Federativ Respublikasının, Pakistan İslam Respublikasının və Türkiyə Respublikasının hökumətləri və media nümayəndələri 2025-ci il noyabrın 21-də "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda keçirilən birinci D-8 Media Forumu üçün Azərbaycanın Bakı şəhərində görüşdük.

Biz D-8-in gücləndirilməsinə, onun daha dinamik, nüfuzlu iqtisadi blok kimi inkişaf etdirməyə yönəlmiş liderliyinə və dəyərli töhfələrinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.

Biz, həmçinin D-8-in bütün üzv dövlətlərinin, xüsusilə informasiya nazirliklərinin, milli media orqanlarının və media agentliklərinin forumun işinə verdikləri fəal və dəyərli töhfələri yüksək qiymətləndiririk.

D-8-in prinsiplərini bir daha təsdiqləyərək və inkişaf edən qlobal media mühitində daha fəal əməkdaşlığın getdikcə artan əhəmiyyətini anlayaraq, aşağıdakıları bəyan edirik:

Qarşılıqlı anlaşmanı, regional həmrəyliyi və ortaq inkişaf məqsədlərini təşviq etmək üçün D-8-in üzv dövlətləri arasında media sahəsində əməkdaşlığı gücləndirməyə sadiqliyimizi bir daha vurğulayırıq.

D-8 Media Forumunun inklüzivliyi və ortaq məsuliyyəti təmin etmək üçün D-8 üzv dövlətləri tərəfindən təşkil olunan bir platforma kimi institutlaşdırılması təklifini qəbul edirik.

Bütün üzv dövlətlərin fəal iştirakı ilə təlim, tədqiqat, innovasiya, rəqəmsal bacarıqların inkişafı və əlaqələndirilmiş kommunikasiya təşəbbüsləri üçün Azərbaycan tərəfindən təşkil olunacaq D-8 Media Mükəmməlliyi Mərkəzinin ən tez zamanda fəaliyyətə başlamasına çağırış edirik.

D-8-in üzv dövlətlərdə institusional və insan resursları imkanlarını gücləndirmək üçün D-8 Media Mükəmməlliyi Mərkəzi vasitəsilə strukturlaşdırılmış potensialın artırılması proqramları, seminarlar və peşəkar mübadilələrin inkişaf etdirilməsi.

İnformasiya mübadiləsini möhkəmləndirmək, strategiyaları uyğunlaşdırmaq və birgə məzmunla bağlı təşəbbüsləri dəstəkləmək üçün milli media orqanları, xəbər agentlikləri və ictimai yayımçılar arasında əməkdaşlığın gücləndirilməsi.

Proqram mübadiləsi, birgə istehsal, həmçinin mədəniyyət və təhsil sahəsi ilə bağlı məzmunun paylaşılmasını asanlaşdırmaq üçün D-8 Ölkələrinin Yayım Assosiasiyasının yaradılması təşəbbüsünün nəzərə alınması.

D-8-in birgə istehsal və ölkələrarası məlumatların yayılması üçün D-8 rəqəmsal platformaların yaradılmasının təşviq edilməsi və bununla da qlobal miqyasda D-8-lə bağlı məlumatlaırn ictimaiyyətə çatdırılmasının təmin olunması.

Paylaşılan fakt yoxlama mexanizmləri, ortaq yoxlama vasitələri və sürətli kommunikasiya kanalları vasitəsilə yanlış məlumatlandırma, dezinformasiya və nifrət nitqinə qarşı mübarizə aparmaq məqsədilə əlaqələndirilmiş səylərin təşviqi.

Zərərli rəqəmsal məzmuna və qarşıya çıxan risklərə qarşı kollektiv dayanıqlığın təmin edilməsi üçün beynəlxalq media təşkilatları, tədqiqat qurumları və qlobal kommunikasiya şəbəkələri ilə tərəfdaşlığın gücləndirilməsi.

Jurnalistikanın etik standartlarının təmin olunması və bütün media formatlarında peşəkarlığı, məsuliyyəti və dəqiqliyi özündə ehtiva edən vahid D-8 davranış kodeksinin hazırlanmasının dəstəklənməsi.

Üzv dövlətlərdə rəqəmsal baxımdan məlumatlı vətəndaşlığı və daha təhlükəsiz onlayn mühiti təşviq etmək məqsədilə xüsusilə gənclər və müəllimlər üçün media savadlılığı təşəbbüslərinin inkişaf etdirilməsi.

Media texnologiyalarında məsuliyyətli innovasiyanı, həmçinin məzmun yaradılması, yoxlanılması və idarə olunmasında süni intellektdən şəffaf və etik istifadənin təmin edilməsinin dəstəklənməsi.

Jurnalistika institutları və məktəbləri arasında əməkdaşlığın gücləndirilməsi, təqaüdlərin, akademik mübadilələrin və jurnalistlər üçün peşəkar inkişafın təşviq edilməsi.

D-8 Media Mükəmməlliyi Mərkəzinin Azərbaycandakı rəhbərliyi ilə sıx əməkdaşlıq etməyə hazır olduğumuzu bildirir və onun səmərəli fəaliyyətini dəstəkləmək, ortaq prioritetlərin həyata keçirilməsinə dəstək vermək və D-8-in bütün üzv dövlətlərində media sahəsində əməkdaşlığın gücləndirilməsini inkişaf etdirmək üçün kollektiv öhdəliyimizi bir daha vurğulayırıq.

Biz inanırıq ki, bu bəyannamənin səmərəli şəkildə həyata keçirilməsi daha sıx qarşılıqlı əlaqəli, məlumatlandırılmış və davamlı D-8 media məkanına töhfə verəcək, bu da ölkələrimiz arasında sülhü, inkişafı və qarşılıqlı anlaşmanı dəstəkləyəcək.

İlk dəfə təşkil olunan D-8 Media Forumunun uğurla keçirilməsi üçün yüksək səviyyədə həyata keçirilən tədbirlərə görə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə minnətdarlığımızı bildiririk.

Bəyannamə 2025-ci il noyabrın 21-də Azərbaycan Respublikasının Bakı şəhərində qəbul edilib".

# D-8 platforması diqqət mərkəzində

(əvvəli 1-ci səhifədə)




Əslində, D-8-in mərkəzində İslam dünyasının yalnız dini identikliyi deyil, həm də sınaqlarla dolu inkişaf trayektoriyası dayanır. Bunlar illərdir qlobal iqtisadi düzəndə kənarlara sıxışdırılan, ticarət balansı mənfi, texnologiya ixracatçısı olmayan, enerji və xammal təminatçıları kimi qalan dövlətlərdir. Elə buna görə də D-8 özünü alternativ iqtisadi platforma kimi təqdim edir: bir tərəfdən ədalətli ticarət modelinə keçidi hədəfləyir, digər tərəfdən isə Qlobal Cənubun siyasi iradəsini daha koordinasiyalı şəkildə ifadə etmək istəyir. D-8 nə mühafizəkar, nə də ideoloji birlikdir; daha çox rasional maraqların üst-üstə düşdüyü realpolitik mərkəzidir.

Bəs belə bir coğrafi fraqmentasiya fonunda D-8 nə dərəcədə təsirli ola bilər? Məsələn, İndoneziya ilə Nigeriyanı, Pakistanla Misiri eyni masaya oturtmaq hansı ölçüdə fayda gətirir? Bu baxış səthi analiz təsiri bağışlaya bilər, çünki platformanın məqsədi regional birlik yaratmaq deyil, müsəlman ölkələrinin potensialını qlobal iqtisadi sistemdə daha sərfəli şəkildə birləşdirməkdir. D8 ölkələrinin ümumi ÜDM-i 4 trilyon dollardan çox, əhalisi isə 1 milyarddan artıqdır. Enerji, texnologiya, istehsal və ticarət sahələrindəki potensialı bir araya gətirsək, ortaya beynəlxalq sistemdə yeni çəkidə bir oyunçu çıxır. Burada daha maraqlı sual ortaya çıxır: D-8 real güc mərkəzinə çevrilə bilərmi?

Analitik yanaşma göstərir ki, təşkilatın gələcəyi institusional mexanizmlərin nə dərəcədə gücləndirilməsindən asılıdır. Əgər üzv dövlətlər vahid ticarət qaydaları, enerji tranziti mexanizmləri və texnoloji əməkdaşlıq xətti qura bilsə, D-8 yalnız iqtisadi blok deyil, həm də qlobal siyasətin mühüm qolu ola bilər. Yox əgər bu koordinasiya zəif qalsa, platforma zamanla simvolik xarakter daşıyan geniş "dialoq çərçivəsi"nə çevriləcək. Maraqlısı odur ki, D-8-in gələcək transformasiyası indi yalnız üzv ölkələrdən asılı deyil. Qlobal sistemdə Qərb–Şərq güc balansının dəyişməsi, enerji yollarının yenidən çəkilməsi, Asiyanın yüksəlişi və İslam dünyasının öz iqtisadi mərkəzlərini formalaşdırmaq istəyi bu quruma yeni dinamika qazandırır. Məhz belə bir kontekstdə Azərbaycan məsələsi diqqət mərkəzinə gəlir. Çünki sual artıq budur: Azərbaycan D-8-in kənarında dayanacaq təsadüfi müşahidəçi dövlət olaraq qalır, yoxsa bu platformanın yeni strateji dayağına çevrilmək potensialına malikdir? D-8-in indiki vəziyyəti və regionun dəyişən geosiyasi reallıqları göstərir ki, bu sual getdikcə praktik xarakter almağa başlayır. Ənənəvi oyunçuların yanında yeni güc qovşaqlarının yaranması, xüsusən enerji, nəqliyyat və diplomatik əlaqələndirmə sahəsində Azərbaycanın yüksəlişi bu platformaya başqa prizmadan baxmağı tələb edir.

D-8-in strukturuna diqqətlə baxanda bir məqam dərhal nəzərə çarpır: bu təşkilatın üzvləri böyük əhali və iri iqtisadi gövdələrə malik olsa da, yekun mənzərədə onları birləşdirəcək vahid tranzit, enerji və siyasi koordinasiya mərkəzi yoxdur. Bu, təşkilatın ən zəif nöqtəsidir və uzun illərdir D-8-in institusional olaraq güclənməsinə mane olan amillərdən biridir. Elə bu boşluq fonunda Azərbaycan məsələsi öz-özünə deyil, reallığın içindən doğularaq aktuallaşır. Azərbaycan hazırda Avrasiya məkanında təkcə coğrafi deyil, siyasi baxımdan da keçid ölkəsi statusuna yeni məna qazandıran nadir dövlətlərdəndir. Klassik mənada tranzit ölkəsi olmaq – yəni boru xətlərinin keçdiyi məkan rolunda qalmaq artıq kifayət etmir. Müasir geosiyasət tranzitdən daha çox "tranzitin idarəçiliyini" önə çıxarır. Azərbaycan isə həm nəqliyyat, həm enerji, həm də siyasi koordinasiya baxımından bu idarəçilik gücünü formalaşdırıb.

Niyə məhz Azərbaycan və niyə məhz indi? Cavab çoxşaxəlidir, amma səbəblər, bir-birini tamamlayan məntiq var. Birincisi, Azərbaycan son onillikdə enerji diplomatiyasını regional alətdən qlobal təsir mexanizminə çevirib. TANAP və TAP Avropanın enerji xəritəsini yenidən çəkdi, Bakı–Tbilisi–Ceyhan isə hələ 2006-cı ildən bəri Qara dəniz və Aralıq dənizi arasında yeni enerji koridoru qurdu. Bunlar isə D-8 üçün son dərəcə kritik məsələdir, çünki təşkilat üzvlərinin əksəriyyəti enerji baxımından ya idxalatçı, ya da ixracatçı olsa da, bu iki qütb arasında səmərəli əlaqə yarada biləcək sabit tranzit qovşağına malik deyillər. İkincisi, Azərbaycan logistik baxımdan D-8-in ən zəif halqalarına cavab verir. İslam dünyasının demək olar ki, bütün ticarət axınları ya Hind okeanına, ya da Qırmızı dəniz–Süveyş xəttinə fokuslanıb. Bu marşrutların hər ikisi həm bahalıdır, həm də təhlükəlidir. Orta Dəhliz isə tam fərqli coğrafi logika təklif edir.

Elə bu kontekstdə başqa maraqlı bir analitik sual ortaya çıxır: Əgər Zəngəzur dəhlizi tam açıq və davamlı işlək vəziyyətə gəlsə, bu, D-8 üçün nə demək olar? Cavab kifayət qədər açıqdır: D-8-in iqtisadi xəritəsi Qahirədən Cakartaya qədər uzanan, amma heç yerdə tam birləşməyən bir mozaikadan ibarətdir. Zəngəzur isə bu mozaikanın çatışmayan parçalarından biridir. Pakistan–Azərbaycan–Türkiyə xətti yalnız üç ölkənin maraqlarını deyil, faktiki olaraq, bütün D-8 məkanının Avrasiya iqtisadi sisteminə inteqrasiyasını təmin edə bilər.

Üçüncüsü, Azərbaycanın geosiyasi mövqeyi D-8 üçün sabitlik faktorudur. İslami birliklər çox halda ideoloji çərçivəyə sıxılır və praktik nəticə vermir. Azərbaycan isə həm Qərblə, həm regionla, həm Türkiyə ilə, həm də müsəlman dünyasının müxtəlif siyasi blokları ilə balanslı münasibət qura bilən azsaylı ölkələrdəndir.

Azərbaycan bu ziddiyyətli xəritədə vasitəçi güc kimi qəbul oluna bilərmi? Əgər son illərin diplomatik xəritəsinə baxsaq, cavab birmənalı şəkildə müsbətdir. Bakı həm İslam Əməkdaşlıq Təşkilatında, həm də Qoşulmama Hərəkatında dialoq yönümlü siyasətlə çıxış edib və qarşıdurmaların yumşaldılması prosesində fəal iştirak edib. Mövcud təcrübə D-8 çərçivəsində də mühüm rol oynaya bilər, çünki iqtisadi uğur siyasi sabitlik və qarşılıqlı etimaddan keçir. Dördüncü bir səbəb də var: Azərbaycanın yumşaq güc modelinin D-8 üçün cəlbedici olması. Bakı multikulturalizm ideyasını diplomatik alət kimi istifadə edir.

Azərbaycanın D-8 məkanında aktiv oyunçuya çevrilməsi təkcə təşkilatın öz strukturuna yeni dinamika gətirməz; bu proses Azərbaycanın regional və qlobal siyasətdəki yerini də daha gözəçarpan şəkildə möhkəmləndirər. Burada məntiq sadədir: iqtisadi platformalar təkcə iqtisadiyyatla məhdudlaşmır. Onlar yeni diplomatik əlaqələr, təhlükəsizlik çərçivələri, tranzit üstünlükləri və bazar inteqrasiyaları yaradır. D-8 kimi inkişaf etməkdə olan, böyük potensiala malik blok kimi Azərbaycan üçün həm meydan, həm də imkanlar sistemidir. Məsələni sadə bir sualla başlayaq: Əgər Azərbaycan rəsmi olaraq D-8 platformasına qoşulsa və ya genişlənmə modellərində xüsusi tərəfdaş statusu alsa, real nəticələr nə ola bilər?

Birinci nəticə iqtisadi xarakter daşıyır. Azərbaycan hazırda enerji ixracatçısı kimi tanınsa da, gələcək inkişaf modelində texnoloji modernizasiya, rəqəmsal iqtisadiyyat və tranzit xidmətləri ön plana çıxır. D-8 məkanında isə texnologiya istehsalı və rəqəmsal modernizasiya sahəsində ciddi boşluqlar var. Pakistanın kibertexnologiya üzrə yüksəlişi, Malayziyanın yüksək texnologiya sənayesi, İndoneziyanın startap ekosistemi, Türkiyənin müdafiə sənayesi təcrübəsi – bütün bunlar Azərbaycanla birlikdə dayanıqlı texnoloji sinerji yarada bilər. Bakı bu prosesdə həm texnologiya idxalçısı deyil, həm də regional rəqəmsal qovşaq kimi çıxış edə bilər.

İkinci strateji qazanclar logistika və ticarət xəritəsinin dəyişməsi ilə bağlıdır. D-8 daxilində ticarətin həcmi potensialına nisbətən aşağıdır və ən böyük səbəb dəhlizlərin parçalanmış olmasıdır. Azərbaycan bu problemi neytrallaşdırır. Bakı–Tbilisi–Qars xətti, Bakı limanı, Orta Dəhliz və gələcək Zəngəzur dəhlizi D-8 məkanının Avrasiya ilə birləşdirici sütunlarına çevrilə bilər. Əgər bir blok öz tranzit sistemini idarə edə bilirsə, o blok artıq siyasi gücdür. Azərbaycan isə məhz bu idarəçiliyi təmin edə biləcək yeganə aktorlardan biridir.

Üçüncü perspektiv təhlükəsizlik və müdafiə əməkdaşlığıdır. Azərbaycan, Türkiyə və Pakistan arasında artıq formalaşan strateji üçlük D-8 çərçivəsində genişlənə bilər. Misir kimi ərəb dünyasının əsas gücü, İran kimi regionun mühüm aktoru



və Nigeriya kimi Afrika nəhəngi ilə genişləndirilmiş təhlükəsizlik dialoqu Azərbaycanın mövqeyini daha da gücləndirə bilər.

Burada başqa bir sual ortaya çıxır: Azərbaycan üçün belə bir təhlükəsizlik çərçivəsi nə dərəcədə faydalıdır? Fayda əsasən iki istiqamətdə özünü göstərir:

Biri, Azərbaycanın öz təhlükəsizlik paradiqmasını regional səviyyədən qlobal səviyyəyə daşımasıdır. Digəri isə ölkənin strateji tərəfdaşlarının sayının və coğrafiyasının genişlənməsidir.

Bütün bu istiqamətləri yan-yana qoyanda ortaya aydın mənzərə çıxır: Azərbaycan D-8 sisteminə daxil olarsa, həm Qlobal Cənubun yeni iqtisadi arxitekturasında, həm Avrasiyanın logistika xəritəsində, həm də müsəlman dünyasının siyasi koordinasiya sistemində aparıcı oyunçuya çevrilə bilər.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

---

# "3+3" vacibdir, ...amma nəyə görə?

## *Rusiya, regional gündəlik və gözləntilər*

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova "3+3" regional məşvərət formatı çərçivəsindəki növbəti görüşün Bakıda və ya İrəvanda keçirilməli olduğunu xatırladıb. Ən doğru ifadə isə budur: M.Zaxarova, ümumən, belə bir formatın mövcudluğunu yada salıb. Yeri gəlmişkən, son vaxtlar Rusiya rəsmiləri "3+3"dən danışmağa həvəslidirlər. Yazımızda bu həvəsin nədən qaynaqlandığı barədə söz açacağıq. Amma əvvəlcə başqa məqamları vurğulayaq.**




İlk növbədə, Rusiyanın "3+3" regional məşvərət formatını qabartması üzərində dayanaq. Cənubi Qafqaz müstəvisində cərəyan edən proseslər fonunda ölkənin ictimai cəbhədə təmsil olunan bəzi şəxslərin son dərəcə aqressiv bəyanatlar vermələrini nəzərə alsaq, Kremlin belələrinin baxışlarına deyil, diskussiyalara üstünlük verməsi müsbət haldır. Deməli, rəsmi Moskva hərbə-zorbalıqdan uzaqdır, bölgəyə dair məsələlərdə müzakirə məntiqini qorumağa meyillidir.

İkinci məqam. Xatırladaq ki, 44 günlük müharibədən sonra Azərbaycan Türkiyə ilə birgə regionda yeni əməkdaşlıq formatını təklif etdi. Bu, 2020-ci ilin sonunda oldu. 2021-ci ildə mövcud təşəbbüs "3+3" regional məşvərət formatı kimi təşəkkül tapdı. Özü də Moskvada. Yəni qurumun ənənəvi olaraq xarici işlər nazirləri səviyyəsində keçirilən ilk görüşü Rusiyanın paytaxtında reallaşdı. İkinci görüş 2023-cü ildə Tehranda, üçüncüsü isə 2024-cü ildə İstanbulda oldu. İstanbul görüşünün qərarına görə, növbəti toplantı 2025-ci ildə Bakıda və ya İrəvanda düzənlənməli, Azərbaycan və Ermənistan ardıcıllığı özləri müəyyənləşdirməlidirlər. Əslində, Zaxarovanın dediyi də budur. Amma...

Ümumən, "3+3" müstəvisi Cənubi Qafqazda əməkdaşlıq, təhlükəsizlik, iqtisadi və nəqliyyat əlaqələrinin inkişafı üçün nəzərdə tutulmuş regional məsləhətləşmə və dialoq mexanizmi kimi formalaşıb. Mövcud mexanizmdə Azərbaycan, Türkiyə və Rusiya ilə yanaşı, İran və Ermənistan da təmsil olunur. Gürcüstana gəldikdə, ölkə Moskva ilə ziddiyyətlər səbəbindən kənardadır. Amma Tbilisi üçün formatın qapıları açıqdır...

"3+3"ün fəlsəfəsinə gəlincə, məlumdur ki, Azərbaycan 44 günlük müharibədən sonra Ermənistana sülh əlini uzatdı. Münaqişə məntiqini tarixə qovuşdurmaq istəyən Bakı çalışdı ki, İrəvanla normallaşma xətti yalnız Rusiyanın vasitəçiliyi məntiqinə söykənməsin. Axı normallaşma beynəlxalq miqyasda da leqallıq qazanmalı idi. İş təkcə Rusiya ilə aşmazdı və...

Digər tərəfdən, "3+3" "region region ölkələri üçündür" şüarını əsas tutdu. Bakı isə müəyyən mənada İrəvana "pas" verdi. Təxminən belə: Ermənistan regionun tərkib hissəsidir və baş nazir Nikol Paşinyan administrasiyası Qərbdəki havadarlarına başa salacaq ki, bu platformada əldə edilmiş hansısa razılaşma Rusiyanın diktəsi yox, regionun mənafeyi baxımından vacibdir. Lakin Ermənistanın planları başqa idi. Ölkə yeni ambisiyalara həvəs göstərdi. Sonradan onun başqa regional gündəliyinin mövcudluğu üzə çıxdı.

Doğrudur, erməni iqtidarı "3+3"-dən imtina etmədi, çünki İranı özünə sipər gördü. Türkiyə hər bir halda Azərbaycanın maraqlarından çıxış etdi. Əlbəttə, Ankara üçün Cənubi Qafqaz coğrafiyasında dayanıqlı əməkdaşlıq platforması vacib idi. Onun ölkəmizlə birgə "3+3"ə maraq göstərməsi həm də bundan qaynaqlandı. İran və Rusiyaya gəldikdə, onlar regionda kənar qüvvələri görmək istəmirdilər. Ona görə də formatın işlək mexanizm kimi özünü təsdiqləməsinə maraq göstərdilər.

Bəli, Rusiya "3+3"ə bilavasitə şəxsi pəncərəsindən yanaşdı. Formata Cənubi Qafqazı Qərb təsirindən qorumaq aləti qismində baxan Moskva regiondakı münaqişəli durumun aradan qaldırılması naminə heç nə etmədi. Daha doğrusu, münaqişənin həllini öz inhisarına götürməyə girişdi. Konkret desək, Rusiya Azərbaycan–Ermənistan gərginliyinin azaldılmasını "3+3"ə sığışdırmaq istəmədi. Nəzərə alaq ki, həmin vaxt Qarabağda separatçı rejim qalırdı. Ermənistanı yenidən öz orbitinə qaytarmaq istəyən Kreml bunun üçün hər şeyə hazır olduğunu, dolayısı ilə sözügedən rejimi qorumaq niyyətini də açıqlayırdı. Yəni aydın idi ki, Rusiya Cənubi Qafqazdakı mövcudluq parametrini münaqişə məntiqini saxlamaqda görür.

Beləliklə, həm Moskvanın, həm də İrəvanın fərqli regional gündəliklərinin mövcudluğu "3+3"ün işlək mexanizmə çevrilməsinin qarşısını aldı. Ötən zaman kəsiyində Azərbaycan–İran münasibətlərindəki gərginlik fərdi təmaslar nəticəsində aradan qalxdı və hazırda Cənub qonşumuzdan eşidilən bəzi etirazlara baxmayaraq, Bakı və Tehran arasında regional məsələlər baxımından ciddi konsensus var.

Bu durum Türkiyə üçün də sərfəlidir. Digər tərəfdən, hazırda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi paraflanıb, ölkələr bu il avqustun 8-də Vaşinqtonda Birgə Bəyannamə imzalayaraq, mahiyyət etibarilə regional əməkdaşlığın vacib elementləri üzrə razılığa gəliblər və "3+3"ün vaxtilə açıqladığı prinsiplər reallaşmağa yaxındır. Deməli, belə bir formata ehtiyac yox kimidir.

Əlbəttə, birmənalı şəkildə demək olmaz ki, "3+3" lazımsızdır. Çünki Cənubi Qafqazın gələcək illərdə iqtisadi, nəqliyyat və siyasi baxımdan daha inteqrasiya olunmuş təhlükəsiz regiona çevrilməsi üçün nəzərdə tutulmuş mühüm mexanizmə, yəni regional məsləhətləşmələrə ehtiyac var. Heç şübhəsiz, hər görüş bu platformanın institusional olaraq möhkəmlənməsinə xidmət edəcək. M.Zaxarova da doğru vurğulayıb ki, əsas diqqət iştirakçı ölkələrin iqtisadiyyat, energetika, nəqliyyat və mədəniyyət sahələrində ardıcıl və harmonik əlaqələrinin inkişafına yönəldilir.

Amma Rusiyanın "3+3"ə əvvəldə haqqında söz açdığımız həvəsində əlahiddə məramın olduğunu ehtimal etmək mümkündür. Məsələ ondadır ki, Moskva Cənubi Qafqazda tutunmaq və bunu sivil, yəni diplomatik şəkildə həyata keçirmək niyyətindədir. Əslində, Ukrayna ilə müharibə fonunda dünyanın ona qarşı çıxması Kremlə başqa yol tanıtdırmır. Amma bu düzəndə addımlamaq üçün son dərəcə ciddi səmimiyyətə ehtiyac var. Səmimiyyət isə bərabərtərəfli, qarşılıqlı faydaya söykənmiş münasibətlər məntiqini əsas götürməkdən asılıdır.

Sonda ümumiləşdirmə apararaq belə bir qənaətə gələ bilərik: Həm Zaxarova, həm də digər Rusiya rəsmiləri bilməlidirlər ki, "3+3"dən söz açarkən və bu formatın növbəti toplantısının Bakıda və ya İrəvanda təşkili barədə qərarın qəbul olunduğunu xatırlatmaqla, Azərbaycanın və Ermənistanın öz öhdəliyini yerinə yetirmək istəməməsi görüntüsünü yaratmaq o qədər də yerinə düşmür. Çünki problem XİN rəhbərlərinin görüşünün hansı paytaxtda gecikləşməsində deyil. Problem Rusiyanın "3+3" çərçivəsində açıqlanmış prinsiplərə nə dərəcə sadiq qalacağına, gözləntiləri doğruldacağına, hansısa fərqli məqamları ortaya atmayacağına inanıb-inanmamaqla bağlıdır. Nəhayət, inanmaq lazımdır ki, Moskva bu formatda özünü Azərbaycan və Ermənistan arasında münasibətləri normallaşdıran vasitəçi obrazında təqdim etməkdən uzaq duracaq. Axı vasitəçiliyə ehtiyac qalmayıb, köhnə "havalara" heç kəs qol qaldırmır.

*Ə.RÜSTƏMOV*
*XQ*

# İdeyalarla qurulan körpü

## *Azərbaycan D-8-in potensialını hərəkətə gətirir*



**Hadisələri bütün dünyaya başa sala bilmək müasir diplomatiyanın ali sənətidir. Məhz həmin proseslər fonunda Bakının ev sahibliyi ilə İnkişaf etməkdə Olan Səkkiz Ölkə Təşkilatının (D-8) ilk Media Forumunun keçirilməsi Azərbaycanın qlobal siyasət səhnəsində oynadığı formalaşdırıcı və lider rolunun təntənəli manifestinə çevrildi. Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətində səsləndirdiyi dərin məzmunlu fikirlər və təşkilatın digər yüksək rütbəli nümayəndələrinin Azərbaycanın təşəbbüskarlığına verdiyi müstəsna qiymət D-8 ailəsinə üzv olduqdan sonra rəsmi Bakının təsisatın intellektual və ideoloji mərkəzinə, inkişaf mühərrikinə çevrildiyini açıq şəkildə nümayiş etdirdi. Forum qlobal böhranlar, informasiya xaosu şəraitində D-8 məkanında ortaq şüurun, həmrəyliyin və vahid mövqeyin formalaşdırılması üçün atılmış tarixi addım olmaqla yanaşı, həm də Azərbaycanın bütün İslam və inkişaf etməkdə olan dünyada yeni əməkdaşlıq arxitekturasının memarı kimi çıxış etdiyinin təkzibedilməz sübutudur.**

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan D-8 ailəsinin üzvü olduğu ilk gündən təsisatın inkişafı ilə bağlı ardıcıl səylər göstərir və həmin fəaliyyət təkcə iqtisadi sahə ilə məhdudlaşmır. Rəsmi Bakının yanaşması daha dərin və hərtərəflidir. Məqsəd təşkilat daxilində iqtisadi əlaqələrlə yanaşı, mədəni, sosial, humanitar və informasiya müstəvisində dərin inteqrasiyaya nail olmaqdır. Azərbaycanın üzvlüyündən sonrakı qısa müddətdə Bakının təşəbbüsü ilə D-8 ölkələrinin QHT-lərinin ilk görüşünün təşkil olunması, D-8 Həftəsi çərçivəsində "Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoqu"nun baş tutması, Azərbaycanın təşkilata formal yanaşmadığını, onun gündəliyini real və aktual məzmunla zənginləşdirmək əzmində olduğunu göstərir. D-8 Media Forumunun məhz Bakıda keçirilməsi həmin strateji xəttin məntiqi davamı və pik nöqtəsidir.

Dövlət başçısı qlobal böhranlar, bəşəriyyət qarşısında duran yeni sınaqlar, çətinliklər dövründə ölkələrin bir-birinə qarşılıqlı dəstək göstərməsini, o cümlədən media sahəsində həmrəylik nümayiş etdirməsini vurğulamaqla müasir dünyanın ən ağrılı problemlərindən birinə toxunur. Qlobal informasiya məkanının dezinformasiya, saxta xəbərlər və manipulyasiya kampaniyalarının döyüş meydanına çevrildiyi, inkişaf etməkdə olan ölkələrin çox vaxt həmin informasiya müharibəsinin hədəfi olduğu şəraitdə ortaq dəyərlərə və maraqlara malik dövlətlərin vahid informasiya cəbhəsində birləşməsi həyati əhəmiyyət kəsb edir. Azərbaycan bu zərurəti dərindən anlayaraq D-8 üçün həm də informasiya təhlükəsizliyi qalxanı yaratmağı təklif edir. Təklif otuz il boyunca Qarabağ münaqişəsi ilə bağlı Qərb mediasında sistematik təhriflər və dezinformasiya ilə üzləşən bir ölkənin acı təcrübəsindən süzülüb gələn dərin strateji müdriklikdən xəbər verir. Ölkəmiz təcrübəsindən bilir ki, informasiya suverenliyi olmadan siyasi, iqtisadi suverenlik tam təmin oluna bilməz. Buna görə də Bakı mübarizə təcrübəsini dost və tərəfdaş ölkələrlə bölüşərək, onları ortaq təhdidlərə qarşı birləşməyə çağırır.

D-8 Təşkilatının Baş katibi İsiaka Abdulqadir İmamın çıxışında səsləndirdiyi fikirlər Azərbaycanın təşəbbüslərinin təşkilat daxilində necə böyük ruh yüksəkliyi ilə qarşılandığını əks etdirir. Onun Azərbaycanın təşkilata qoşulmasından sonra "canlanmaların hiss olunduğunu" və Bakının "qeyri-adi təşəbbüslərlə" çıxış etdiyini bildirməsi real vəziyyətin etirafıdır. Həqiqətən də, Azərbaycan D-8-ə Zəfərlə nəticələnən Vətən müharibəsindən və suverenliyin tam bərpasından sonra əldə etdiyi böyük siyasi iradəni, özünəinamı və aydın strateji baxışı gətirdi. Baş katibin Bakıda özünü evindəki kimi hiss etdiyini söyləməsi Azərbaycanın təşkilat daxilində yaratdığı səmimi qardaşlıq və etimad mühitinin göstəricisidir. İsiaka Abdulqadir İmamın D-8-in mövqeyini və medianın nüfuzunu artırmaq, təşkilatın tutduğu mövqeyi beynəlxalq səviyyəyə çatdırmaq zərurəti barədə danışması birbaşa Prezident İlham Əliyevin media həmrəyliyi ilə bağlı çağırışları ilə uyğunluq təşkil edir. Onun gələcək planlar kimi ümumi yayım assosiasiyasının yaradılması, jurnalistika məktəblərinin təsis edilməsi, təqaüdlərin ayrılması və fərqlənmə mərkəzinin ərsəyə gətirilməsi kimi konkret təkliflər irəli sürməsi Bakıda başlayan prosesin artıq institusional memarlığa çevrilməkdə olduğunu göstərir. Bu təkliflər mahiyyət etibarilə D-8 məkanında Qərbin dominant media qurumlarına alternativ olacaq, hadisələri üzv ölkələrin baxış bucağından işıqlandıracaq vahid informasiya ekosisteminin yaradılmasının yol xəritəsidir. Ümumi yayım assosiasiyası, üzv ölkələrin milli xəbər agentlikləri və televiziya kanalları arasında daimi məlumat axınını təmin edə, birgə sənədli filmlər, proqramlar hazırlaya, qlobal hadisələrə vahid mövqedən reaksiya verə bilər. Jurnalistika məktəbləri və təqaüd proqramları isə daha uzunmüddətli hədəfə xidmət edir: gələcək nəsil D-8 jurnalistlərini ortaq dəyərlər, etik standartlar və peşəkar həmrəylik ruhunda yetişdirmək. Bu addımlar D-8-in sivilizasiya miqyasında təsir gücünə malik qüvvəyə çevrilməsi üçün intellektual təməlləri möhkəmləndirəcək.

Forumda iştirak edən tərəfdaş ölkələrin yüksək səviyyəli nümayəndələrinin çıxışları da Azərbaycanın liderliyinin və təşəbbüsünün necə müsbət qarşılandığını bir daha təsdiqlədi. Pakistanın federal informasiya və yayım naziri Attaullah Tararın Azərbaycanın D-8-in tamhüquqlu üzvü olduqdan sonra təşkilata verdiyi dəstəyi dəfələrlə nümayiş etdirdiyini və irəli sürülən təşəbbüsləri doğru istiqamətdə həyata keçirmək üçün vaxtın yetişdiyini vurğulaması İslamabadın Bakının strateji baxışını tam dəstəklədiyini göstərir. İndoneziyanın Xarici İşlər Nazirliyinin çoxtərəfli məsələlər üzrə baş siyasi məsləhətçisi Agustaviano Sofjanın forumun məhz Azərbaycanda keçirilməsindən məmnunluğu və rəqəmsal platformaların inkişaf etdiyi dövrdə bu sahəyə ciddi nəzarətin vacibliyini qeyd etməsi Cənub–Şərqi Asiyanın ən böyük müsəlman ölkəsinin prosesdə fəal iştirak etmək əzmində olduğunu nümayiş etdirir. Nigeriya Mətbuat Şurasının Baş direktoru Dili Ezughahın Bakının inkişafından, modernləşməsindən və tərəqqisindən heyrətləndiyini bildirməsi isə simvolik məna daşıyır. Onun timsalında Afrika qitəsinin ən böyük dövləti həm də real sosial-iqtisadi inkişaf modeli ilə Azərbaycanın D-8 ölkələri üçün cəlbedici nümunə olduğunu etiraf edir. Bakı təşkilat üçün uğurlu inkişafın və modernləşmənin canlı örnəyinə çevrilir.

Bəs Bakıda keçirilən D-8 Media Forumunun strateji məqsədləri nədən ibarətdir və o, hansı konkret nəticələrə hesablanıb? Forumun konsepsiyasından və iştirakçıların çıxışlarından aydın olur ki, hədəflər çoxşaxəli və uzunmüddətlidir. D-8-in Onillik Yol Xəritəsinin (2020–2030) prinsiplərinə və 2024-cü il Qahirə Bəyannaməsinin ruhuna əsaslanan forum, ilk növbədə, üzv dövlətlər arasında həmrəyliyi təşviq edən vahid informasiya mühitinin formalaşdırılmasını hədəfləyir. Qlobal media axınlarının çox vaxt inkişaf etməkdə olan ölkələrin problemlərini qabartdığı, uğurlarını isə görməzdən gəldiyi şəraitdə D-8 ölkələrinin öz uğur hekayələrini, inkişaf modellərini və mədəni zənginliklərini bir-birinə və bütün dünyaya çatdırması üçün yeni platformaya ehtiyac var idi. Bakı Forumu məhz həmin platformanın təməl daşını qoydu. Forum D-8 kimliyini möhkəmləndirən uğur hekayələrinin işıqlandırılması, regional və qlobal məsələlərə dair ortaq baxışların bölüşülməsi və nəticədə xalqlar arasında əlaqələrin gücləndirilməsi üçün unikal imkanlar yaradır. Bu, xüsusilə gənc nəsil üçün vacibdir. Türkiyədəki gənc İndoneziyadakı texnoloji startaplar haqqında, Malayziyadakı tələbə Nigeriyadakı mədəni irs haqqında, Pakistandakı fermer Misirdəki aqrar islahatlar haqqında birbaşa və obyektiv məlumat əldə edə biləcəyi təqdirdə, D-8 məkanı, sadəcə, hökumətlərarası təşkilat olmaqdan çıxıb, insanların şüurunda yaşayan real və canlı birliyə çevriləcək.

İkinci mühüm hədəf dezinformasiya və yanlış məlumatlandırma kimi müasir dövrün böyük bəlalarından birinə qarşı birgə mübarizə strategiyasının hazırlanmasıdır. Üzv ölkələrin media nümayəndələrinin, siyasətçilərinin və kommunikasiya mütəxəssislərinin bir araya gəlməsi, faktların yoxlanılması üzrə tərəfdaşlıqların qurulması, media savadlılığı təşəbbüslərinin həyata keçirilməsi və xüsusilə rəqəmsal sahədə ən yaxşı təcrübələrin paylaşılması üçün zəmin yaradır. Bu, eyni zamanda, D-8 ölkələrinin informasiya suverenliyini qorumaq və öz vətəndaşlarını xarici manipulyasiyalardan qorumaq üçün atılmış proaktiv addımdır. Dəqiqlik və etik standartlara sadiqliyi qorumaqla media sosial həmrəyliyin, təhlükəsizliyin və iqtisadi inkişafın əsas amilinə çevrilə bilər. Misal üçün, üzv ölkələr arasında sürətli məlumat mübadiləsi sistemi yaradıla bilər ki, hər hansı ölkəyə qarşı dezinformasiya kampaniyası başladığı an digər üzv ölkələrin mediası dərhal saxta məlumatları ifşa edən obyektiv informasiyanı yaya bilsin.

Üçüncü strateji istiqamət, media vasitəsilə dayanıqlı inkişaf məqsədlərinin təşviq edilməsidir. Forumun gündəliyi yoxsulluğun azaldılması, səhiyyə, təhsil, mədəniyyət və iqtisadi əməkdaşlıq kimi sahələrdə daha dərin təhlil və məzmunlu reportajları təşviq etməyi nəzərdə tutur. Bu, medianın cəmiyyətlərin maarifləndirilməsində və ümumi inkişaf məqsədlərinə çatmaq üçün səfərbər edilməsində fəal rol oynaması deməkdir. Jurnalistlərin və media rəhbərlərinin bir araya gəlməsi bu sahələrdə birgə layihələrin həyata keçirilməsinə, təcrübə mübadiləsinin aparılmasına və transsərhəd əməkdaşlığın genişləndirilməsinə təkan verəcək. Beləliklə, dinamik və məsuliyyətli media şəbəkəsi D-8 ölkələri arasında həmrəyliyi və iqtisadi inkişafı dəstəkləyən güclü katalizatora çevriləcək.

Bakıda keçirilən birinci D-8 Media Forumunun əhəmiyyəti zamanla daha dərindən dərk ediləcək tarixi hadisədir. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə D-8 təşkilatına yeni nəfəs, yeni dinamizm və aydın strateji baxış gətirdi. Həmin forum Azərbaycanın əhalisinin ümumi sayı milyardı keçən, böyük iqtisadi və insani potensiala malik D-8 məkanında da ideyalar generatoruna və inteqrasiya proseslərinin lokomotivinə çevrildiyini sübut etdi. Qlobal informasiya məkanında həqiqətin və ədalətin səsinin daha ucadan eşidilməsi üçün Bakıda atılan addım, şübhəsiz ki, üzv ölkələr arasında əməkdaşlığın dərinləşməsinə, həmrəyliyin möhkəmlənməsinə və D-8-in beynəlxalq aləmdə nüfuzunun artmasına misilsiz töhfə verəcək. Azərbaycan tarixi prosesin önündə gedərək dost və tərəfdaş ölkələrin ümumi mənafelərini müdafiə edən qlobal məsuliyyətli ölkə kimi mövqeyini daha da gücləndirir. Bakı Forumu ilə D-8-in tarixində daha parlaq və təsirli səhifə açılır. Həmin səhifənin ilk cümlələrini məhz Azərbaycan yazır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

**Bu gün Azərbaycan dünyanın turizm mərkəzlərindən biri kimi tanınır. Amma bu uğura nail olana qədər ölkəmiz uzun və əziyyətli bir yolu qət etməli oldu. Otuz il torpaqlarımızın, füsunkar təbiətli Qarabağımızın işğal altında olması, turizm sənayesi üçün böyük önəm kəsb edən ərazilərin erməni vandalları tərəfindən dağıdılması bu strateji sahənin inkişafına mənfi təsir göstərdi. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması sahənin inkişafına təkan verdi. Əcnəbi iş adamları ilə yanaşı, sıravi turistlərin də ölkəmizə axını başladı. İndi Azərbaycanda 500-dən yuxarı mehmanxana, 230-a yaxın turizm şirkəti fəaliyyət göstərir. Ölkəmizə gələn turistlərin sayı ilbəil artır. Ötən il Azərbaycana gələn turistlərin sayı 2,5 milyon civarında olub. Bir sözlə, ölkəmizdə turizm özünün intibah dövrünü yaşayır.**

# Diplomatiyamızın turizm marşrutu

## *Bu istiqamətdə ən böyük uğur Azərbaycan–Çin əməkdaşlığında qazanılıb*

Son bir ili ölkədə turizmin inkişafı baxımından, çətin ki, uğurlu dövr hesab etmək olar. Bir sıra obyektiv və subyektiv səbəblərə görə Rusiyadan, postsovet respublikalarından, eləcə də Hindistandan və Yaxın Şərqdən Azərbaycana səfərlərin sayı azalıb. Dövlət Sərhəd Xidmətinin məlumatına görə, 2025-ci ilin yanvar-sentyabr aylarında Azərbaycana dünyanın 183 ölkəsindən 1 milyon 948,2 min əcnəbi gəlib. Bu göstərici keçən ilin müvafiq dövrü ilə müqayisədə azalma deməkdir. İntəhası, bir ölkədən turist axınında əhəmiyyətli artım qeydə alınıb. Bu, Çin Xalq Respublikasıdır. Cari ilin son üç rübü ərzində Çindən Azərbaycana üz tutan turistlərin sayı, demək olar ki, 50 faiz artıb. Bakıda keçirilən Çin Ziyarətçi Sammitinin nəticələrinə əsasən, bu amil gələn seqmentin inkişafı üçün əsas tendensiyaya çevrilir. Bu da təsadüfi deyil. Son illər Azərbaycan–Cin əlaqələrinin geniş spektrli platformalarda inkişafı turizm sahəsinə hissolunacaq təsir göstərib. Prezident İlham Əliyevin bu yaxınlarda Çinə dövlət səfəri zamanı qarşılıqlı vizasız səyahət haqqında Saziş imzalandı. İki ölkə arasında vizasız gediş-gəliş rejiminin tətbiqi ölkəmizə çinli turistlərin axınını stimullaşdıran əsas amil sayıla bilər.



Nisbətən möhkəm rekreasiya infrastrukturu üzərində qurulan, eləcə də sadələşdirilmiş viza prosedurlarını həyata keçirən və turizm bazarını fəal şəkildə inkişaf etdirən ölkəmiz bununla həm də dünyaya açıq olduğunu göstərir. Yeri gəlmişkən, 2024-cü ildə daxil olan turizm dinamikasında mühüm irəliləyiş əldə olunub: Azərbaycana dünyanın 196 ölkəsindən təxminən 2,627 milyon əcnəbi və vətəndaşlığı olmayan şəxs səfər edib ki, bu da əvvəlki ilin göstəricilərini 25,9 faiz üstələyib.

* * *

Ölkənin turizm bazarındakı vəziyyəti şərh edən Dövlət Turizm Agentliyi (DTA) sədrinin müşaviri, qurumun Aparat rəhbəri vəzifəsini icra edən Kənan Quluzadə vurğulayıb ki, qeyd etdiyimiz dövrdə turist axınının azalması əsasən mürəkkəb geosiyasi vəziyyətlə bağlıdır: "Əsas bazarlar arasında olan Rusiya və Hindistandan gələn turistlərin sayının azalması ümumi statistikaya da təsir edib. Yaxın Şərqdəki münaqişələr uçuşların azalmasına, gecikməsinə və səyahətlərin çətinləşməsinə səbəb olub". Buna baxmayaraq, turist axınının sabitliyi bir sıra Asiya ölkələrindən, eləcə də Avropa dövlətlərindən gələnlərin artması ilə dəstəklənir.



Bəli, turizmin inkişafı baxımından Çin ölkəmiz üçün ən prioritet vektor kimi görünür. Bu ölkə ilə qarşılıqlı turist axını dinamik şəkildə artır, iki ölkə arasında hava nəqliyyatı uğurla inkişaf edir. O cümlədən Bakı ilə Pekin arasında birbaşa uçuşlar həftədə 3 dəfə AZAL, Bakı – Urumçi reysləri həftədə 5 dəfə "China Southern Airlines" tərəfindən həyata keçirilir. Hazırda Azərbaycan Çinin Sian şəhərinə birbaşa aviareysin açılması imkanını da nəzərdən keçirir. Ötən il Çindən Azərbaycana 44,798 turist gəlib ki, bu da 2023-cü illə müqayisədə iki dəfə çoxdur. Bu ilin yanvar-oktyabr aylarında Azərbaycana gələn çinli turistlərin sayı 57 mini keçib ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 49 faiz artım deməkdir.

* * *

Çinin turizm şirkətlərinin iştirak etdiyi və beynəlxalq platforma olan "China Visitors Summit" ilk dəfə Bakıda keçirildi. Sammitdə Çinin 50-dən çox turizm şirkəti, eləcə də daxili turizm sənayesinin nümayəndələri iştirak etdilər. Forumda iki ölkənin turizm agentlikləri, mehmanxana şəbəkələri və qonaqpərvərlik sektorunun nümayəndələri arasında B2B formatında görüşlər keçirilib, ikitərəfli əməkdaşlığın perspektivləri ətrafında müzakirələr aparılıb. Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin sözlərinə görə sammit Azərbaycanla Çin arasında formalaşan etimadın və səmərəli əməkdaşlığın göstəricisidir.

Bütün müstəvilərdə əməkdaşlıq edən iki ölkə arasında turizm mübadiləsi yeni turizm paketləri və proqramları sayəsində durmadan artır. Çin hazırda nəinki qitənin, dünyanın ən böyük xarici turizm bazarı sayılır. Azərbaycanın bu seqmentdə payı sürətlə çoxalmaqdadır. Burada xatırlatmaq yerinə düşər ki, təkcə son iki ildə turizm məhsullarının təşviqi və Çin ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində irimiqyaslı tədbirlər keçirilib, o cümlədən "Qyer.com", "Qunar" və "Trip.com Group" ilə əməkdaşlıq memorandumları imzalanıb. Azərbaycan Turizm Bürosu COTTM 2023, GITF 2024 və ITB China 2025 sərgilərində, eləcə də Çinin müxtəlif şəhərlərində keçirilən təqdimatlarda ölkəmizin turizm potensialını nümayiş etdirib.

Azərbaycanın ixtisaslaşmış şirkətləri Çində keçirilən beynəlxalq turizm sərgilərində, Pekin, Şanxay, Quançjou və Şençjendə təqdimatlarda iştirak edirlər. Onlar Çinin turizm şirkətləri ilə mütəmadi olaraq görüşlər keçirirlər. "WeChat", "Weibo", "Qunar", "C-trip", "Fliggy", 2Douyin", "Little Red Book" kimi platformalarda ölkəmizin rekreasiya potensialının fəal təbliğatı aparılır, qarşılıqlı səfərlər təşkil edilir.

2026-cı ilə qədər Çinin müxtəlif şəhərlərində daha geniş media kampaniyaları, tanışlıq səfərləri və bir sıra tanıtım tədbirləri planlaşdırılır. Bu faktlar da Çinin turizm sektorunun potensialından xəbər verir: bu ilin payızında ölkəmiz Konfutsi İnstitutu ilə birgə bələdçilərin hazırlanması proqramına başlayıb. Bu addım yeni bələdçilər nəslinin hazırlanmasına kömək edəcək və bu mütəxəssislərin təkcə Bakıda deyil, bölgələrdə də işlə təmin olunması planlaşdırılır.

Nəhayət, Azərbaycan Turizm Bürosu yaxın vaxtlarda Çində öz ofisini açmağı planlaşdırır. Bu da ölkəmizin Çin bazarında mövcudluğunu gücləndirəcək və "Destination Azerbaijan" brend mesajını bütün dünyada yayacaq.

***İ.HƏSƏNQALA***
***XQ***

# Milli Məclis 2026-cı ilin dövlət büdcəsini təsdiqlədi

**Dünən spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının 2026-cı il dövlət büdcəsinə həsr edilmiş sonuncu plenar iclası keçirildi. İclas tam şəkildə büdcə zərfinə daxil olan qanun layihələrinə baxılmasına yönəldi.**



Müzakirələrin əsas hissəsi Vergi Məcəlləsinə dəyişikliklər paketinə aid idi. Üç blokdan ibarət paket 45 maddə üzrə ümumilikdə 145 dəyişikliyi özündə ehtiva edirdi. Bununla yanaşı, Vergi Məcəlləsinə uyğunlaşdırılan əlavə və dəyişikliklərlə bağlı 16 qanun layihəsi də gündəliyə çıxarıldı və birinci oxunuşda qəbul edildi. Həmçinin Milli Məclisin və Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası ayrıca təqdim olundu.

Müzakirələrdən əvvəl Milli Məclisin deputatları Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 33 illiyi münasibəti ilə partiyanın sədri, Prezident İlham Əliyevi, həmçinin partiya sədrinin birinci müavini, vitse-prezident Mehriban Əliyevanı və partiya üzvlərini təbrik etdilər. Parlamentin spikeri Sahibə Qafarova qeyd etdi ki, 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizin siyasi həyatının müstəsna əhəmiyyətli hadisələrindən biri olub: "Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası müstəqil dövlətçiliyimizin inkişafında, ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasında, milli birlik və həmrəylimizin gücləndirilməsində son dərəcə böyük rol oynayıb".

Sonra 2026-cı ilin dövlət büdcəsi ətrafında müzakirələr aparıldı. Milli Məclisin deputatı Qüdrət Həsənquliyev Vergi Məcəlləsində təklif edilən dəyişikliklərdən danışdı. Deputat vurğuladı ki, aşağı gəlirli əhali üçün vergi güzəştlərinin miqyası genişləndirilməlidir: "Azərbaycanda ərzağın qiyməti artıb. Keyfiyyətli ət əhalinin yoxsul kəsimi üçün əlçatmaz olub. Bu kimi hallar cinayətkarlığın artmasına səbəb olub. Bir çox insanlar dolanışığını təmin etmək üçün riskə gedir və cinayətə meyillənirlər. Buna görə də hesab edirəm ki, aşağı gəlirli əhali üçün vergi güzəştləri daha da genişləndirilməlidir. Bu ildən etibarən 2500 manatadək gəliri olan şəxslər üçün güzəştlər tətbiq edilib və onların vergi dərəcəsi 3 faiz olaraq müəyyən edilib. Mən hesab edirəm ki, 1000 manatadək maaş alan şəxslər, ümumiyyətlə, bütün növ vergilərdən azad olunmalıdır".

Daha sonra MM-in Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov tibbi sahədə əmək funksiyasını faktiki yerinə yetirən gənc həkimlərin hüquqi statusunun qeyri-müəyyən olmasından danışdı. R.Mahmudov bildirdi ki, bu gün ölkəmizdə rezident həkimlər real əməyin bütün yükünü daşıdıqları halda, onların hüquqi statusu tam tənzimlənməmiş qalır: "Onlar növbələrə girir, pasiyent qəbul edir, stasionar və təcili yardım prosesində iştirak edir, əməliyyatlar aparır və faktiki olaraq tibbi personal kimi çalışırlar. Lakin həmin şəxslərin böyük bir hissəsi rəsmi əmək müqaviləsi ilə təmin olunmur". Deputat onu da əlavə etdi ki, əgər bütün sahələrdə işçi hüquqlarının bərpası və sosial müdafiənin gücləndirilməsindən danışılırsa, tibbi sahədə də əmək funksiyasını yerinə yetirən gənc həkimlərin hüquqi statusunun qeyri-müəyyən qalmasına yol verilə bilməz.

Deputat Tahir Mirkişili parlamentin bir gün əvvəlki plenar iclasında Vergi Məcəlləsində bir sıra istiqamətlər üzrə tətbiq olunan vergi güzəştlərinin müddətsiz olmasını təklif etdi: "Hazırda Orta Dəhlizin inkişafı, Zəngəzur dəhlizinin açılması fonunda Naxçıvana tətbiq olunan vergi güzəştləri yalnız iqtisadi deyil, ciddi strateji və geo-iqtisadi məsələdir. Hətta təklif edərdim ki, bu güzəştlər müddətli yox, müddətsiz olsun". Deputat onu da qeyd etdi ki, Naxçıvan mühüm coğrafi məkanda yerləşir və Orta Dəhliz kontekstində emal sənayesi, istehsal və xidmət sahələrinin inkişafı Azərbaycan üçün vacibdir.

*

Müzakirələrdən sonra vergi siyasəti, vergi inzibatçılığı və vergi dərəcələrinin müəyyən edilməsi ilə bağlı Vergi Məcəlləsinə, həmçinin ona uyğunlaşdırılan 16 qanuna dəyişikliklər səsverməyə çıxarıldı. İclasda "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" qanuna dəyişiklik layihəsi, "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Sığorta fəaliyyəti haqqında" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunlara dəyişiklik layihələri də müzakirə olundu.

Plenar iclasda xəstəliklərlə bağlı qanunlara təqdim edilən dəyişikliklər də müzakirə edildi. Buraya "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" və "Uşaqların icbari dispanserizasiyası haqqında" qanunlara təklif olunan düzəlişlər daxildir. Eyni zamanda, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanuna dəyişiklik layihəsi də müzakirəyə çıxarıldı.

İclasda həmçinin "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında" qanuna dəyişiklik layihəsi təqdim edildi. "Dövlət rüsumu haqqında", "Gömrük tarifi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlara təklif edilən düzəlişlər plenar iclasda səsverməyə çıxarıldı. Dəyişikliklər paketinin layihəsi müzakirələrdən sonra səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

Son olaraq plenar iclasda Azərbaycan Respublikası Milli Məclisinin və Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası təsdiqləndi. Müzakirələrdən sonra təsdiqlənən layihəyə əsasən, parlamentin 2026-cı il üçün xərclər smetası 52,74 milyon manat təşkil edəcək. Bu, 2025-ci illə müqayisədə 222 min 863 manat və ya 0,4 faiz çoxdur. Xərclər smetasının strukturunda 39,513 milyon manat əməyin ödənişi, 300 min manat sosial təminat üçün nəzərdə tutulub. Milli Məclisin xərclərinə qaz istifadəsinə görə 210 min manat, suya görə 35 min manat, elektrik enerjisinə görə 465 min manat daxil edilib. Parlamentin internet xərcləri 116 min manat səviyyəsində nəzərdə tutulur. Milli Məclisin deputatları və aparat əməkdaşlarının ölkədaxili ezamiyyətləri üçün 110 min manat, xarici ölkələrə ezamiyyətlə bağlı 2 milyon manat ayrılması planlaşdırılır. Milli Məclisin İşlər müdiri Firudin Hacıyev çıxışında bildirdi ki, smetanın əksər xərcləri malların, iş və xidmətlərin alınması, dəftərxana və təsərrüfat ləvazimatları, kompüterlər, kartriclər, server avadanlıqları, mebel dəstləri, kristallar, nəqliyyat vasitələrinin əsaslı və cari təmiri, mətbəə və çap işləri, təmizlik və digər təsərrüfat xidmətləri kimi sahələrə yönəlib.

Səsverməyə çıxarılan digər layihəyə əsasən, Hesablama Palatasının xərclər smetasının sabit saxlanılmasına qərar verilib. Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası 11 milyon 455 min 897 manat təşkil edəcək. Bu isə 2025-ci ildə xərclər smetası ilə eyni həcm deməkdir. Növbəti ildə əməyin ödənişinə 9 milyon 915 min 236 manat nəzərdə tutulub. Həmçinin Hesablama Palatasının əməkdaşlarının ölkədaxili ezamiyyətləri üçün 60 min manat, xarici ölkələrə ezamiyyətləri üçün isə 150 min manat proqnozlaşdırıldı.

Bununla da növbəti – 2026-cı il üçün dövlət büdcəsi Milli Məclis tərəfindən təsdiqləndi.

***Tacir SADIQOV***
***XQ***

## Ən böyük sosial paket

**"Gələn il üçün təsdiqlənən dövlət büdcəsinin həcmi ölkəmizin sosial-iqtisadi kursunu, həmçinin vətəndaşlara yönəlmiş prioritetləri aydın şəkildə ortaya qoyur".**



Bu fikirləri XQ-yə açıqlamasında **Milli Məclisin deputatı, əmək və sosial siyasət komitəsinin sədr müavini Elşad Musayev** bildirdi. Deputatın fikrincə, 2026-ci ilin dövlət büdcəsində sosial sahəyə ayrılan vəsait təqdir edilməlidir: "Əvvəla qeyd etməliyəm ki, dövlət büdcəsinin ümumi strukturunda sosialyönümlü xəttin xüsusi çəkisi artır. Büdcə xərclərinin 41,1 faizinin sosial sahəyə ayrılması dövlətin sosial ədalət prinsiplərinə sadiqliyinin, vətəndaş rifahının təmin olunmasının diqqət mərkəzində dayandığının təsdiqidir. Dünya iqtisadiyyatında qeyri-sabitliyin davam etdiyi indiki vaxtda hökumətin bu qədər böyük sosial öhdəlik götürməsi həm siyasi iradənin, həm də iqtisadi dayanıqlığın göstəricisidir".

E.Musayev qeyd etdi ki, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gələn il üçün təsdiqlənən büdcəsi fondun həm artan sosial öhdəlikləri, həm də davamlı maliyyə siyasətini əks etdirir: "Cari illə müqayisədə gəlirlərdə 9 faiz, xərclərdə isə 10,5 faiz artım proqnozlaşdırılır. Bu artım iqtisadi aktivliyin güclənməsi, məşğulluq bazarının genişlənməsi və qeyri-formal əmək münasibətlərinin azaldılması istiqamətində aparılan tədbirlərin real nəticəsidir.

Xüsusi olaraq vurğulamaq istəyirəm ki, 2019-cu ildən bəri minimum pensiyanın məbləği yaşayış minimumunu üstələyir və bu tendensiya 2026-cı ildə də davam etdiriləcək. Növbəti il yaşa görə pensiyanın orta aylıq məbləği 629 manata yüksələcək. Pensiyanın orta əməkhaqqına nisbətinin 54 faiz səviyyəsinə çatması isə sosial təminat üzrə beynəlxalq normalara doğru ardıcıl yaxınlaşmanı göstərir.

Həmçinin İşsizlikdən Sığorta Fondunun gələnilki büdcəsində nəzərdə tutulan artımlar, xüsusilə özünüməşğulluq proqramları üçün ayrılan 77 milyon manatlıq paket əmək bazarının modernləşdirilməsi, aktiv məşğulluq siyasətinin genişləndirilməsi baxımından mühüm addımdır. 2026-cı ildə 8 min vətəndaşın özünüməşğulluq layihələrinə cəlb olunması planlaşdırılır ki, bu da sosial müdafiə sisteminin artıq passiv ödənişlərdən aktiv əmək bazarı alətlərinə keçdiyini təsdiqləyir".

Parlamentari yaşayış minimumunun 300 manat, ehtiyac meyarının isə 230 manat müəyyənləşdirilməsini sosial standartların yenilənməsi hesab edib. Onun fikrincə, bu dəyişikliklər sosial müavinətlərin təyinatında və əhalinin həssas qruplarının dəstəklənməsində daha çevik və real bazar dəyərlərinə uyğun mexanizmlərin tətbiqinə imkan verəcək.

"Gördüyümüz kimi, büdcə layihəsi təkcə rəqəmlər toplusu deyil, bu sənəd ölkənin sosial siyasətinin konseptual istiqamətini müəyyənləşdirir. Gələn il həm pensiya təminatı, həm sosial müdafiə mexanizmləri, həm də məşğulluq proqramları üzrə ciddi irəliləyiş gözlənilir. Dövlət büdcəsinin sosialyönümlülüyünün artırılması, fondların maliyyə dayanıqlığının gücləndirilməsi, əhalinin rifahının yüksəldilməsi Milli Məclisin və hökumətin qarşıya qoyduğu strateji hədəflərə uyğundur.

Hesab edirik ki, təqdim olunan layihələr ölkənin iqtisadi imkanlarına uyğun şəkildə hazırlanıb, sosial siyasətin qarşıdan gələn il üçün düzgün prioritetlərini müəyyən edir və dövlətimizin vətəndaşa xidmət fəlsəfəsini tam şəkildə özündə əks etdirir" – deyə deputat vurğuladı.

***T.ARAZOĞLU***
***XQ***

**Hakim "Gürcü arzusu" partiyasının qərarı ilə sabiq prezident Mixeil Saakaşvili tərəfindən 2007-ci ildə keçmiş Cənubi Osetiya Muxtar Vilayətinin ərazisində yaradılmış inzibati-ərazi vahidi ləğv edilir. Bunu Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili brifinqdə bəyan edib. Onun sözlərinə görə, dövlət qurumu 2026-cı il yanvarın 1-dən ləğv olunacaq.**

# Tbilisinin qəti addımı

## *Sovetdən qalan "Cənubi Osetiya" anlayışına hüquqi nöqtə qoyulur*

Parlament sədri daha sonra bildirib: "İctimaiyyətə xatırlatmaq istəyirəm ki, 2006-cı ilin noyabr ayında "Milli hərəkat"ın rəhbərliyi altında Sxinvali bölgəsində konstitusiyaya zidd seçkilər keçirildi və nəticədə qondarma "Cənubi Osetiyanın prezidenti" elan edildi və qondarma "Cənubi Osetiyanın alternativ hökuməti" yaradıldı. Bu hərəkətlə o vaxtkı hakimiyyət dolayı yolla separatçı prosesləri legitimləşdirdi ki, bu da Gürcüstanın dövlət maraqlarına açıq və ciddi xəyanət idi. Bir neçə ay sonra, 2007-ci ilin iyun ayında yenə Konstitusiya pozularaq, eyni konstitusiyaya zidd "alternativ hökumət" əsasında yenidən "müvəqqəti inzibati-ərazi vahidi administrasiyası" yaradıldı. Bu qərar 1990-cı ildə ləğv edilmiş Cənubi Osetiya Muxtar Vilayətinin inzibati sərhədlərini süni şəkildə bərpa etdi və bu, sonradan Rusiyanın 2008-ci ildəki hərbi təcavüzünə və Gürcüstanın tarixi bölgəsi Samaçablonun işğalına səbəb olan amillərdən birinə çevrildi".

Ş.Papuaşvili qeyd edib ki, bugünkü perspektivdən baxdıqda, həmin qərarların xarici güclərin apardığı geosiyasi oyunun bir hissəsi olduğu və Gürcüstanın "qurban verilən piyada" roluna endirildiyi aydındır: "Əvvəlki hökumətin həyata keçirdiyi siyasət bölgədə vəziyyətin gərginləşməsinə və nəticədə ölkəni müharibəyə aparıb çıxardı. "Milli hərəkat" tərəfindən "Cənubi Osetiya" termininin dolayı yolla istifadəsi belə əvvəldən Konstitusiyaya və milli maraqlara xəyanət idi. Gürcüstanın hüquqi və ya siyasi məkanında heç bir "Cənubi Osetiya" mövcud deyil.




Ş.Papuaşvili deyib ki, hökumətlə məsləhətləşmələr zamanı bir neçə qanunvericilik təşəbbüsü hazırlanıb və Gürcüstan parlamenti ilin sonuna qədər müvafiq düzəlişləri qəbul etmək niyyətindədir: "Müvafiq olaraq, hökumətlə məsləhətləşmələr nəticəsində biz keçmiş Cənubi Osetiya Muxtar Vilayətinin ərazisində yaradılmış inzibati-ərazi vahidini ləğv etmək qərarına gəldik".

Gürcüstan parlamenti və hökuməti tərəfindən keçmiş Cənubi Osetiya Muxtar Vilayətinin ərazisində 2007-ci ildə yaradılmış inzibati-ərazi vahidinin ləğv edilməsi ölkənin dövlətçilik fəlsəfəsinə, hüquqi ardıcıllığına və milli maraqlarına tam uyğun addım kimi qiymətləndirilə bilər. Bu qərar həm Gürcüstanın ərazi bütövlüyü prinsipinə sadiqliyini nümayiş etdirir, həm də Tbilisinin uzun illərdir vurğuladığı strateji xəttin – konstitusiya çərçivəsində vahid dövlət idarəçiliyinin bərpası hədəfinin məntiqi davamıdır. Əslində həmin inzibati strukturlar postmünaqişə dövründə yaranmış mürəkkəb təhlükəsizlik və siyasi balansın məhsulu idi. Lakin bu konstruksiya zamanla hüquqi qeyri-müəyyənlik yaradan, beynəlxalq müzakirələrdə terminoloji çaşqınlığa səbəb olan və ən əsası, Gürcüstanın rəsmi mövqeyində ardıcıllığın pozulmasına gətirən elementə çevrilmişdi.

Bugünkü təhlükəsizlik reallıqları fonunda Gürcüstan hökumətinin atdığı bu addım Tbilisinin suverenlik və hüquqi müstəqillik standartlarını gücləndirən mexanizm kimi çıxış edir. İnzibati vahidin ləğvi faktiki idarəçilikdə heç bir dəyişiklik yaratmasa da, siyasi-hüquqi siqnal kimi böyük əhəmiyyət daşıyır. Bu qərar həm də Gürcüstanın beynəlxalq tərəfdaşlarına ölkənin ərazi bütövlüyü məsələsində qəti və prinsipial mövqeyə sadiqliyini göstərir. Gürcüstan bu yolla bildirir ki, onun konstitusion sərhədləri heç bir alternativ struktur və ya istilah ilə şübhə altına alına bilməz. Tbilisinin bu qərarı həmçinin münaqişənin dinc və diplomatik həllinə dair mövcud platformaların daha aydın hüquqi əsaslar üzərində qurulması deməkdir. Son illər Gürcüstan hökuməti "Addım-addım etimad" və "Sülh və inteqrasiya" siyasətini gücləndirmək xəttini seçib.

Mühüm məqamlardan biri budur ki, Gürcüstan bu addımı qarşıdurma məqsədilə deyil, məhz hüquqi ardıcıllığı təmin etmək üçün atır. Bu, nə daxili siyasi revanşist addım, nə də keçmiş dövrün qiymətləndirilməsi kontekstidir. Əksinə, müasir təhlükəsizlik mühitində dövlətçilik institutlarının daha sabit əsaslar üzərində qurulması zərurətinin ifadəsidir. Gürcüstan rəhbərliyi göstərir ki, münaqişənin həlli üçün emosional deyil, hüquqi rasional yanaşma daha davamlı nəticə verir. Nəticə olaraq, "Gürcü arzusu" hökumətinin inzibati-ərazi vahidinin ləğvi barədə qərarı Gürcüstanın dövlət maraqlarına, regional sabitlik strategiyasına və beynəlxalq hüququn tələblərinə uyğun addım kimi qiymətləndirilə bilər.

Məsələni şərh edən **gürcü politoloq Vladimir Sxvediani** bildirib ki, Gürcüstan hakimiyyətinin keçmiş Cənubi Osetiya Muxtar Vilayəti ərazisindəki inzibati qurumu tamamilə ləğv etmək qərarı tarixi hesab edilə bilər. Onun sözlərinə görə, SSRİ dövrünün Cənubi Qafqazdakı "muxtar vilayətlər"dən daha zərərli inzibati-ərazi qurumlarını tapmaq çox çətindir. Politoloq doğru paralellər apararaq qeyd edib bölgədə iki belə qurum var idi: Azərbaycanda Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) və Gürcüstanda Cənubi Osetiya Muxtar Vilayəti (COMV): "Bu muxtar vilayətlərin hər ikisi qanlı separatizm müharibələrinin episentrinə çevrildi. Qeyd etmək lazımdır ki, həm DQMV, həm də COMV tamamilə süni şəkildə yaradılmışdır. SSRİ-nin yaranmasından əvvəlki tarixdə heç vaxt "Cənubi Osetiya" və ya "Dağlıq Qarabağ" adlı dövlət və ya inzibati qurumlar, xüsusən də etnik prinsip üzrə təşkil olunmuş vahidlər mövcud olmayıb".

Ekspert qeyd edib ki, COMV da tamamilə süni şəkildə – təkcə müxtəlif tarixi Gürcüstan torpaqlarının deyil, həm də Rusiya imperiyasının keçmiş Tiflis və Kutaisi quberniyalarının ən azı dörd qəzasının fraqmentlərindən "oyulub". Onun sözlərinə görə, sərhəd xətti dərələr və vadilər vasitəsilə bir-birindən iqtisadi-təsərrüfat cəhətdən təcrid olunmuş ərazidə etnik osetinlərin minimal üstünlük təşkil etdiyi inzibati vahid yaratmaq üçün çəkilmişdir: "Osetiya yaşayış məntəqələrinin "paytaxtı" funsiyasını yerinə yetirəcək heç bir əhəmiyyətli yaşayış məntəqəsi olmadığı üçün yeni vahid gürcü və yəhudi əhalisi olan kiçik Sxinvali şəhərini və yaxınlıqdakı gürcü kəndlərini əhatə edirdi. Sonrakı tarixi prosesləri təhlil edərkən məyusedici nəticəyə gəlmək olar: hər iki "muxtar vilayət" müəyyən bir anda separatçı münaqişələrə çevrilmək, lazımı anda partlamaq üçün "yavaş hərəkət edən minalar" kimi yaradılmışdır. Onların formalaşması üçün heç bir tarixi, iqtisadi, mədəni, coğrafi və ya digər obyektiv şərtlər sadəcə, yox idi".

V.Sxvediani bildirib ki, erməni millətçilərinin 1987–1988-ci illərdə DQMV-də qondarma "miatsum" – Azərbaycan ərazilərinin Ermənistana birləşdirilməsi üçün hərəkat başlatması fonunda Cənubi Osetiya Muxtar Vilayətinin "sakit" qalması çox diqqətçəkicidir: "O dövrdə erməni millətçiləri Gürcüstana Azərbaycan ərazisinin bir hissəsini "vəd etməklə" gürcü ictimaiyyətini fəal şəkildə cəlb etməyə çalışırdılar. İrəvan və Xankəndidə keçirilən kütləvi mitinqlər zamanı, etnik azərbaycanlıların Ermənistan SSR və DQMV-dən döyülməsi, qətl edilməsi və qovulması fonunda, Sumqayıt hadisələri zamanı və dərhal sonra erməni siyasi fəalları "miatsum"a gürcü dəstəyini qazanmaq və hadisələri "xristian həmvətənlərini yeni soyqırımı təhlükəsindən qorumaq" kimi təqdim etmək üçün əllərindən gələni etdilər. 1988-ci ilin sonu və 1989-cu ilin əvvəllərində Abxaziya və Cənubi Osetiya Muxtar Vilayətində separatçı hərəkatlar "canlandı" – bu dəfə Gürcüstanın özünə qarşı. Bu layihələr əsasən "miatsum" hərəkatı ilə eyni xətt üzrə təşkil olunmuş və vahid mərkəzdən əlaqələndirilmişdi. Eyni zamanda, yerli erməni icmaları, xüsusən də Abxaziyada, gürcülərlə "xristian qardaşlıqlarını" tez bir zamanda unudub separatçıları dəstəklədilər".

Ekspert qeyd edib ki, Cənubi Osetiya separatçılarının hərəkətlərinə cavab olaraq, Gürcüstan Ali Şurası 1990-cı il dekabrın 11-də COMV-ni ləğv edib. Onun sözlərinə görə, beləliklə, keçmiş muxtar vilayətin ərazisində yaradılmış inzibati-ərazi vahidinin ləğv edilməsi zərurəti göz qabağında idi. Üstəlik, beynəlxalq ictimaiyyətin nəzərində belə bir strukturun mövcudluğu, bütün separatçı layihənin əsaslandığı qondarma "Cənubi Osetiya" anlayışını faktiki olaraq "legitimləşdirdi". V.Sxvediani qeyd edib ki, məhz buna görə də qərarın Gürcüstanın maraqlarına tam uyğun olmasına baxmayaraq, qərbyönlü müxalifət nümayəndələrinin bunu "rusiyayönümlü" addım kimi təqdim etməyə çalışmaları qəribə görünür.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan Prezidentinin Mərkəzi Asiya zəfəri



## III MƏQALƏ

### Mərkəzi Asiya–Qafqaz–Avropa vahid enerji dəhlizi

Obrazlı desək, Prezident İlham Əliyevin Mərkəzi Asiya istiqamətində fəaliyyəti avropalıların üstünlük verdikləri "üç dəniz sistemi" formulu ilə məhdudlaşmır, strateji əhəmiyyəti yüksək olan daha geniş geosiyasi anlamda əhəmiyyət daşıyır. Buna görədir ki, "C6"nın meydana gəlməsi Azərbaycan liderinin gərgin və intensiv siyasi-diplomatik addımlarının məntiqi nəticəsidir. Bu formulun arxasında uğurlu bir liderin tarixi töhfəsi dayanır. Bir faktı da vurğulayaq.

Artıq qeyd edilmişdir ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanmışdır. Bunun üçün Qara dənizin dibi ilə "yaşıl enerji" kabelinin çəkilməsi nəzərdə tutulmuşdur. Həmin proseslərin məntiqi davamı olaraq 2024-cü il noyabrın 13-də Bakıda "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanmışdır. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü zamanı baş vermişdir.

İmzalanma mərasimindən sonra Azərbaycan Prezidenti hadisənin çox dolğun geosiyasi anlamını ifadə etmişdir. İlham Əliyev demişdir: "Bu gün Azərbaycan, Qazaxıstan və Özbəkistan münasibətlərinin tarixində əlamətdar hadisədir. Üç qardaş ölkə bu gün öz əməkdaşlığını yeni səviyyəyə qaldırır. Sazişin imzalanması, deyərdim ki, tarixi hadisədir. Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və yaşıl enerji sahəsində fəal əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü Saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Mahiyyət etibarilə, Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələlərdə, o cümlədən yaşıl enerjinin inkişafı sahəsində sinxron fəaliyyət göstərir".

2025-ci ildə isə Azərbaycan lideri daha yığcam geosiyasi məzmunu olan aşağıdakı tezisi ifadə etmişdir: "Bununla da biz Mərkəzi Asiyanı, Qafqazı, Avropanı, Xəzər və Qara dənizləri vahid enerji dəhlizi ilə birləşdirəcəyik".

### "C6" anlamının 2 aspekti

Həmin aspektlərin siyasi, hüquqi və geosiyasi təməli ilk dəfə 2022-ci il Memorandumunda qoyulmuşdur. Azərbaycan Prezidentinin Memorandumla bağlı fikirlərini bu mövzuda öncəki məqalələrdə vermişik. İlham Əliyev həm də sənədin ümumi geosiyasi anlamını dəqiq və lakonik ifadə etmişdir. Dövlət başçısı Memorandumu "gələcək üçün yol xəritəsi" adlandırmışdır. Burada sənədin ümumi və strateji mənasını açmışdır. Əgər Memorandum gələcəyin yol xəritəsidirsə, o, yalnız enerji sferasını əhatə etmir, həm də Mərkəzi Asiya-Qafqaz-Qərb "zənciri"nin bütövlükdə konseptual və feili anlamlarının geosiyasi sintezini özündə ehtiva edir.

2022-ci il sənədini imzalayan Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Azərbaycan liderinin dəyərləndirməsi ilə razılaşmışdır. Ursula fon der Lyayenin aşağıdakı iki fikri bunun konkret sübutudur: "İmzalanan Anlaşma Memorandumu vasitəsilə biz həmin sahədə əməkdaşlığımızın möhkəm təməlini qoyuruq. Azərbaycan yanacaq növlərinin təchizatçısı olmaqla yanaşı, tədricən Avropa İttifaqı üçün bərpaolunan enerji növlərini təchiz edən mühüm və etibarlı tərəfdaşa çevriləcək. Nəhayət, bizim qaz sahəsindəki əməkdaşlığımız iqlimlə bağlı məsuliyyətimizlə uzlaşmalıdır. Məsələn, buraya metan qazının tullantıları da daxildir. Bizim memorandum bütün qaz təchizatı zənciri boyu metan qazının tullantılarının azaldılması ilə bağlı öhdəliyi nəzərdə tutur".

Və Aİ rəsmisinin sonrakı tezisi: "qaz sahəsindəki əməkdaşlığımız iqlimlə bağlı məsuliyyətimizlə uzlaşmalıdır", buna görə də "Mən Azərbaycanı qlobal metan öhdəliyinə qoşulmağa dəvət edirəm. Bu günə qədər bu öhdəlik 119 ölkə tərəfindən dəstəklənib. Azərbaycan böyük tərəqqiyə nail olub, nümayiş və təqdim etməyə bir çox nailiyyəti var".

Aydındır ki, 2024-cü ildə Mərkəzi Asiyadan Qazaxıstan və Özbəkistanın, Qafqazdan isə Azərbaycanın imzaladığı və yuxarıda vurğuladığımız məlum strateji əməkdaşlıq sazişi öncədən dərin düşünülmüş və Prezident İlham Əliyevin aparıcılığı ilə davamlı həyata keçirilən böyük siyasətin məntiqi bəhrəsidir. Onun başlıca mənası Mərkəzi Asiya, Qafqaz və Avropanın vahid enerji dəhlizi üzrə birləşməsindən ibarətdir. Eyni zamanda, burada Xəzər dənizi, Qara dəniz və Aralıq dənizi anlamlarının daxil olması, söhbətin sırf geosiyasi xarakterli prosesdən getdiyini təsdiq edir. Məhz bu iki faktorun işığında "C6"nın geosiyasi anlamının iki aspekti konseptual kontekstdə çox aktuallaşır. Onların üzərində dayanaq.

### "Bir qurşaq" anlayışına İlham Əliyev töhfəsi

"Bir Qurşaq, Bir yol" təşəbbüsünün geosiyasi dərki aşağıdakı kimidir. "Bir Qurşaq" Çindən başlayaraq Avropaya qədər geniş bir coğrafiyanın vahid, sabit, təhlükəsiz əməkdaşlıq məkanı olmasını ifadə edir. Həmin geosiyasi məkanın iki coğrafi və həm də funksional (feili aspektdə) "hüdudu" müəyyən edilmişdir (Çin tərəfindən). Onun şimaldan sərhədini Rusiya təşkil edir (yəni Rusiya ərazisindən feili istifadə imkanı yozdur, Ukrayna savaşına görə), cənubdan isə İran faktoruna görə, xeyli risklidir. Bu iki "sərhəd ərazi"nin arasında isə Çindən Avropaya qədər "türk qurşağı" vardır. Onu "Orta Dəhliz" və ya "Orta Yol" adlandırırlar. "Bir Qurşaq" geosiyasi, siyasi, coğrafi və nəqliyyat marşrutu kimi məhz Çini, Türk dünyasını və sonra həm Şərqi Avropa istiqamətini, həm də Cənubi Avropa istiqamətini nəzərdə tutur.

Beləliklə, Türk dövlətlərinin güclü, sabit, inkişafedən, tərəqqipərvər və bəşəri miqyasda humanitar olması dünyanın özünə lazımdır. Türk faktoru bu anlamda artıq XXI əsrin əsas amilidir! XXI əsr həmin bağlılıqda "Türk əsri"dir! Belə alınır ki, "Bir Qurşağın" siyasi, ticari, geosiyasi və təhlükəsizlik müstəvilərində coğrafi, geosiyasi və əməkdaşlıq istiqamətləri üzrə bütöv, təhlükəsiz, işlək olması birbaşa Türk dövlətlərinin birgə fəaliyyətindən asılıdır.

Bu bağlılıqda "C6" "Bir Qurşağın" çox mühüm coğrafi və geosiyasi tərkib hissəsini təşkil edir. Niyə çox mühüm? Çünki hazırda vurğulanan layihə yolunda ən çox təhdidlərə, risklərə və təhlükələrə məruz qalan məhz Türk coğrafiyasıdır. Müxtəlif imperialist ambisiyalı qüvvələr Türk dünyasını çalxalamağa, onu tarixi funksiyasından yayındırmağa cəhdlər göstərirlər. Bu da ön sıraya fəal və təşəbbüskar türk liderin çıxarılması ehtiyacını ortaya qoyur. İlham Əliyev bu vəzifənin öhdəsindən böyük uğurla gəlməkdədir!

Beləliklə, artıq Qərbin siyasi dairələri anlayırlar ki, türklərsiz heç bir qalıcı inkişaf və sülh mümkün deyildir. Bu səbəbdən ABŞ-ın Türkiyədəki səfiri və Suriya üzrə xüsusi təmsilçisi son zamanlar iki tezisi vurğulayır: birincisi, Qərb XX əsrin başlanğıcından Osmanlıya qarşı yanlış mövqe tutduğunu anlayır, ikincisi, "Xəzər dənizindən Aralıq dənizinə qədər əməkdaşlıq görəcəksiniz".

İndi ikinci geosiyasi aspektə baxaq.

### "Bir yol"un İlham Əliyev memarlığı

"Bir Qurşağın" geosiyasi tərkib hissəsi kimi Mərkəzi Asiya-Qafqaz və Xəzər dənizi-Qara dəniz coğrafiyasının həssaslığı və aktuallığı real müsbət nəticəverici addımların atılmasını tələb edir. Bunu gerçəkləşdirə biləcək liderin türklərdən olması zərurətini yuxarıda əsaslandırmağa çalışdıq. İlham Əliyev bu bağlılıqda XXI əsrdə aparıcı türk lideridir. Siyasi lider kimi Azərbaycan rəhbərinin tarixi missiyası aspektində bu özəlliyin ayrıca yer tutduğunu düşünürük. Biz, bu kontekstdə Azərbaycan liderinin tarixi missiyasını hələ çox araşdırmalı və onun konseptual obrazını yaratmalıyıq.

Realpolitika çərçivəsində siyasi-diplomatik sahədə isə İlham Əliyev quruculuq xəttini inam və uğurla davam etdirir. Hazırda Azərbaycan Prezidenti "Bir Yol"a konkret geosiyasi anlam və feili reallaşdırılma "dəhlizi" kimi məzmun verən əsas liderdir. Bunu Pekində, Ankarada və Vaşinqtonda açıq etiraf edirlər. Onun son sübutlarından biri "C6"dır! "C6" kontekstində "Bir Yol"u necə izah etmək olar?

Azərbaycanın Mərkəzi Asiya dövlətləri başçılarının Məşvərət Görüşünə tamhüquqlu üzv kimi qəbul edilməsi "Bir Yol"un iki cəhətdən geniş bir geosiyasi məkanda əməkdaşlıq və təhlükəsizlik baxımından sığortalanması deməkdir.

Birincisi, Azərbaycan faktiki olaraq TDT-nin yerləşdiyi coğrafiyanın hər qarışında "Bir Yol"un təhlükəsizliyini və işləkliyini təmin edə bilmək gücündədir. Təhlükəsizlik aspekti TDT-nin bütövlükdə geosiyasi, iqtisadi, siyasi-diplomatik və hərbi imkanları ilə bağlıdır. Hazırda ÜDM-i trilyon dollarla ölçülən və bu aspektdə inkişaf edən bir TDT qlobal geosiyasətdə aktordur. Avrasiyada indi TDT qədər dinamik və davamlı inkişaf edən ikinci bir təşkilat mövcud deyildir.

İkincisi, Azərbaycan eyni dərəcədə Qərb və Çin üçün, qismən də Rusiya və İran üçün enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin sintezdə təmini nümunəsinə malik dövlət olaraq legitimdir. Burada Rusiya və İranın mövcud qüvvələr balansını pozmaq imkanlarının məhdud olduğunu və Şuşa Bəyannaməsinin, Azərbaycan-Özbəkistan, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qazaxıstan-Özbəkistan miqyaslarında imzalanan strateji mahiyyətli sənədlərin verdiyi dividendləri nəzərə alsaq, rəsmi Bakının üzərinə düşən missiyanı uğurla yerinə yetirəcəyinə zərrə qədər də şübhə yeri qalmır.

Bununla geosiyasi anlamı olan və vacib hesab etdiyimiz bir ümumiləşdirmə edə bilərik.

Prezident İlham Əliyev fəal xarici siyasətində məharətli uyğunlaşdırma və realpolitik məqama üstünlük verməklə möhtəşəm tarixi, siyasi və geosiyasi nailiyyətə imza atmışdır. Azərbaycan lideri konseptual yanaşma əsasında praktiki müstəvidə məlum beynəlxalq layihənin "Bir Qurşaq" hissəsi ilə "Bir Yol" kəsiminə vahid geosiyasi kontekstdə səmərəverici məzmun verə bilmişdir. Onun iki mühüm göstəricisindən danışa bilərik. Onlardan birincisi TDT-nin Qəbələ Zirvəsidir, ikincisi isə "C6+1"dir!

Bu naliyyətlərin bir tərəfi Zəngəzur dəhlizinin perspektivi ilə əlaqəlidir. İndi "Tramp yolu" deyilən layihə reallıqda Azərbaycanın aparıcılığı və Türkiyənin qlobal geosiyasi çətirlik funksiyası ilə "TDT" ideyasının triumfudur! Onun təməlində isə ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" tarixi kəlamının nəzəri, konseptual, siyasi, ideoloji və geosiyasi məna çalarları dayanır. Həmin prizmada "C6+1" formulu ilə "TDT+" formulu arasında məntiqi və praktiki bağlantıların təhlilinə keçmək olar.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

## Hərbi attaşelər Milli Aviasiya Akademiyasında

**Ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri üçün Milli Aviasiya Akademiyasına ziyarət təşkil edilib. Ziyarətdə 14 ölkənin hərbi attaşelik aparatının 17 nümayəndəsi iştirak edib.**

Əvvəlcə qonaqlara Milli Aviasiya Akademiyasının yaranma tarixi, inkişaf mərhələləri, strukturu və fəaliyyəti barədə ətraflı məlumatlar verilib. Qeyd olunub ki, akademiyada bu gün bakalavriat və magistratura səviyyələrində 3 mindən çox tələbə təhsil alır.

Ziyarət çərçivəsində hərbi attaşelər təhsil müəssisəsinin ərazisində, Elm-İstehsalat Birliyində, Aviasiya Tarixi Muzeyində, kitabxanada, laboratoriyalarda, idman kompleksində və tədris korpuslarındakı auditoriyalarda olub, tələbələrlə keçirilən tədris prosesini izləyiblər.

Sonda birgə xatirə fotosu çəkilib.

***XQ***



**Türkiyənin xarici işlər naziri Hakan Fidanın bir neçə gün əvvəl Böyük Millət Məclisi deputatlarının suallarını cavablandırarkən, Ankaranın İrəvanla normallaşması kontekstində şərt kimi vurğuladığı Zəngəzur dəhlizi məsələsi Ermənistanda isterik vəziyyət doğurub. Ölkənin XİN rəhbəri Ararat Mirzoyandan sonra baş nazir Nikol Paşinyan da türkiyəli rəsminin bildirdiklərinə reaksiya verib.**

## Zəngəzur dəhlizi və TRIPP, yoxsa "Dünyanın kəsişməsi" və TRIPP?

### *Ermənistan rəsmiləri söz oyunu ilə nə demək istəyirlər?*

N.Paşinyan avqustun 8-də Vaşinqtonda Prezident İlham Əliyevlə Birləşmiş Ştatların dövlət başçısı Donald Trampın şahidliyi ilə imzaladığı Birgə Bəyannaməni xatırladıb və sənəddə regional kommunikasiyaların açılması baxımından "Tramp marşrutu"nun (TRIPP) əsas götürüldüyünü vurğulayıb. Nikol hələ bir qədər də irəli gedərək amirənə tərzdə bildirib ki, İrəvan tərəfindən təsdiqlənməyən istənilən terminin ölkəyə heç bir aidiyyəti yoxdur. Erməni hökumət rəhbəri onu da deyib ki, ölkəsi üçün yalnız TRIPP və "Dünyanın kəsişməsi" var, Ermənistan öz ərazisindəki infrastruktura kənardan ad verilməsi ilə razılaşmayacaq. O zaman bəzi məqamlara diqqət yetirək.

Əvvəla, Zəngəzur dəhlizi məsələsi Azərbaycanın 44 günlük müharibədəki Zəfərinin məhsulu olaraq meydana çıxıb. Müharibənin yekunlarını təsdiqləyən və Ermənistan üçün kapitulyasiya aktı olan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda Naxçıvana maneəsiz yoldan söz açılıb ki, Ermənistan məğlub tərəf kimi həmin yolun verilməsinə dair öhdəliyini yerinə yetirməyib. Hesab edək ki, İrəvan qeyri-ciddi davranışı ilə üçtərəfli Bəyanatın imzalanmasına vəsilə olan Rusiyaya münasibətdə nankorluq etdi. Bu onun öz işidir.

Məsələ ondadır ki, Azərbaycan dövlətinin təmsilçiləri, o cümlədən Prezident İlham Əliyev dəfələrlə Naxçıvana yolun ölkəmizin strateji maraqları baxımından vacibliyini vurğulayıb. Zəngəzur dəhlizi ifadəsi dövlətimizin başçısı tərəfindən bu vacibliyə həm tarixi, həm də mənəvi çalarlar gətirmək naminə dövriyyəyə gətirilib. Ermənistan rəhbərliyi isə uzun müddət Naxçıvana yolu təmin etməmək üçün min hoqqadan çıxsa da, yekunda yenə həmin yolun maneəsizliyi kazusu ilə razılaşdı. Söhbət haqqında söz açdığımız 8 avqust Vaşinqton Birgə Bəyannaməsindən gedir.

Yeri gəlmişkən, N.Paşinyanın və digər erməni rəsmilərinin haqqında söz açdıqları "Dünyanın kəsişməsi" təşəbbüsü də məhz Azərbaycanın Zəngəzur dəhlizi ideyasına qarşı çıxmaq məramına söykənmişdi. Hazırda Ermənistan rəhbərliyində təmsil olunanlar elə fon yaradırlar ki, guya TRIPP elə "Dünyanın kəsişməsi"dir. Biz niyə bu deyimlə razılaşacaq? Razılaşmırıq, amma hesab edirik ki, Paşinyan administrasiyası daxili auditoriya üçün nə isə deməlidir. O zaman gərək rəsmi İrəvan Zəngəzur dəhlizinə "ilişməsin". Amma bunun əksini görürük.

Məsələyə başqa rakusdan yanaşaq və görək "Dünyanın kəsişməsi" nə deməkdir? Əslində, bu təşəbbüsdə elə bir ciddi mətləb yoxdur. Vaxtilə "dünyanı kəsişdirməyin" məqsədi Naxçıvana yolu əngəlləmək idi. Doğrudur, bu avantürada regional kommunikasiyaların açılması məntiqi olmuşdu. Amma nəqliyyat infrastrukturunu, loru dildə desək, dağa-daşa salmaqla. Məsələn, Paşinyan Laçın-Kornidzor-Marqara marşrutunu irəli sürmüşdü. Yəni beynəlxalq yüklər tırlar vasitəsilə Azərbaycanın Laçınından Ermənistanın Kornidzoruna keçəcək, oradan isə Marqaraya yön alacaq.

Marqara Ermənistanın Türkiyə ilə sərhədindəki nəzarət-buraxılış məntəqəsidir. Başqa sözlə desək, Nikol, öz aləmində, bir güllə ilə iki quş vurmaq istəmişdi. Həm regional kommunikasiyaların açılmasında erməni gündəmini diri saxlamaq, həm də Türkiyə ilə sərhədləri açmaq. Ancaq Paşinyan istəyinə nail ola bilmədi və yekunda 8 avqust Birgə Bəyannaməsini imzalamaq məcburiyyətində qaldı.

İndi əsas məsələ Vaşinqton anlaşmasını yerinə yetirməkdir. İrəvanda mövcud istiqamətdə işin getdiyi bildirilir, amma hansı işin, detallar məlum deyil. Halbuki, prosesin tezləşdirilməsinə ciddi ehtiyac var. Digər tərəfdən, "Dünyanın kəsişməsi" özlüyündə böyük səslənir. Yəni Şimaldan Cənuba, Şərqdən Qərbə yollar Ermənistanda birləşəcək. Bəs Ermənistan bunun üçün hansı işlər görüb? Ümumən, ölkənin loqistika imkanları varmı?

Bir halda ki, Paşinyanın ortaya atdığı "Dünyanın kəsişməsi" heç bir əməli təşəbbüsü nəzərdə tutmur, o zaman Ermənistan nəyə lazımdır? Axı Gürcüstan var və bu ölkə ərazisindən böyük tranzit onsuz da həyata keçirilir. Üstəlik, gələcəkdə həmin tranzitin əhəmiyyəti azalmayacaq. Çünki yükdaşımaların həcmi ildən-ilə artmaqdadır.

Sözümüz ondadır ki, Ermənistan ümumi işə töhfə verməlidir. Ölkənin rəhbərliyi bunu düşünməlidir. Məsələn, Prezident İlham Əliyev Azərbaycanın regionun logistika qovşağına çevrilməsi istiqamətində mühüm tədbirlər gördüyünü, az qala, bütün beynəlxalq platformalarda bəyan edir. Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən irimiqyaslı infrasturktur layihələr fikrimizin sübutudur. Deməli, əməli fəaliyyəti ilə dünyanı kəsişdirən Ermənistan yox, məhz ölkəmizdir.




Bəli, Azərbaycan Ermənistan sərhədinədək dəmir və avtomobil yolunun inşasını başa çatdırmaq üzrə olduğu bir vaxtda, Paşinyan "Dünyanın kəsişməsi" deyib qlobal daşımaları Ermənistanın kələ-kötür yollarında hərəkətə gətirmək istəyir. Özü də hələ bilmək olmaz ki, bunun arxasında hansısa başqa avantürist niyyət durur, ya yox. Axı erməni iqtidarının zaman-zaman hər cür oyunbazlıqlar etdiyini bilirik.

Ermənistanın əməli işə töhfə verməsinin - regional kommunikasiyaların açılmasını tezləşdirməsinin, başqa sözlə desək, üzərinə düşən öhdəliyi yerinə yetirməsinin vacibliyindən söz düşmüşkən, sonda onu da bildirək ki, ölkə rəhbərliyinin mövcud istiqamətdə səmimi davranmasına ehtiyac var. Yəni yaxşı olar ki, Paşinyan və komandasındakı şəxslər söz oyununu bir kənara qoysunlar. Əgər real iş görməyə imkanları, vəsaitləri yoxdursa, bunu açıqca bildirsinlər. Həyasızlıq salmaq onlara heç bir fayda verməyəcək. Ərazi bütövlüyü, suverenlik kimi klişeləri tirajlamaq da həmçinin. Çünki obrazlı desək, Naxçıvana gedən qatar artıq yola çıxıb. O qatar ki, onun intensiv hərəkətində bütün dünya maraqlıdır. Ermənistan isə dünyanın bir hissəsi olmağa çalışmalıdır, qatarın çarxları altında qalmağa yox.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Avropada rəqəmsal ziddiyyət

## *Sadələşdirmə, yoxsa yeni güc arxitekturası?*

**Fundamental hüquqlar, şəxsi məlumatların toxunulmazlığı, ədalətli rəqabət, şəffaflıq və insan mərkəzli texnologiyalar Brüsselin fərqləndiyi əsas sütunlardan biri hesab olunur. Lakin son illər Avropada maraqlı siyasi və iqtisadi gərginlik formalaşıb. Qitə bir tərəfdən texnoloji nəhənglərin nüfuzuna qarşı mübarizə aparır, digər tərəfdən isə onların qoyduğu tempdən geri qalmaqdan çəkinir.**

Bu ziddiyyət Avropa Komissiyasının "Rəqəmsal Omnibus" və geniş rəqəmsal sadələşdirmə paketi ilə yeni mərhələyə qədəm qoyub. Paket özündə bürokratik yüngülləşdirmə və texnoloji çevikliyi ilə yanaşı, həm də Avropanın strateji düşüncə tərzində baş verən dərin dəyişiklikləri ehtiva edir.

Komissiyanın məqsədi şirkətləri administrativ yüklərdən azad etmək, innovasiyaya daha geniş meydan açmaq, süni intellekt və rəqəmsal xidmətlər üçün vahid oyun qaydaları yaratmaq və Avropanı yenidən qlobal rəqabətin aktiv oyunçusuna çevirməkdir. Məqsəd kağız üzərində sadə görünsə də, səhnə arxasında həm siyasi, həm iqtisadi, həm də ideoloji toqquşmalar baş verir. Çünki Avropa bu dəfə sadəcə yeni qanun hazırlamaqla kifayətlənmir, həm də özünü bir növ yenidən kəşf edir. "Süni İntellekt Aktı"nın bəzi müddəalarının 2026-cı ilin avqustundan 2027-ci ilin dekabrına qədər təxirə salınması ilk baxışdan texniki dəyişiklik təsiri bağışlayır. Əslində, hadisə daha geniş siyasi kompromisin carçısıdır - desək, yanılmarıq. Nəzərə alsaq ki, komissiya uzun müddətdir "Big Tech" şirkətlərini nəzarət altında saxlamağa çalışır, bu addım o qədər də təsadüfi doğurmamalıdır. "Google", "Meta", "Microsoft", "Amazon" "OpenAI" kimi texnologiya nəhəngləri Avropada sərt hüquqi çərçivələrə rast gəlir, reklam bazarından tutmuş məlumatların emalına qədər hər addımda "Avropa filtri" ilə üzləşirlər. Lakin qlobal süni intellekt yarışı elə sürətlə irəliləyir ki, Brüssel bu dəfə öz qaydalarının Avropanı geriyə salacağından ehtiyat etməyə başlayıb. ABŞ və Çinin sözügedən sahədə sürətlə irəlilədiyi bir zamanda Avropa daha mühafizəkar hüquqi strukturların yaratdığı ləngimə ilə barışmaq istəmir.

Komissiya "sadələşdirmə deregulyasiya deyil" desə də, Avropa ictimaiyyətində yaranan suallardan qaçmaq olmur. Maraqlıdır, həm məhdudiyyətin qorunması, həm də innovasiyanın gerilməməsi üçün balans necə tapılacaq? Yeni paket balans nöqtəsini müəyyənləşdirməyə cəhd edir. Komissiyanın təklif etdiyi dəyişikliklərdən biri də "Ümumi Məlumatların Qorunması Qaydaları"nın (GDPR) bəzi müddəalarının yüngülləşdirilməsi və aydınlaşdırılmasıdır. GDPR bu gün Avropanın "qüruru" hesab olunur. Məhz bu qanun vasitəsilə bütün dünyanın şəxsi məlumatlara yanaşması dəyişib. GDPR, eyni zamanda, innovativ şirkətlər üçün ən böyük maneələrdən birinə çevrilib. Artıq "Google", "Meta", "OpenAI" kimi şirkətlərin Avropa vətəndaşlarının şəxsi məlumatlarından süni intellekt modellərinin təlimində istifadə edə bilməsi məsələsi gündəmdədir. Bu, ictimai müzakirədə ziddiyyətli reaksiyalar doğurur. Maraqlıdır, məlumatın həm hüquqi, həm iqtisadi dəyər daşıdığı bir dövrdə Avropa öz resursların ABŞ korporasiyalarının istifadəsinə açırsa, bunun qarşılığında nə əldə edəcək? Avropanın bu addımı transatlantik əməkdaşlığın güclənməsi kimi yozula bilər, lakin, eyni zamanda, qitənin texnoloji suverenliyi ilə bağlı sualları da artırır.

"Rəqəmsal Omnibus" paketində ən çox diqqət çəkən yeniliklərdən biri kibertəhlükəsizlik hesabatlarının vahid sistemə inteqrasiyasıdır. Aİ-də fəaliyyət göstərən minlərlə şirkət üçün ciddi yüngülləşmə və xərclərin azalması anlamına gələn proses xüsusi maraq doğurur. Məsələn, hazırda hər hansı bir kibertəhlükəsizlik insidenti baş verəndə şirkətlər bir neçə quruma ayrı-ayrılıqda hesabat göndərir, müxtəlif platformalarda fərqli formatlarla işləməyə məcbur olurlar. Vahid mexanizmin yaradılması isə prosesin sürətini artıracaq və insidentlər üzrə statistikanın daha dəqiq toplanmasına imkan




verəcək. Lakin burada incə bir nüans var: məlumatların mərkəzləşdirilməsi Avropanın öz təhlükəsizlik infrastrukturunda yeni zəiflikların yaranması ehtimalını artırır.

"Avropa Biznes Pulqabısı" təşəbbüsü isə Aİ daxilində idarəetmə qaydalarını köklü şəkildə dəyişir. Belə olan halda, şirkətlər sənədləri rəqəmsal imzalayacaq, möhürləyəcək, paylaşacaq və digər üzv ölkələrlə təhlükəsiz şəkildə ünsiyyət qura biləcəklər. Bu, bir növ, Şengenin biznes versiyasıdır. Mövcud situasiyada Avroittifaqın ən böyük çatışmazlıqlarından biri daxili bazarın tam harmonizasiya olunmamasıdır. Vergilər, lisenziyalar, icazələr və sənədləşmə bir çox şirkət üçün yeni ölkələrlə əlaqələr qurmağı çətinləşdirir. Brüssel bu təşəbbüslə həmin maneələri aradan qaldırmağa və şirkətləri Avropa daxilində sərbəst hərəkətə təşviq etməyə çalışır. Əgər layihə gözlənilən şəkildə işləsə, Aİ biznes mühitində illik 150 milyard avroya yaxın qənaət oluna bilər. Görünür, bu addım Aİ-nin iqtisadi inteqrasiyanı yeni səviyyəyə qaldırmaq üçün istifadə etdiyi siyasi alətdir.

Komissiyanın yeni "Məlumat İttifaqı Strategiyası" da məhz bu siyasi çərçivəyə daxildir. Avropa illərdir məlumat suverenliyini qorumağa çalışır. Qitədə istehsal olunan məlumatların ABŞ və Çin platformalarının əlində toplanması Brüsseli narahat edir. Yeni strategiya məlumatların sızmasının qarşısını almaq üçün hüquqi və texniki mexanizmlər yaradır, həssas məlumatların qorunmasını gücləndirir və üçüncü ölkələrdə Avropa məlumatlarının qanunauyğun istifadə olunmasına dair meyarlar təyin edir. Beləliklə, "qoca qitə" özünün "rəqəmsal geopolitika" konsepsiyasını formalaşdırır. Daha dəqiq desək, məlumatın necə istifadə olunacağı artıq Avropanın qlobal rolu ilə birbaşa bağlı olacaq.

Brüssel hazırda iki təzyiq xətti arasında qalıb: bir tərəfdə "Big Tech", digər tərəfdə ABŞ hökuməti. Vaşinqton Avropanın sərt tənzimləmələrindən və Avropa bazarında innovasiya sürətinin zəifləməsindən narahatdır. Bununla yanaşı, populist və avroskeptik siyasi qüvvələr də mövcuddur. Onlar Avrokomissiyanı lazımsız tənzimləmələr yaratmaqda, şirkətləri boğmaqda günahlandırırlar. Həmin təzyiqlər fonunda Komissiya hüquqi çərçivələri qorumağa çalışır. Təqdim edilən sadələşdirmə paketi də məhz bu tarazlığı tapmaq cəhdidir. Sual verilə bilər ki, Avropa sadələşdirmə adı altında öz tənzimləmə modelini yumşaldır, yoxsa yeni güc arxitekturası qurur? Brüsselin məntiqinə görə, paket Avropanın rəqəmsal bazarını daha çevik və rəqabətqabiliyyətli edəcək, qitənin süni intellekt yarışında geridə qalmasının qarşısını alacaq. Lakin bir çox analitiklər hesab edirlər ki, süni intellekt sahəsində qaydaların təxirə salınması qitənin indiyə qədər müdafiə etdiyi dəyərlər və etik çərçivələr üçün risk yarada bilər. Süni intellektin biometrik identifikasiya, kredit qabiliyyətinin qiymətləndirilməsi, yol hərəkəti, hüquq-mühafizə və səhiyyə kimi sahələrdə tətbiqinin ləngidilməsi birmənalı deyil. Bir tərəfdən şirkətlərə hazırlıq üçün vaxt verilir, digər tərəfdən isə bu sahələrdə risklərin artması ehtimalı var. Ən mühüm sual isə budur: Avropa sadələşdirilmiş qaydalarla özünü daha güclü edə biləcək, yoxsa yenə də texnoloji nəhənglərin diktə etdiyi tempin arxasınca qaçacaq? Bu sualın cavabı hələ məlum deyil. Lakin bir şey dəqiqdir ki, Aİ rəqəmsal çağın ən mühüm dönüş nöqtələrindən birinə dayanır. Brüssel tənzimləmə modelini yenidən qurur, dünya isə onun atacağı addımları diqqətlə izləyir. Çünki Avropa bu paketlə həm də siyasi identikliyini müəyyənləşdirir.

"Qoca qitə" innovasiya ilə hüququn, iqtisadiyyatla dəyərlərin, çevikliklə təhlükəsizliyin arasında yeni balans axtarır. Balans tapılsa, Avropa yeni rəqəmsal dövrün liderlərinə çevrilə bilər. Tapılmasa, qlobal yarışda yenidən geriləmək riski yüksəkdir. Şübhəsiz, qitənin gələcəyi məhz bu dönəmin nəticələrindən asılı olacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Latviyada İstanbul Konvensiyası qüvvədə qaldı

## *Prezident ölkə seyminin hay-küylü qərarını təsdiqləmədi*

**Bu yaxınlarda Latviya Seymi (parlament) qadınları zorakılıqdan qorumağı hədəfləyən Avropa Şurasının İstanbul Konvensiyasından çıxmaq üçün səs verib. Seym bu məsələni 12 saatdan çox müzakirə edib. Bu qərarı Latviya cəmiyyətində və beynəlxalq aləmdə geniş rezonans doğuraraq ölkəni dərin ideoloji və siyasi müzakirələrin mərkəzinə çevirib.**




Qadınlara və qızlara qarşı zorakılıqdan qoruyan bu sənəd illərdir Avropada insan hüquqları sahəsində ən mühüm mexanizmlərdən sayılırdı. Lakin Latviya Seymində keçirilən uzun və emosional müzakirələrdən sonra bəzi siyasi qüvvələr onun ölkənin sosial dəyərlərinə uyğun olmadığını bildirib və konvensiyadan çıxmağa səs veriblər. Bu addım yalnız hüquqi deyil, həm də mədəni-siyasi seçimin göstəricisidir.

Konvensiyaya qarşı çıxan siyasi qüvvələr hesab edirlər ki, sənəddə "gender" anlayışının sosial baza kimi təqdim olunması səhvdir. Onların fikrincə, Konvensiya uzun illər formalaşmış və cəmiyyət tərəfindən qəbul edilmiş ənənəvi ailə modelinə ziddir: "Gender rollarının bioloji deyil, sosial kateqoriya kimi izah edilməsi kişi və qadının cəmiyyətdəki ənənəvi rollarını pozur. Nəticədə istinad nizamın əsas dayaqlarından biri olan ailə institutunu sarsıdır. Bu da siyasi mübahisə predmeti olmaqla yanaşı, cəmiyyətdə narahatlıq yaradır. Çünki Konvensiya milli kimliyə potensial müdaxilə kimi dəyərləndirilir və bəzi dairələrdə "xarici təsir" kimi təqdim olunur. Eyni zamanda, milli dəyərlərdən uzaq, yerli reallığı nəzərə almayan normativ akt kimi qəbul edilir".

Bu səbəbdən mühafizəkar partiyalar sənəddən imtina etmək və ya ona qarşı çıxmaq mövqeyini, sadəcə, diplomatik taktika kimi deyil, "Latviya dəyərlərinin müdafiəsi" kimi qələmə verirlər. Onların ritorikasında bu addım milli-mədəni özünüdərkə, ailə institutunun qorunmasına və ənənəvi sosial rolların saxlanmasına yönəlmiş addımdır. Bəs seym üzvləri nəyi önə çıxarırlar? Bu, ilk növbədə, İstanbul Konvensiyasının 4-cü maddəsi ilə bağlıdır. Maddənin bir bəndində "sexual orientation, gender identity" ifadəsi yer alıb. Bu, Qərb dünyasında normal hal kimi qəbul olunsa da, bəzi ölkələr üçün qəbuledilməzdir, hətta ikrahdoğurucudur. Çünki onun cinsi azlıqların hüquqlarını təşviq edəcəyi, üçüncü cinsi, eynicinsli nikahları tanıyacağı, ailə ənənələrini zədələyəcəyi qorxusu var. Narahatlığa əsasən, gender anlayışının geniş hüquqi təsiri, LGBT hüquqlarının potensial genişlənməsi konstitusion ailə modelinə müdaxilə ehtimalını artırır. İkincisi, gender anlayışının genişləndirilməsi sosial və mədəni uyğunluq problemlərinə səbəb olur. Bu da Latviya cəmiyyətinin əksəriyyəti üçün qəbuledilməzdir.

Beləliklə, latış deputatların narahatlığı başadüşüləndir. Onlar ailə institutuna və ənənəvi gender rollarına ciddi önəm verdiklərini bildirirlər. Ölkə qanunvericiliyində cinsiyyət anlayışı adətən bioloji cinsə əsaslanır – qadın və kişi. Üçüncü cins və eynicinsli nikahlar tanınmır. Buna görə konvensiyadakı bu ifadələr geniş interpretasiya edildikdə narahatlıq yaradır.

Digər tərəfdən, İstanbul Konvensiyasının ölkədəki demoqrafik problemi dərinləşdirəcəyinə inanırlar. Bu gün Latviyanın əsas problemləri aşağı doğum nisbəti, yüksək ölüm və emiqrasiyadır. Bu səbəbdən əhalinin sayı sürətlə azalır, eləcə də yaşlıların sayı artır. 2025-ci ilin əvvəlinə olan məlumata görə, Latviyada təxminən 1,8 milyon insan yaşayırdı ki, bu da əvvəlki ilə nisbətən 18 min nəfər azdır. Mərkəzi Statistika Bürosu tərəfindən dərc edilmiş ilkin məlumatlara görə, bu ilin ilk səkkiz ayında Latviyada 7 min 837 doğuş qeydə alınıb ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 11,3 faiz azdır. Bu, təkcə doğum nisbətinin aşağı olması və əhalinin yaşlanması (və nəticədə ölüm hallarının artması) ilə deyil, həm də daim davam edən mühacirətlə bağlıdır. Latviya Xarici İşlər Nazirliyinin məlumatına görə, hazırda təkcə Birləşmiş Krallıqda təxminən 150 min Latviya mühaciri yaşayır ki, bu da dünya üzrə bütün Latviya diasporunun demək olar ki, yarısıdır.

Onu da qeyd edək ki, mühacirlərin əksəriyyəti kişilərdir. Son illər Latviyada "kişi çatışmazlığı" o qədər hiss olunur ki, bu mövzu həm yerli mediada, həm də sosial şəbəkələrdə geniş müzakirə mövzusudur. Rəsmi statistika göstərir ki, ölkədə qadınların sayı kişiləri on minlərlə üstələyir və fərqin 130–150 min arasında dəyişdiyi bildirilir. Bu isə Latviyanı Avropada kişi–qadın balansının ən qeyri-bərabər olduğu ölkələrdən birinə çevirir. Deputatların da əksəriyyəti düşünür ki, İstanbul konvensiyası ölkədəki demoqrafik problemləri daha da artıracaq. Bu səbəbdən Latviyada Konvensiyanın 4-cü maddəsi ölkənin gələcəyi üçün təhlükə sayılır. Ən doğru yolu ondan çıxmaqda görürlər. Bu qərar Latviya üçün, sadəcə, hüquqi bir addım deyil, həm də ölkənin Avropa ilə əlaqələrinin xarakterini, gələcək sosial siyasətini və cəmiyyətin özünü necə dərk etdiyini müəyyənləşdirən strateji seçimdir. Bu müzakirə açıq şəkildə göstərir ki, Latviya cəmiyyəti dəyərlər və hüquqlar arasında tarazlıq axtarışındadır və bu axtarışın nəticəsi ölkənin gələcək istiqamətinə mühüm təsir göstərəcək. Amma bunu istəməyənlər də var.

O da maraqlıdır ki, bu müzakirənin əhəmiyyəti yalnız ölkə daxilindəki siyasi qüvvələrin toqquşması ilə məhdudlaşmır. Qərar beynəlxalq səviyyədə də ciddi narahatlıq yaradıb. Almaniya, Fransa, Böyük Britaniya, Danimarka və başqa ölkələrin diplomatları Latviya parlamentinə müraciət edərək, bu addımın Avropanın insan hüquqları standartlarından geri çəkilmə kimi dəyərləndiriləcəyini bildiriblər. Beynəlxalq insan hüquqları təşkilatları isə bu qərarın regionda avtoritar meyilləri gücləndirə, qadınların və qızların müdafiəsini zəifləd biləcəyini vurğulayırlar. Hazırkı mərhələdə qərarın taleyi Latviya Prezidenti Edqars Rinkeviçdən asılı olub. Prezidentin qanunu imzalamaq və ya Seymə geri qaytarmaq üçün 10 gün vaxtı vardı. Amma o, sənədi imzalamayıb və bunu belə əsaslandırıb: "Konvensiyanın tək bir Seym müddətində ratifikasiyası və ləğvi həm Latviya cəmiyyətinə, həm də beynəlxalq tərəfdaşlarına ölkənin beynəlxalq



öhdəliklərini vicdanla yerinə yetirmək istəyi ilə bağlı ziddiyyətli mesaj göndərir".

O vurğulayıb ki, əgər Latviya İstanbul Konvensiyasından çıxsa, beynəlxalq insan hüquqları müqaviləsindən çıxan ilk Aİ ölkəsi olacaq. Onu da qeyd edək ki, İstanbul Konvensiyasından çıxan ilk ölkə Türkiyə olub. Lakin Bolqarıstan, Macarıstan, Çexiya, Litva, Slovakiya və Ermənistan sənədi imzalasa da, onu ratifikasiya etməyib.

* * *

Avropa Şurasına üzv dövlətlər arasında Azərbaycan və Rusiya (2022-ci ildə qurumdan qovulub - red.) bu sənədi imzalamayıblar. Azərbaycanın konvensiyanı imzalamaması daxili ictimai rəy, ailə modelinin üstünlüyü və ailə institutuna verilən dəyərlə bağlıdır. **Hüquqşünas Samir Osmanlı** XQ-yə açıqlamasında bildirdi ki, insan hüquqlarının qorunması ilə bağlı bəzi beynəlxalq sənədlərin faydalı olduğu şübhəsizdir: "Lakin gender bərabərliyi ilə bağlı sənədlərin bir çox hallarda onları imzalayan ölkələrdə problemlər yaratdığı da faktdır. Bunun səbəbi belə sənədlərin bəzən dövlətlərin hüquq sisteminə müdaxilə etməsi, cinslərarası münasibətlərdə anlaşılmazlıqlar və narazılıqlar doğurmasıdır. Azərbaycanda hər bir vətəndaş qanun qarşısında bərabər hüquqlara malikdir və buna heç kim poza bilməz. Buna baxmayaraq, bəzi beynəlxalq sənədlər humanist görünüşlü olsa da, praktikada hüquq qarşısında bərabərliyi pozan vəziyyətlərə səbəb ola bilər.

Beləliklə, bəzi beynəlxalq sənədlər sanki cəmiyyətdə sosial narazılıq yaratmaq məqsədilə hazırlanmış kimi görünə bilər. Xüsusilə İstanbul Konvensiyasında gender və cinsi oriyentasiya məsələlərinə yer verilməsi Azərbaycanın milli-mənəvi və dini dəyərləri ilə uzlaşmır. Çünki bu, bəzi qrupların cəmiyyətdə pozuculuq fəaliyyətini təşviq edir".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 339** **Bakı şəhəri, 19 noyabr 2025-ci il**

**“Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 sentyabr tarixli 211 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 sentyabr tarixli 211 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 937 (Cild I) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - “Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6-cı hissədə “işləyənlər iş yerindən, işləməyənlər isə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumları və ya “DOST” mərkəzləri tərəfindən təmin edilirlər” sözləri “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı ilə təsdiq edilmiş “Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası”na əsasən təmin olunurlar” sözləri ilə əvəz edilsin.

**2.** 9-cu hissə aşağıdakı redaksiyada verilsin:

“9. “Geri qayıtma” talonu sanatoriya-kurort müəssisəsi tərəfindən aidiyyəti quruma təhvil verilməlidir. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinə və “DOST” mərkəzlərinə təhvil verilmiş “Geri qayıtma” talonunun 3 (üç) iş günü müddətində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Sanatoriya-kurort” altsistemi vasitəsilə qeydiyyatı aparılır və onun sanatoriya-kurort putyovkasından istifadəsini təsdiq edən sənəd kimi saxlanılması təmin edilir. İşləyən şəxslərə münasibətdə isə “Geri qayıtma” talonunun qeydiyyatının aparılması və onun saxlanılması məsələləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin 141-ci bəndinə uyğun təmin edilir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 341** **Bakı şəhəri, 19 noyabr 2025-ci il**

**“İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydalarının və Hərbi qulluqçuların və onların ailə üzvlərinin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ailələrindən başqa) sanatoriyalarda və istirahət evlərində sanatoriya-kurort müalicəsi, pansionatlarda və turist bazalarında istirahət üçün putyovkalarla (yollayışlarla) təmin olunması Qaydasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 128 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydalarının və Hərbi qulluqçuların və onların ailə üzvlərinin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ailələrindən başqa) sanatoriyalarda və istirahət evlərində sanatoriya-kurort müalicəsi, pansionatlarda və turist bazalarında istirahət üçün putyovkalarla (yollayışlarla) təmin olunması Qaydasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 128 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 539 (Cild I); 2024, № 9, maddə 1101) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adından və 1-ci hissədən “və ya 18 yaşınadək yeniyetmələrin” sözləri çıxarılsın.

**2.** Həmin Qərarla təsdiq edilmiş “İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydaları” üzrə:

2.1. adından “və ya 18 yaşınadək yeniyetmələrin” sözləri çıxarılsın;

2.2. 1-ci hissədən “və ya 18 yaşınadək yeniyetmələrin” sözləri çıxarılsın və həmin hissəyə “vətəndaşların” sözündən sonra “(bundan sonra – şəxslərin)” sözləri əlavə edilsin;

2.3. 3-cü hissə üzrə:

2.3.1. 3-cü hissə yeni redaksiyada verilsin və aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

“3. Bu Qaydalarda göstərilmiş şəxslər ildə bir dəfədən çox olmamaqla sanatoriya-kurort putyovkaları (yollayışları) ilə (işləyənlər - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin 135-ci bəndinə uyğun olaraq Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən işəgötürənlərə təqdim olunan putyovkalarla (yollayışlarla) iş yerindən, işləməyənlər - Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində Sosial Xidmətlər Agentliyinin (bundan sonra – Agentlik) yerli qurumları və “DOST” mərkəzləri tərəfindən) növbəlilik əsasında təmin olunurlar (tibb müəssisələrinin göndərişi ilə ölkə hüdudları daxilində, gediş-gəliş xərcləri daxil olmaqla).

3-1. Sanatoriya-kurort putyovkası (yollayışı) almaq üçün növbəyə götürülmüş 18 yaşınadək uşaqlar müşayiətçi ilə birlikdə sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunurlar. Müşayiətçi sanatoriya-kurort putyovkası (yollayışı) ilə uşağın sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunduğu aidiyyəti üzrə bu Qaydaların 3-cü hissəsində göstərilən qurum tərəfindən təmin olunur. Bu halda müşayiətçi qismində uşağın valideynləri, digər qanuni nümayəndələri (qəyyumları, övladlığa götürənləri, himayəçiləri) və valideynin icazəsi ilə etibarnamə verilmiş digər şəxslər müəyyən oluna bilərlər. Uşağın valideyninin, digər qanuni nümayəndələrinin və valideynin icazəsi ilə etibarnamə verilmiş digər şəxslərin Agentliyin yerli qurumlarına və “DOST” mərkəzlərinə yazılı və ya elektron müraciəti əsasında müşayiətçinin sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunduğu müddət ərzində bir dəfədən çox olmayaraq dəyişdirilməsinə yol verilir.”;

2.4. 5-7-ci hissələr ləğv edilsin;

2.5. 9-cu hissə üzrə:

2.5.1. 9-cu hissə yeni redaksiyada verilsin və aşağıdakı məzmunda 9-1 - 9-3-cü hissələr əlavə edilsin:

“9. Sanatoriya-kurort putyovkası (yollayışı) almaq hüququ olan şəxslər ərizələrini və sanatoriya-kurort kartasını bu Qaydaların 3-cü hissəsinə uyğun olaraq aidiyyəti üzrə sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunduqları quruma təqdim edirlər. Ərizə və sanatoriya-kurort kartası təqdim edildikdən sonra sanatoriya-kurort putyovkası (yollayışı) almaq hüququ olan və işləməyən şəxs 1 (bir) iş günü müddətində Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra – MEİS) “Sanatoriya-kurort” altsistemində növbəyə götürülür və bu barədə şəxsin, uşaqlara münasibətdə isə müşayiətçinin əlaqə vasitələrindən birinə 2 (iki) iş günü müddətində qısa məlumat göndərilir, eləcə də şəxsin Nazirliyin “e-sosial” internet portalındakı şəxsi kabinetində ətraflı məlumat əks olunur. İşləyən şəxslərə münasibətdə isə sanatoriya-kurort putyovkası (yollayışı) almağa dair məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin 141-ci bəndinə uyğun təmin edilir.

9-1. Növbə çatdıqda sanatoriya-kurort müəssisəsi və sanatoriya-kurort putyovkasının (yollayışının) vaxtı barədə işləməyən şəxsin, uşaqlara münasibətdə isə müşayiətçinin əlaqə vasitələrindən birinə sanatoriya-kurort müəssisəsinə getmə vaxtından ən azı 7 (yeddi) iş günü əvvəl Agentliyin yerli qurumu və ya “DOST” mərkəzi tərəfindən məlumat göndərilir və həmin şəxslər ən azı 3 (üç) iş günü əvvəl sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunurlar. Şəxs, uşaqlara münasibətdə isə müşayiətçi məlumatı aldıqdan sonra 3 (üç) iş günü müddətində sanatoriya-kurort müəssisəsinə gedib-getməyəcəyi barədə yazılı, şifahi və ya elektron formada Agentliyin yerli qurumunu və ya “DOST” mərkəzini məlumatlandırmalıdır.

9-2. Sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunması təsdiq edildikdən sonra həmin təqvim ili ərzində 2 (iki) dəfədən çox olmayaraq sanatoriya-kurort müəssisəsinə getməyəcəyi barədə Agentliyin yerli qurumunu və ya müvafiq “DOST” mərkəzini bu Qaydaların 9-1-ci hissəsində nəzərdə tutulan müddətdə məlumatlandırmadıqda və (və ya) təklif olunan sanatoriya-kurort putyovkasından (yollayışından) imtina etdikdə şəxs növbədən çıxarılır və işləməyən şəxsin, uşaqlara münasibətdə isə müşayiətçinin əlaqə vasitələrindən birinə bu barədə məlumat göndərilir.

9-3. Bu Qaydaların 9-2-ci hissəsinə əsasən növbədən çıxarılmış şəxs növbədən çıxarıldığı gündən 5 (beş) iş günü sonra yenidən növbəyə götürülmək üçün Agentliyin yerli qurumuna və ya “DOST” mərkəzinə müraciət edə bilər.”;

2.6. 10-cu və 12-ci hissələr yeni redaksiyada verilsin və aşağıdakı məzmunda 13-cü hissə əlavə edilsin:

“10. Sanatoriya-kurort putyovkası (yollayışı) almaq hüququ olan şəxsin sanatoriya-kurort müəssisəsinə qəbul olunduğu və həmin müəssisədən buraxıldığı tarix, habelə aparılmış müalicələrin nəticələri barədə məlumatları və “Geri qayıtma” talonu sanatoriya-kurort müəssisəsi tərəfindən 30 (otuz) gün müddətində aidiyyəti quruma təhvil verilməlidir. Agentliyin yerli qurumuna və “DOST” mərkəzlərinə təhvil verilmiş məlumatlar və “Geri qayıtma” talonunun 3 (üç) iş günü müddətində MEİS-in “Sanatoriya-kurort” altsistemi vasitəsilə qeydiyyatı aparılır və onun putyovkanın (yollayışın) istifadəsini təsdiq edən sənəd kimi saxlanılması təmin edilir.”

12. Sanatoriya-kurort putyovkalarının (yollayışlarının) uçotunun aparılması, onlara dair hesabatların təqdim edilməsi, habelə mühasibat uçotu sənədlərinin saxlanması qanunvericiliklə müəyyən edilmiş qaydada təmin edilir.”.

“13. Bu Qaydaların tətbiqi zamanı yaranan mübahisələr inzibati və ya məhkəmə qaydasında həll edilir.”.

2.7. 11-ci hissəyə “putyovkası” sözündən sonra “(yollayışı)” sözü əlavə edilsin.

**3.** Həmin Qərarla təsdiq edilmiş “Hərbi qulluqçuların və onların ailə üzvlərinin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ailələrindən başqa) sanatoriyalarda və istirahət evlərində sanatoriya-kurort müalicəsi, pansionatlarda və turist bazalarında istirahət üçün putyovkalarla (yollayışlarla) təmin olunması Qaydası” üzrə:

3.1. 2-ci, 4-7-ci hissələrə ismin müvafiq hallarında “putyovka” sözündən sonra ismin müvafiq hallarında “(yollayış)” sözü əlavə edilsin;

3.2. 3-cü hissəyə “həyata keçirilir” sözlərindən sonra “və putyovkalarla (yollayışlarla) sonuncu xidmət keçdikləri orqan tərəfindən təmin olunurlar” sözləri əlavə edilsin;

3.3. 8-ci hissə aşağıdakı redaksiyada verilsin:

“8. “Putyovkaların (yollayışların) uçotunun aparılması, onlara dair hesabatların təqdim edilməsi, habelə mühasibat uçotu sənədlərinin saxlanılması qanunvericiliklə müəyyən olunmuş qaydada təmin edilir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Azərbaycan və Amerika Birləşmiş Ştatları (ABŞ) Zəngəzur dəhlizi ilə bağlı iki ölkə arasında əməkdaşlıq məsələlərini müzakirə edib. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, ABŞ-ın müvəqqəti işlər vəkili Emi Karlon və ABŞ Dövlət Departamentinin Siyasətin Planlaşdırılması Ofisinin baş müşaviri Conatan Askonas ilə görüş keçirildi. Orta Dəhlizin inkişafı üçün Azərbaycan tərəfindən görülmüş işlər barədə məlumat verildi. Eyni zamanda kibertəhlükəsizlik və süni intellekt sahələri üzrə tərəfdaşlığa dair fikir mübadiləsi aparıldı.**

# Vaşinqtonun Zəngəzur dəhlizi missiyası

## *TRİPP marşrutu regionun tranzit arxitekturasını dəyişəcək*




Qeyd edək ki, avqustun 8-də Vaşinqtonda Azərbaycan və ABŞ prezidentlərinin, Ermənistanın Baş nazirinin imzaladığı sənəd çərçivəsində razılaşdırılan TRİPP marşrutu Azərbaycanı Ermənistan ərazisi üzərindən Naxçıvan MR ilə birbaşa birləşdirəcək. Beləliklə, Cənubi Qafqaz Orta Dəhliz (Avrasiya–Xəzər–Qara dəniz şəbəkəsi) çərçivəsində birləşərək, Azərbaycanı Türkiyə və ümumilikdə Avropa ilə əlaqələndirir. TRİPP marşrutu çərçivəsində və onun Azərbaycan hissəsində yol və dəmir yolu xətləri tikilir (məsələn, Ələt–Osmanlı–Horadiz–Ağbənd dəmiryolu layihəsi). Yeni avtoban və dəmiryolu vasitəsilə həm yük daşıma, həm də enerji/telekommunikasiya xətləri üçün qabiliyyət artacaq. Bu marşrutun işə düşməsi Azərbaycanın coğrafi mövqeyini “logistika qovşağı”na çevirə, ölkəni tranzit axınlarının qovşağına çevirmək potensialındadır.

TRİPP marşrutunun açılması Azərbaycan iqtisadiyyatına bir neçə istiqamətdə müsbət təsir edəcək. Əvvəla, tranzit imkanları artacaq. TRİPP-in Orta Dəhlizə inteqrasiyası ildə 35 milyon tona qədər yüklərin daşımasına imkan verəcək. Beləliklə, tranzit gəlirləri artacaq, nəqliyyat-logistika sektorunda əlavə gəlir mənbələri formalaşacaq. Yol və dəmiryolu infrastrukturlarına çəkilən investisiyaların artımı tikinti materiallarına, nəqliyyat və xidmətlər sektoruna tələbatı yüksəldəcək, bu da daxili əlavə dəyəri artıracaq və iqtisadiyyatın müxtəlif sahələrinə sərmayə axınını canlandıracaq.

Lahiyədə ABŞ-ın rol alması onun investisiya cəlbediciliyini artırır. Kredit cəlb edilməsinə, özəl tərəfdaşların fəallaşmasına və enerji nəqli zəncirlərində xarici iştirakın genişlənməsinə şərait yaradır. Məsələn, Atlantik Şurasının analitiki R.Autzen bildirir ki, TRİPP sazişi təkcə siyasi deyil, böyük kommersiya potensialına malikdir və ona 10-dan çox ölkə maraq göstərir. Bunun nəticəsi kimi Azərbaycanda neft-qaz asılılığının azalması, iqtisadiyyatda logistika, xidmət və innovativ sektorların güclənməsi gözlənilir. ABŞ-ın dəstəyi ilə Azərbaycan tranzit və logistika mərkəzi kimi formalaşmaqda maraqlıdır və bu, ölkəni yeni sahələrə – konteyner terminalı, anbar klasterləri, əlavə emal zonasına yönəldəcək imkanlar yaradır.

TRİPP marşrutu regional ticarət coğrafiyasını xeyli dəyişəcək. Azərbaycan, Türkiyə və Orta Asiya ölkələri (xüsusilə Qazaxıstan, Özbəkistan, Qırğızıstan) arasında Yaxın Şərq və Avropaya çıxış daha qısa və etibarlı olacaq. Zəngəzur dəhlizinin Cənubi Qafqaz–Mərkəzi Asiya–Çin–Türkiyə xəritəsində rolu böyükdür və yeni nəqliyyat əlaqələri 2030-cu ilə qədər ildə 100 milyard dollar səviyyəsində ticarət dövriyyəsi yaradacaq. İlk test yüklər (məsələn, Qazaxıstan taxılı) Azərbaycandan Ermənistana yük tranzitinin açıldığını göstərdi və bu, bütün regionun maraqlarını qarşılayan yeni logistika dəhlizidir. Bununla yanaşı, Zəngəzur dəhlizi Türkiyənin şərq vilayətlərini mərkəzləşdirməklə yanaşı, Mərkəzi Asiya və Afrikaya ticarət üçün Aralıq dənizi üzərindən qısa yol açır. Beləliklə, region ölkələrinin bir-biri ilə əlaqəsi dərinləşəcək, Ermənistan–Türkiyə əlaqələrinin normallaşması üçün zəmin yaranacaq, Azərbaycan isə Şərq–Qərb tranzitinin təmərküzləşdiyi məntəqəyə çevriləcək.

Vaşinqtonun təşəbbüsü olan TRİPP layihəsi ABŞ və Qərb üçün də strateji əhəmiyyətə malikdir. 8 avqust razılaşmaları (o cümlədən TRİPP) ABŞ və Yerevan ilə Bakı arasında yeni investisiya çərçivəsini yaratmaq üçün platformadır. Tramp marşrutunun Orta Dəhlizlə inteqrasiyası Qərb üçün Mərkəzi Asiya ilə Avropa bazarları arasında birbaşa əlaqə deməkdir və bunun enerji, texnologiya və logistika sahəsində əməkdaşlığı genişləndirməsi gözlənilir. Həmçinin Azərbaycanda liberal iqtisadi mühitin genişlənməsinə, gömrük prosedurlarının sadələşdirilməsinə və investor etimadının bərpasına təkan verilir. Nəticədə, Cənubi Qafqaz və Orta Asiya ölkələrinin Avropa bazarlarına çıxış imkanları genişlənəcək, ABŞ isə regionda sabitliyə və açıq iqtisadiyə xidmət edən fəaliyyətə dəstək vermiş olacaq.

ABŞ-ın fəal iştirakı nəticəsində TRİPP-ə qarşı xarici maneələrin aradan qalxdığını və regionun ticarət əlaqələrinin genişlənəcəyini vurğulayır. Qazaxıstanlı ekspert A.Toyekin hesab edir ki, yeni tranzit axınları (hətta Ermənistana çatdırılan Qazaxıstan taxılı) region ölkələri üçün qarşılıqlı fayda yaradır. Pakistanlı politoloq M.Asif Nur “CİPEC–TRİPP” inteqrasiyasının 2030-cu ilə qədər 100 mlrd. dollardan çox ticarət həcmi yaradacağını və logistik mərkəz rolunu gücləndirəcəyini bildirir. Türkiyəli ekspert B.Erandaçın deyir ki, Zəngəzur dəhlizi Türkiyənin enerji və nəqliyyat mövqeyini möhkəmləndirəcək, yeni marşrutun reallaşması ilə Türkiyənin iqtisadi görünüşü 2030-cu illərə qədər köklü şəkildə dəyişəcək. Amerika təhlilçiləri isə dəhlizin regionun ticarət xəritəsini dəyişdirəcəyini qeyd edir: İ.Çukermanın fikrincə, Bakı koordinasiyalı inkişafa can atdığından Azərbaycanın tranzit operatoru rolu güclənəcək, sənaye və kənd təsərrüfatı istehsalçıları üçün yeni ixrac bazarları açılacaq. Həmçinin ABŞ siyasətçiləri (hər iki partiyadan) qeyd edirlər ki, Cənubi Qafqazda investisiya, azad ticarət və rəqabət şəraiti yaratmaq bu yol vasitəsilə asanlaşır.

Azərbaycan hökuməti bu layihəni prioritet hesab edir. Məqsəd ölkənin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz əlaqə yaratmaq, regionda kommunikasiya xətlərini genişləndirməkdir. İşğaldan azad edilmiş ərazilərdə (Cəbrayıl–Zəngilan–Ağbənd) inşa edilən yol dəmiryoluna paralel hərəkət edəcək, bu da layihənin Azərbaycanın nəqliyyat infrastrukturuna inteqrasiyasını asanlaşdırır. Eyni zamanda, Bakı qonşu İranın maraqlarını nəzərə alaraq “Şərqi Araz” alternativ dəhlizini də qurur – İranla bağlanan 2 avtomobil və 2 dəmir yolu körpüsünün tikintisi planlaşdırılır. Bu, milli strategiyaya uyğun olaraq alternativ marşrutların yaradılmasına xidmət edir. Rəsmi dairələr bildirir ki, TRİPP-ə 99 illik icarə əsasında ABŞ-ın cəlb edilməsi geopolitik təhlükəsizlik baxımından da ölkəmizə faydalıdır. Azərbaycan üçün ən böyük prioritet dayanıqlı sülhün təmin edilməsi və iqtisadi fayda gətirən regional əməkdaşlıqdır. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, nəqliyyat-logistika layihələri ölkənin iqtisadi diversifikasiyasına və regional inteqrasiyaya xidmət etməlidir. TRİPP marşrutu da bu məqsədlə uyğundur. O, tranzit axınları ilə yanaşı, Azərbaycanı nəqliyyat habına çevirərək yerli sərmayələr üçün əlavə imkanlar yaradacaq, dövlət büdcəsinin gəlirlərini şaxələndirir.

Xatırladaq ki, hazırda ölkəmizdə fəaliyyət göstərən Amerika mənşəli 300-dən artıq şirkət Azərbaycan iqtisadiyyatına ümumilikdə 16 milyard ABŞ dollarından çox sərmayə yönəldib.

Azərbaycan ilə ABŞ arasında qurulmuş münasibətlər həm regionda, həm də beynəlxalq səviyyədə əhəmiyyətli strateji tərəfdaşlıq səviyyəsinə çatıb. Bu əməkdaşlıq çərçivəsində energetika təhlükəsizliyindən başlayaraq süni intellekt texnologiyalarına, hərbi-sənaye sahəsindən ticarət mübadiləsinə qədər müxtəlif prioritet sahələr üzrə tərəfdaşlıq əlaqələri inkişaf etdirilir. Son illərdə bu iki ölkə arasında iqtisadi münasibətlərin daha da genişlənməsi, yüksək texnologiyaların ölkəmizə gətirilməsi, enerji sahəsində yeni layihələrin reallaşdırılması və müdafiə sahəsində əlaqələrin möhkəmlənməsi bu tərəfdaşlığın dərinləşməsinin göstəricisidir. Təqdirəlayiq haldır ki, ABŞ-a məxsus yüzlərlə şirkət hazırda Azərbaycanda uğurla fəaliyyət göstərir və bu şirkətlərin ölkə iqtisadiyyatına qoyduğu sərmayənin ümumi həcmi artıq 16 milyard dolları ötüb. Qeyd edilməlidir ki, Azərbaycan və ABŞ arasında ticarət münasibətləri də diqqətəlayiq dərəcədə inkişaf edib. Bu proses özünü xüsusilə iqtisadi əlaqələrdə müşahidə olunan artım və dinamizm ilə göstərir. Məsələn, Dövlət Gömrük Komitəsinin 2024-cü il üzrə məlumatına əsasən, iki ölkə arasındakı ticarət dövriyyəsi 1,4 milyard dollar təşkil edib ki, bu da əvvəlki illə müqayisədə təqribən 12 faizlik artıma bərabərdir.

***Nurlə ABDALOV***
***XQ***

# Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva Lənkəranda

## Ekoloji aksiyalar







**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva Lənkərana səfər çərçivəsində bir sıra ekoloji aksiyalarda iştirak ediblər.**

Əvvəlcə IDEA İctimai Birliyi tərəfindən Lənkəran rayonunda meşə ərazisində "Yaşıl Marafon" çərçivəsində ağacəkmə aksiyası təşkil olunub. Könüllülərin iştirakı ilə həyata keçirilən aksiyada 1350 ədəd Eldar şamı tingi əkilib.

Qeyd edək ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika Yaşıllaşdırma Marafonu"nun ("Yaşıl Marafon") əsas məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir. "Yaşıl Marafon" çərçivəsində 2025-ci ilin payız və 2026-cı ilin yaz əkin mövsümləri ərzində ölkə üzrə 2 milyona yaxın ağacın əkilməsi nəzərdə tutulur.

Daha sonra Hirkan Milli Parkının ərazisinə biomüxtəlifliyin zənginləşdirilməsi məqsədilə heyvanların təbiətə buraxılması aksiyası təşkil olunub. Aksiya çərçivəsində 2 yenot, 2 tülkü və 4 tirəndaz təbii mühitə buraxılıb. Yenotların bir müddət əvvəl IDEA İctimai Birliyinin təşəbbüsü və aidiyyəti qurumların iştirakı ilə aparılan birgə yoxlama nəticəsində iaşə obyektlərində qanunsuz saxlanılması aşkarlanmış və xilas edilmişdilər. Həmin yenotlar 4 ay müddətində Bakı Zooloji Parkında müalicə və reabilitasiya olunaraq tam sağaldıqdan sonra təbiətə qaytarılıb.

Təbiətə qaytarılan tülkülər isə vətəndaşlar tərəfindən yaralı halda aşkarlanaraq Bakı Zooloji Parkına təhvil verilmişdi. Onlar Zooloji Parkda bir il müddətində klinik şəraitdə müayinə və müalicə olunub, reabilitasiya prosesi uğurla başa çatdıqdan sonra təbii mühitə buraxılıb.

Aksiyada təbiətə buraxılan tirəndazlar vaxtilə Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş növlərdən olub.



Qeyd edək ki, sözügedən ekoloji aksiyalar IDEA İctimai Birliyi tərəfindən Azərbaycanda ətraf mühitin mühafizəsi və biomüxtəlifliyin qorunması istiqamətində mütəmadi olaraq görülən işlərin tərkib hissəsidir.

*XQ*

## ANİMAFİLM festivalı









**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Alena Əliyeva Lənkəranda bir sıra tədbirlərdə iştirak ediblər.**



Səfər çərçivəsində əvvəlcə Leyla Əliyeva və Alena Əliyeva Lənkəran Şəhər Mədəniyyət Mərkəzində Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə keçirilən "ANİMAFİLM Lənkəranda" animasiya filmləri festivalında iştirak ediblər. Festivalda "Tarix", "Həmişəyaşıl", "Narqız", "Pulun dili", "Soyuz Qraviton", "Yer və Ay" və "Bum-bum" filmləri nümayiş olunub.

Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev bildirib ki, ilk dəfə geniş auditoriya qarşısında təqdim edilən "Bum-bum" filmi görkəmli Azərbaycan yazarı, Xalq şairi Vaqif Səmədoğlunun eyniadlı poemasının motivləri əsasında hazırlanıb, "Yer və Ay" qısametrajlı animasiya filmi isə Azərbaycan və Özbəkistan animasiya ustalarının birgə istehsalıdır. Nümayişdə iştirak edən Lənkəran rayonunun məktəbəqədər təhsil müəssisələrində çalışan müəllimlər və təhsil alan şagirdlər animasiya filmlərini böyük maraq və müsbət əhvali-ruhiyyə ilə izləyiblər.

Qeyd edək ki, uşaqlara, onların təhsili və inkişafına xüsusi diqqəti ilə seçilən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən bu tədbir Azərbaycan animasiya sənətinin azyaşlılar arasında təbliği baxımından böyük əhəmiyyət daşıyır.

*XQ*

# Heydər Əliyev Fondu Lənkəranda uşaq evini əsaslı yenidən qurub







**Lənkəran şəhər Osman Mirzəyev adına 5 saylı uşaq evi sosial xidmət müəssisəsinin yerləşdiyi bina Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilib. Noyabrın 21-də uşaq evinin binasının təmirdən sonra açılışı olub. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alena Əliyeva iştirak ediblər.**

Bildirilib ki, Lənkəranda 1941-ci ildən fəaliyyət göstərən 5 saylı uşaq evi sosial xidmət müəssisəsinin binası ötən müddət ərzində köhnəldiyindən istifadəyə yararsız vəziyyətə düşmüşdü. 2024-cü ildə uşaq evi sosial xidmət müəssisəsinin binasının əsaslı təmir işlərinə başlanılıb.

Bina 1 və 2 mərtəbəli 5 korpusdan ibarətdir. Sosial xidmət müəssisəsində kiçik və böyük yaş qrupları üzrə 120 uşaq yerləşib. Binada sinif, informatika, tikiş və xalçaçılıq, rəqs və musiqi otaqları, emalatxana yaradılıb. Sosial xidmət müəssisəsi zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri əyani vəsaitlərlə təchiz edilib.

Burada istirahət və tibb otaqları, qarderob, kitabxana, oxu zalı, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası yaradılıb.

*XQ*






# Leyla Əliyeva Lənkəran internat məktəbində







**Noyabrın 21-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alena Əliyeva Lənkəran şəhəri Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbində olublar.**

Əvvəlcə məktəbin şagird və müəllimləri ilə birlikdə tarixi Zəfərin 5 illiyinə həsr olunmuş əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Sonra sinif otaqlarında, məşğələ və istirahət otağında uşaqların asudə vaxtının səmərəli təşkili prosesləri izlənilib.

Qeyd edək ki, regional xarakter daşıyan və cənub bölgəsində yeganə olan Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbində autizm və Daun sindromlu, o cümlədən əqli inkişafdan geri qalan uşaqların mütəxəssislər tərəfindən həm təhsil almaları, həm də reabilitasiya prosesi təmin edilir. Həmin uşaqların məktəbdə qalması üçün də şərait yaradılıb ki, 34 uşaq bu imkandan yararlanır.

# Astarada Pəncəli Teymurovun ailəsini ziyarət









**Noyabrın 21-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva Astarada Azərbaycanın Milli Qəhrəmanı Pəncəli Teymurovun ailəsini ziyarət ediblər.**

Görüş zamanı Aprel döyüşlərində şəhid olmuş Pəncəli Teymurovun xatirəsi ehtiramla yad edilib, onun Vətən uğrunda xidmətləri, hərbçi kimi yüksək peşəkarlıq, şücaət və mərdlik göstərməsi barədə danışılıb.

Daha sonra Leyla Əliyeva və Arzu Əliyeva şəhidin xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılan ev-muzeyinə baxış keçiriblər.

Qeyd edək ki, Xüsusi Təyinatlı Qüvvələrin mənsubu, "Qoca" ləqəbli əfsanəvi kəşfiyyatçı Pəncəli Nurməhəmməd oğlu Teymurov 1981-ci il martın 24-də Astara rayonunun Əzərüd kəndində anadan olub. Hərbi xidmətdən sonra 1999-cu ildən Xüsusi Təyinatlı Qüvvələr yarandığı ildən onun sıralarında xidmətini davam etdirən Pəncəli 17 il Vətənin keşiyində şərəflə dayanıb. Gizir Pəncəli Teymurov 2016-cı il Aprel döyüşləri zamanı arzuladığı zirvəyə - şəhidlik məqamına ucalıb.

Nümunəvi xidməti ilə sağlığında bir çox medallara və mükafatlara layiq görülən Pəncəli Teymurov ölümündən sonra 2016-cı ildə "Vətən uğrunda" medalı ilə təltif olunub. Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin 2025-ci il noyabrın 7-də imzaladığı Sərəncamla Pəncəli Teymurova Azərbaycanın Milli Qəhrəmanı adı verilib.

*XQ*

# Bakıda Regional Akselerasiya Mərkəzi

**İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) ilə BTİ arasında strateji əməkdaşlıq çərçivəsində Bakıda Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Regional Akselerasiya Mərkəzi yaradılıb.**

Açılış mərasimində rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, BTİ-nin baş katibi Dorin Boqdan-Martin, təşkilatın rəsmiləri və müxtəlif yerli-beynəlxalq qurumların nümayəndələri iştirak ediblər. Bildirilib ki, MDB məkanında ilk olan bu mərkəz startapları, biznesləri, dövlət və təhsil qurumlarını bir araya gətirərək innovativ sahibkarlığın inkişafını və regional rəqəmsal transformasiyanın sürətlənməsini hədəfləyir. Mərkəz BTİ-nin "Rəqəmsal İnkişaf üçün İnnovasiya və Sahibkarlıq Alyansı"na daxil olan 17 qlobal akselerasiya mərkəzindən biridir və dövlət–özəl sektor əməkdaşlığını gücləndirməyə xidmət edir.



Mərkəzin fəaliyyəti Azərbaycanın milli prioritetlərini BTİ-nin qlobal missiyası ilə uzlaşdıraraq ölkənin regional innovasiya liderliyini möhkəmləndirəcək. İRİA-nın sədri Fərid Osmanov bildirib ki, mərkəz Azərbaycan və region startapları üçün qovşaq rolunu oynayacaq və BTİ standartlarına əsaslanan akselerasiya proqramları onların qlobal bazarlara çıxışını sürətləndirəcək.

Regional Akselerasiya Mərkəzi Azərbaycan İnnovasiya Mərkəzinin binasında yerləşir və burada tədbir, təlim və kovörkinq üçün müasir infrastruktur mövcuddur.

*XQ*

# Zəngilanlılar torpağa da can verirlər

**Zəngilan rayonu Ağalı kəndi üzrə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi Prezident İlham Əliyevin 2024-cü il 27 noyabr tarixli Fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi Qaydaları"na əsasən həyata keçirilir.**



Kənddə tarixən birillik və çoxillik bitkilərdən - şaftalı, nektarin, ərik, nar, xurma, çiyələk, qarağat, pomidor, xiyar, badımcan, bibər, soğan, tərəvəz lobyası, mətbəx çuğunduru, kök, kələm, qarpız, yemiş, soya, noxud, mərcimək, kartof, üzüm (süfrə), tütün, şəkər çuğunduru, buğda, arpa, qarğıdalı, yem üçün yonca, xaşa, ot qarışıqları əkilirdi. İndi isə əkin sahələrində müasir damlama və çiləmə suvarma sistemi tətbiq olunur. Yayı isti, qışı mülayim olan rayonda otlaq sahələrinin geniş olmasına görə həm iribuynuzlu, həm də xırdabuynuzlu heyvandarlıq inkişaf etdirilmişdi.

1988-ci ilin statistik məlumatlarına əsasən, rayonun cəmi əkin sahəsi 6 min 726 hektar olmuş və 26 min 375 ton fərqli məhsul istehsal edilmişdir. Əmək, torpaq, iqlim və su resursları ilə indiki vaxtda bu istehsaldan dəfələrlə çox məhsul istehsal etmək mümkündür.

**Zəngilan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Möhübbət Səmədov bildirdi:**

– Rayonda kənd təsərrüfatının inkişafı üçün tətbiq edilən yeni yanaşma ilə məhsul bol olacaq. Çünki strateji cəhətdən böyük əhəmiyyət kəsb edən bir mövqedə yerləşən rayon füsunkar təbiəti, böyük iqtisadi potensialı ilə seçilir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində 29 oktyabr 1993-cü ildən düşmən əsarətində olan rayonun 20 oktyabr 2020-ci ildə işğaldan azad edilməsindən dərhal sonra həmin torpaqlarda quruculuq işlərinə başlanıldı. Respublikamızda ilk "Ağıllı kənd"in təməli Zəngilan rayonunda qoyuldu və inşası qısa vaxt ərzində başa çatdırıldı. Bu gün burada aqrar sahəni inkişaf etdirmək üçün fermerlər tərəfindən mühüm işlər görülür.

**Müharibə veteranı olan kənd sakini fermer Etibar Hüseynov torpaqlarımızın azadlığı uğrunda ağır döyüşlərdə iştirak edib:**

– Köçkün həyatı yaşadığımız Şəkidə məskunlaşan kimi heyvandarlıqla məşğul olmuşam və 10 ildən çox bu sahədə böyük təcrübə toplamışam. Şükürlər olsun ki, "Ağıllı kənd" layihəsi əsasında tikilən yurdumuza qayıtdıqdan sonra torpağın dirçəldilməsi üçün də var qüvvəmlə işləmək istəyirdim. Dövlət başçısının tapşırığa əsasən bu layihənin həyata keçirilməsi məni bir daha sevindirdi və ilkin müraciət edənlərdən biri oldum. Məqsədim rayonumuzun tarixi ənənəsinə uyğun olaraq bu ərazidə əsasən heyvandarlığı inkişaf etdirməkdir. Hazırda rəhbərlik etdiyim "Bərəkətli torpaq" kooperativi iribuynuzlu mal-qara ilə yanaşı, 80 baş qoyun-keçi də saxlayır. Məqsəd ölkəmizin ərzaq təhlükəsizliyinə bir fermer olaraq öz töhfəmizi verməkdir.



**"Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsdə inzibati işlər şöbəsinin baş mütəxəssisi işləyən ictimai fəal Minayə Mahmudova asudə vaxtlarında rəhbəri olduğu "Barış" kooperativini inkişaf etdirmək üçün əzmlə çalışır:**



– Məqsədim kəndimizin tarixi ənənəsini yaşatmaqla bitkiçiliyi yenidən dirçəltməkdir. Kəndimizə qayıdan kimi ailəmizin tələbatını ödəmək üçün xeyli göyərti və tərəvəz əkdim və ilbəil faydasını görməyə başladım. Torpaqlarımızın zənginliyini yetişdirdiyim məhsullar bir daha əyani surətdə təsdiqlədi. Çəkisi 18-20 kiloqram olan qarpızın dadından doymaq olmurdu. Tərəvəz və meyvələr də çox dadlı və ləzzətli idi. Buna görə də təsərrüfat qurmaq qərarına gəldim. Çünki rayonumuzun bərəkətli torpağında, saf suyunda və təmiz havasında dadlı meyvələrin olduğunu bilirdim.



Dövlət tərəfindən verilən toxumları və şitilləri əkib-becərəcəyik. İlkin olaraq kənd sakinləri ilə birlikdə 10 hektarda arpa əkməyi nəzərdə tutmuşuq. Hazırda sahə əkin üçün yararlı vəziyyətə salınıb, şumlanıb və malalanıb. İndiyə qədər heç bir zərərverici olmadığına görə onlara qarşı dərmanlardan istifadə etməmişik. Yaxın günlərdə yüksək sertifikatı olan toxumun əkininə başlayacağıq. Təcrübəmdən bilirəm ki, aqrotexniki qaydalara əməl etməklə respublika üzrə rekord səviyyədə məhsul toplaya biləcəyik. Növbəti ildən isə təsərrüfatın bir hissəsində meyvə ağacları əkməyi və məhsullarını yerli bazarla yanaşı, beynəlxalq bazarda da satmağı nəzərdə tutmuşuq.

**"Zəfər" kooperativinin sədri Mübariz Fərhadov isə söylədi:**

– Taxıl sahəsini göstərərək: "Görürsünüz necə çıxış alınıb, ürəyimiz açılır. Dostlarla birlikdə 16 hektarda əkin aparmışıq və bol məhsul toplayacağımızı böyük bir səbirsizliklə gözləyirik. Sevindirici haldır ki, elə indicə kənd təsərrüfatı naziri Ceyhun Məmmədov da olmaqla Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının üzvləri rayonun Ağalı kəndinin sakinləri üçün parselləşmə aparılmış kənd təsərrüfatı təyinatlı ərazilərə baxış keçirdilər. Onlar bizim sahədə də oldular və razılıqlarını bildirdilər.

Yeniyetmə vaxtlarında təsərrüfatda çalışmağım hədər getməyib. Azərbaycan Dövlət Aqrar Universitetini bitirdikdən sonra azad olunan torpaqlarımızda çalışmaq arzusunda idim, şükürlər olsun ki, bu arzuma çatdım və 10 nəfərlə sahələrimizi birləşdirərək taxıl əkmişik.

Fermerlər qeyd etdilər ki, dünyada qida təhlükəsizliyi ilə bağlı problemin olduğu indiki bir vaxtda aqrar sahəni daim inkişaf etdirməyə çalışacağıq. Məhsul bol olarsa, xalqımızın həyat tərzi yüksələr və onu xaricdən baha almarıq.

*Mikayıl NƏRİMANOĞLU,*
*XQ-nin bölgə müxbiri*

**Zəngilan**

# Çoxmərtəbəli bina sakinlərinin “torpaq vergisi”

## *Aktual mövzuya hüquqi və sosial-iqtisadi yanaşma*

**Azərbaycan iqtisadiyyatında vergi siyasətinin məqsədi yalnız büdcə daxilolmalarını təmin etmək deyil, həm də sosial ədalətlilik, iqtisadi tarazlıq və resurslardan səmərəli istifadənin təşviq edilməsidir. Bu baxımdan çoxmərtəbəli yaşayış binalarının torpaq vergisinə cəlb olunması məsələsi zaman-zaman gündəmə gələn, lakin hələ də cəmiyyət üçün kifayət qədər önəm daşıyan mövzulardan biridir.**

Müzakirələrin mahiyyəti bir neçə sualı əhatə edir: çoxmərtəbəli binalarda torpaq vergisini hansı qurum toplamalıdır, mənzillərin vergi yükü necə müəyyən olunmalıdır və mərtəbələr arasında fərqin nəzərə alınması nə dərəcədə əsaslıdır? Bu yazıda həmin məsələlərin hüquqi-normativ əsaslar, iqtisadi mexanizmlər və beynəlxalq təcrübə baxımından təhlili önə çəkilir və bu zaman, ilk növbədə, torpaq vergisinin mahiyyəti, eləcə də çoxmərtəbəli binalardakı mövcud vəziyyət nəzərdən keçirilir.

Torpaq vergisi Vergi Məcəlləsinin 198–206-cı maddələri ilə tənzimlənir və adətən, torpaqdan istifadə hüququna malik olan fiziki və hüquqi şəxslər tərəfindən ödənilir. Lakin çoxmərtəbəli yaşayış binalarında torpaq üzərində mülkiyyətin kollektiv forması mövcuddur: binanın altındakı və ətrafındakı torpaq sahəsi sakinlərin şərikli mülkiyyəti sayılır. Hazırda torpaq vergisi, əsasən, fərdi həyət evlərinə, torpaq sahiblərinə tətbiq olunur; çoxmərtəbəli binalarda isə verginin hesablanması və toplanması ilə bağlı mexanizmin gerçəkləşməsində müəyyən çətinliklər nəzərə çarpır. Bunun səbəbi isə həm hüquqi boşluqların mövcudluğu, həm də institusional mexanizmin formalaşmaması ilə bağlıdır.

### Vergini kim toplamalıdır?

Bir qrup ekspert bu suala cavabında ən səmərəli mexanizm kimi torpaq vergisinin toplanması funksiyasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə həvalə edilməsində görür. Bunun bir neçə səbəbi var. Birincisi, Dövlət Vergi Xidməti əmlak vergisi üzrə də məlumat bazasına malikdir və torpaq vergisinin hesablanması üçün lazım olan məlumata rahat inteqrasiya edə bilir. Eyni zamanda, bu qurumun inzibati resursları və rəqəmsal infrastrukturu mövcuddur. Rəqəmsal kadastr məlumatları ilə inteqrasiya Vergi Xidmətinə daha dəqiq və şəffaf hesablama imkanı verir.

Digər ekspert qrupu isə torpaq vergisinin bələdiyyələr tərəfindən toplanılmasının tərəfdarıdır. Belə ki, mövcud qanunvericilikdə torpaq vergisi, əsasən, yerli vergilər kateqoriyasına daxildir və bu verginin toplanması bələdiyyələrin səlahiyyətinə aid edilir. Bu səbəbdən alternativ yanaşma kimi çoxmərtəbəli binalar üzrə torpaq vergisinin də bələdiyyələr tərəfindən yığılması zəruri sayılır.

Lakin bu variantın zəif tərəflərinin olduğu bildirilir. Səbəb kimi isə bələdiyyələrin müasir kadastr məlumatlarına çıxışının məhdudluğu göstərilir. Çünki hesablama metodikasına güclü təhlili baza tələb olunur. Şəffaflıq və resurs çatışmazlığı üzündən bələdiyyələrin bu yükü daşımağa tam hazır olmadığı bildirilir.

Torpaq vergisini hansı qurum toplamalıdır? – sualına üçüncü ekspert qrupu isə ən səmərəli variant hesab edilən qarışıq modeli önə çəkir. Belə ki, daha məqbul sayılan bu modelin tətbiqi zamanı Dövlət Vergi Xidməti hesablama və vahid məlumat bazasını, bələdiyyələr isə yığım, monitorinq və yerli ehtiyaclara yönləndirməni gerçəkləşdirir. Bununla da həm texniki dəqiqlik, həm də yerli idarəetmə prinsipləri qorunur.

Bəs, çoxmərtəbəli binaların torpaq vergisinin toplanılması prosesində mənzillərin vergi yükü necə müəyyənləşdirilməlidir? Ekspertlər bildirirlər ki, çoxmərtəbəli binalarda torpaq vergisinin hesablanması fərdi evlərlə müqayisədə daha mürəkkəbdir. Çünki torpaq sahəsi bütün sakinlərin şərikli mülkiyyəti hesab edilir. Bu baxımdan verginin bölüşdürülməsi üçün bir neçə modellər mövcuddur:

*a) Ən geniş yayılmış beynəlxalq təcrübəyə görə, torpaq vergisi mənzilin ümumi sahəsinə proporsional olaraq hesablanır. Məsələn, binanın torpaq sahəsinə görə illik vergi 10 min manatdırsa, mənzil sahəsi 100 kvadratmetr, bütün binanın ümumi sahəsi isə 10 min kvadratmetrdirsə, mənzil sahibi 100/10 min = 1 faiz paya sahib olur. Bu model obyektiv və istifadə üçün ən sadə yanaşmadır.*

*b) Alternativ olaraq, mənzilin istismar pasportunda göstərilən mülkiyyət payı (ümumi sahədəki pay) əsas götürülə bilər. Bu, çoxmərtəbəli binaların idarə olunması ilə bağlı mülki qanunvericilikdə olan yanaşmaya daha uyğundur.*

*c) Kommersiya obyektlərinin – mağazalar, ofislər və xidmət məkanlarının vergi payının daha yüksək olması təklif olunur. Bu yanaşma sosial ədalətlilik baxımından daha məqbul sayılır.*

Bəs, torpaq vergisinin müəyyənləşdirilməsi zamanı mərtəbələr arasındakı fərq nəzərə alınmalıdırmı? Bu sual ən çox müzakirə olunan məqamdır. Bir çox ölkələrdə mərtəbə amili torpaq vergisinin hesablanmasında nəzərə alınmır. Çünki torpaqdan istifadə hüququ hüquqi baxımdan bütün binanın sakinlərinə bərabər şəkildə məxsusdur. Lakin nəzəri baxımdan mərtəbənin müəyyənedici rol oynaya biləcəyi hallar müzakirə olunur.



### *Ekspert rəyi*

**Akif NƏSİRLİ,**
**Liberal İqtisadçılar Birliyinin sədri**



Çoxmərtəbəli binaların altındakı torpaq sahəsinə görə vergi bələdiyyələr tərəfindən toplanılmalıdır. Qanuna görə, torpaq vergisi fiziki şəxslər üçün yerli, yəni bələdiyyə vergisidir və bələdiyyənin büdcəsinə daxil olur. Hüquqi şəxslərin torpaq və əmlak vergisi isə dövlət büdcəsinə, yəni regional vergi orqanlarına ödənilir. Məsələn, bələdiyyənin balansında olan torpaqların və əmlakın vergisi dövlət büdcəsinə ödənilir, çünki bələdiyyə hüquqi şəxs sayılır.

Binanın altındakı torpaq sahəsi bütün mənzil sahiblərinə məxsus olduğu üçün vergi ümumi torpaq sahəsinə görə hesablanır və sonra mənzillər arasında bölünür. Adətən bu bölünmə belə olur: Hər mənzilə düşən vergi payı mənzilin sahəsinə uyğun müəyyən edilir. Yəni mənzil nə qədər böyükdürsə, torpaq vergisindən o qədər pay düşür.

Hesablama zamanı mərtəbə fərqi isə nəzərə alınmır. Hazırda mərtəbənin (1-ci, 15-ci və s.) torpaq vergisinin hesablanmasına heç bir təsiri yoxdur. Çünki torpaq vergisi torpaq sahəsinə görə tutulur və mərtəbə onsuz da torpağın payını dəyişmir. Yəni istər binanın ən yuxarı, istərsə də giriş mərtəbəsində yaşayan torpağın eyni dərəcədə “payçısı” sayılır.

Bəs mənzil sahibləri bələdiyyədə torpaq sahəsi üzrə qeydiyyata necə alınır? Çoxmərtəbəli binalarda mənzil sahibləri binanın altındakı torpaq sahəsində paylı mülkiyyət sahibi sayılır. Uçot prosesi adətən belə olur: Mənzil sahibi bələdiyyəyə müraciət edir. Bələdiyyə binanın sənədlərinə (torpaq sahəsinin ölçüsü, təyinatı, istismar aktı və s.) əsasən mənzilə düşən torpaq payını müəyyənləşdirir. Bu məlumatlar isə bələdiyyənin uçot sisteminə daxil edilir və torpaq vergisi həmin pay üzrə hesablanır. Praktikada bəzi bələdiyyələrdə proses avtomatlaşdırılıb, digərlərində isə sənədli təsdiqlər əsasında aparılır.

Hazırkı sistemdə torpaq vergisi mənzillərin sahəsi ilə mütənasib bölünür. Məsələn, mərtəbədən asılı olmayaraq 50 kvadratmetr mənzilə daha az vergi, 150 kvadratmetr mənzilə isə daha çox vergi ödənilir. Bu yanaşma məntiqi və sadədir, amma mübahisəli cəhətləri də var. Məsələn, mərtəbə fərqi, mənzilin dəyəri, bazar qiyməti, gəlir potensialı və s. kimi amillər nəzərə alınmır. Eyni binada yaşayan, amma fərqli maddi imkanı olan şəxslərin vergi yükü bir sıra hallarda uyğun olmaya bilər. Buna görə bəziləri bunu ədalətli, digərləri isə natamam model hesab edir.

Aşağı gəlirli şəxslər üçün güzəştlərin nəzərdə tutulması sosial siyasət baxımından tamamilə əsaslı bir yanaşmadır. Ona görə də minimum gəlirli şəxslər üçün torpaq vergisindən tam və ya qismən azadolma, yaşlı və tənha, eləcə də əlil şəxslər üçün müəyyən güzəştlərin verilməsi, sosial təyinatlı mənzillər üçün xüsusi qaydanın yaradılması kimi məsələlərin həlli diqqətdə saxlanılmalıdır. Bir sıra ölkələrdə bu cür güzəştlər tətbiq olunur, çünki torpaq vergisi bəzən aşağı gəliri olan insanlara “əlavə yük” hesab edilir.

Torpaq sahəsinin dəqiq ölçülməsinin və mənzillərə paylanmasının təşkili ilə bağlı isə onu deyə bilərəm ki, bu məsələdə torpaq sahəsi dövlət kadastrında dəqiq ölçülür. Binanın sənədlərində torpaq sahəsinin ümumi ölçüsü və sərhədləri təsdiqlənir. Mənzillərə pay bölgüsü isə binanın ümumi sahəsi – bütün mənzillərin cəmi hər mənzilin sahəsinə düşən torpaq payını müəyyənləşdirir. Bu, sadə riyazi bölünmədir və çoxmərtəbəli binalar üçün ən praktik üsuldur.

Fərqli bələdiyyələrdə vergi tətbiqi ilə bağlı müəyyən uyğunsuzluqlar da müşahidə oluna bilər. Bu, ilk növbədə, torpaq sahələrinin qiymətləndirilməsində yaranan fərqlərdə özünü göstərir. Belə bir şəraitdə bələdiyyələrin vergiyığma imkanlarının, sistemlərinin fərqli olması da nəzərə çarpır. Amma bu zaman uçot aparılmasında meydana çıxan qeyri-dəqiqliklər, eyni tip torpağa fərqli yanaşmalar kimi uyğunsuzluqlar bəzən vətəndaşların narazılığına gətirib çıxarır.

Yeni tikililərlə köhnə binalar arasında vergi yükü fərqinə gəldikdə isə qeyd edək ki, adətən “birbaşa vergi dərəcəsi fərqi” yoxdur, amma dolayı fərqlər mövcuddur. Məsələn, yeni tikililərdə mənzil sahəsi böyük olur, vergi isə daha çox aşağı düşür. Bir çox köhnə binaların sənədləri isə tam rəsmiləşdirilmədiyindən vergi ya çox az, ya da ümumiyyətlə, hesablanmır. Yeni binaların torpaq ölçüləri dəqiqdir, köhnə binalarda isə bəzən kadastr məlumatları natamam olur. Nəticədə eyni ərazidə yaşayan iki ailə fərqli vergi yükü ilə üzləşə bilir.

Sonda bir məqamı da diqqətə çatdırmaq istərdim. Bu, torpaq vergisi gəlirlərinin şəffaf istifadəsi ilə əlaqədar məsələdir. Ümumiyyətlə, şəffaflıq bələdiyyədə hələ də zəifdir, toplanan vəsaitin necə xərcləndiyi ictimai hesabatlarda tam açıqlanmır. Büdcə məlumatları bəzən gecikmiş və ya natamam şəkildə paylaşılır. Vətəndaşların da bələdiyyə büdcəsinə nəzarət imkanları məhduddur. Amma prinsipcə torpaq vergisi yollar, abadlıq, kommunal xidmətlər, yerli infrastruktur üçün istifadə edilməlidir.

Niyə fərq nəzərə alınmır? Ona görə ki, torpaq vergisi mənzilin yerləşdiyi əraziyə görə hesablanır, mərtəbəyə görə yox. Binanın altındakı torpaq sahəsi hamının ortaq mülkiyyətidir. Məsələn, 15-ci mərtəbədə yaşayan da torpaqdan hüquqi olaraq 1-ci mərtəbədə yaşayan qədər paya malikdir. Vergi amilində mərtəbənin müəyyənedici rolunu önə çəkən bəzi ekspertlər isə bildirirlər ki, aşağı mərtəbələr torpaqla “fiziki bağlılıq” baxımından daha çox istifadə anlayışı daşıyır. Burada eyvan istifadəsi, binanın girişinə daha yaxınlıq kimi üstünlüklər də nəzərə alınır. Lakin bunlar praktiki və hüquqi əsaslar baxımından yetərli hesab edilmir.

### Xarici təcrübə

Ekspertlər bildirirlər ki, Rusiya, Türkiyə, Avropa ölkələri və ABŞ-da çoxmərtəbəli binaların torpaq vergisi hesablanarkən mərtəbə fərqi heç bir yerdə tətbiq olunmur. Əsas meyar mənzilin ümumi sahəsi və torpaq payıdır. Bu baxımdan mərtəbə fərqinin Azərbaycanda nəzərə alınması real görünmür və məntiqi əsaslara söykənmir. Amma çoxmərtəbəli binaların torpaq vergisi hesablanarkən sosial amillərin və real güzəştlərin nəzərə alınması mümkündür. Ekspertlər tərəfindən torpaq vergisinin çoxmərtəbəli binalara tətbiqi zamanı aşağıdakı sosial qruplara güzəştlərin verilməsi zəruri sayılır:

*– şəhid ailələri və qazilər;*
*– pensiyaçılar;*
*– aztəminatlı ailələr;*
*– əlilliyi olan şəxslər.*

Bildirilir ki, bu güzəştlər həm ümumi vergi yükünü, həm də sosial narazılıqları azalda bilər. Mexanizmin tətbiqinə gəldikdə isə qeyd edilir ki, çoxmərtəbəli binalarda torpaq vergisinin real tətbiqi üçün, ilk növbədə, rəqəmsal kadastrın tam yenilənməsi, hər bir binanın dəqiq torpaq sərhədlərinin müəyyənləşdirilməsi, yaşayış qeydiyyatının dolğun aparılması, boş mənzillər və kirayəyə verilən sahələrin də sistemə daxil edilməsi zəruridir. Bütün bunlarla yanaşı, rəqəmsal inteqrasiya amili diqqətdə saxlanılmalıdır. Bu baxımdan Daşınmaz Əmlak Reyestri ilə Vergi Xidməti arasında vahid baza yaradılmalıdır. Eyni zamanda, mənzil sahiblərinin maarifləndirilməsinə xüsusi önəm verilməlidir. Başqa sözlə, sakinlərə yeni vergi mexanizmləri şəffaf və sadə formada izah edilməlidir.

Beləliklə, çoxmərtəbəli binaların torpaq vergisinə cəlb edilməsi ideyası həm dövlət büdcəsi üçün əlavə gəlir mənbəyi, həm də daşınmaz əmlak mülkiyyətinin idarə edilməsində daha ədalətli model yarada bilər. Lakin bunun üçün hüquqi mexanizmlərin təkmilləşdirilməsi, şəffaf və ədalətli hesablamaların tətbiqi və düzgün institusional bölgünün həyata keçirilməsi zəruridir. Torpaq vergisinin toplanması mexanizminin Dövlət Vergi Xidməti ilə bələdiyyələr arasında bölüşdürülməsi isə daha səmərəli variantdır. Mənzillərin vergi yükü sahə və mülkiyyət payı əsas götürülməklə müəyyənləşdirilməlidir. Mərtəbə fərqinin nəzərə alınması isə hüquqi və iqtisadi baxımdan məntiqli deyil və beynəlxalq təcrübəyə uyğun gəlmir.

### Mübahisəli məqamlar

Azərbaycanda yerli özünüidarəetmə institutlarının maliyyə bazasının əsas komponenti olan bələdiyyə vergilərinin tətbiqi uzun illərdir ki, həm hüquqi, həm institusional, həm də praktiki baxımdan müzakirə mövzusudur. Ən ciddi anlaşılmazlıqlardan biri isə vətəndaşlara məxsus torpaq və əmlak üzərindən vergi yığılması prosesində bələdiyyələrlə yanaşı, mənzil istismar sahələrinin (MİS) də bu məsələ ilə bağlı iddialar irəli sürməsidir. Halbuki qüvvədə olan qanunvericilik MİS-lərin belə bir funksiyasının qətiyyən mövcud olmadığını təsdiqləyir.

Xatırladaq ki, 2011-ci ildə qəbul olunan yeni Mənzil Məcəlləsi mənzil-kommunal istismar sahələri ilə bağlı əvvəlki hüquqi müddəaları ləğv etdi. Beləliklə, MİS-lərin inzibati statusu, səlahiyyətləri və fəaliyyət prinsipləri qanunvericilikdən tam çıxarıldı. Onların bir çox funksiyası bələdiyyələrə, bir qismi isə icra hakimiyyətlərinin ərazi nümayəndəliklərinə həvalə olundu.

Lakin hüquqi çərçivənin dəyişməsinə baxmayaraq, real həyatda MİS-lərin mövcudluğu hələ də davam edir. Hər məhəllədə həm bələdiyyə, həm də faktiki fəaliyyət göstərən MİS-in olması dövlət idarəetməsində paralellik yaradır və bu, bəzi hallarda vətəndaşları çıxılmaz vəziyyətlə üzləşdirir. Burada əsas problemli məqam odur ki, MİS-lər bəzən sakinlərdən vergi adı ilə ödənişlər tələb edir və bu, “illərdir davam edən praktika” kimi əsaslandırılır. Belə hal isə həm “Yerli vergilər və ödənişlər haqqında” Qanuna, həm də mənzil hüququna dair normalara tamamilə ziddir.

### Kağız üzərində norma?

Mövcud qanunvericilik yerli vergi və ödənişləri toplamaq hüququnu yalnız bələdiyyələrə verir. Qanuna görə, bələdiyyə vergi toplamaq üçün əvvəlcə vətəndaşla müqavilə bağlayır, daha sonra isə göstərdiyi xidmətlər əsasında verginin ödənilməsini tələb edir. Praktikada isə bu mexanizm çox az halda işləyir. Bir çox bələdiyyə müqavilə bağlamadan birbaşa vergi tələb edir ki, bu da hüquqi mübahisələrə yol açır. Vətəndaş müəyyən xidmət almadığını, müqavilə bağlanmadığını əsas gətirərək ödənişdən imtina edir, bələdiyyə isə verginin məcburi xarakterini önə çəkir.

Hazırda bələdiyyələrin topladığı iki əsas vergi növü – əmlak və torpaq vergisi mövcuddur. Əmlak vergisinin hesablanması qaydasında xüsusilə mübahisəli məqamlar ortaya çıxır. Məsələn, 30 kvadratmetrlik güzəşt tətbiq olunmur. Çünki qanun var, icra yoxdur. Belə ki, qanunla sahəsi 30 kvadratmetrdən az olan birotaqlı mənzillər, ümumiyyətlə, əmlak vergisindən azad edilməlidir. Bundan başqa, digər mənzil sahibləri üçün də mənzilin ümumi sahəsindən 30 kvadratmetr çıxıldıqdan sonra qalan hissəyə görə vergi hesablanmalıdır. Bu mexanizmin mahiyyəti sosialyönümlü dəstəkdir – kiçik sahəli mənzillərin maliyyə yükü azaldılır və aztəminatlı təbəqənin xərcləri yüngülləşdirilir.

Lakin çoxsaylı müraciətlər göstərir ki, bələdiyyə bu güzəşti tətbiq etmir və bütün mənzillər üzrə istisnasız vergi tələb olunur. Qalan sahənin hər kvadratmetrinə 40 qəpik məbləğində vergi hesablanması qanuna uyğun olsa da, 30 kvadratmetrlik güzəştin nəzərə alınmaması ciddi qanun pozuntusu sayılır.

Ən mübahisəli məsələlərdən biri çoxmərtəbəli binaların torpaq vergisinə cəlb edilməsidir. Mənzillər özəlləşdirilsə də, binanın üzərində tikildiyi torpağın kimə məxsusluğu aydın olmur: dövlətin, bələdiyyənin, yoxsa heç bir quruma rəsmən verilməyib?

Vətəndaşın mənzilə dair çıxarışı olsa da, torpaq mülkiyyət hüququ ayrıca sənədləşdirilməlidir. Əks halda, bələdiyyələrin torpaq vergisi tələbi hüquqi əsası olmayan iddia kimi qiymətləndirilir. Bu səbəbdən vətəndaşlar həm əmlak, həm də torpaq vergisi ödənişlərinə etiraz edir və haqlı şəkildə sual ünvanlayırlar: “Mənzilin çıxarışı varsa, bələdiyyəyə torpaq vergisi ödəməliyəmmi?”

Qanunun mövcud mətninə əsaslansaq, cavab əksər hallarda “xeyr” olur. Çünki torpaq mülkiyyət hüququ mövcud çıxarışdan ayrıca sənəddir və çoxmərtəbəli yaşayış binalarının böyük hissəsində belə sənədlər, ümumiyyətlə, yoxdur. MİS-lərin vergi toplaması da qanunsuzdur. Qanunvericilik aydın şəkildə bildirir ki, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Qanun 2001-ci ildə qüvvəyə minib, 2015-ci ildə edilən dəyişikliklərlə real tətbiq imkanları genişləndirilib. Qanunvericiliyə əsasən, yerli vergi və ödənişləri yalnız bələdiyyə toplaya bilər. Bu məqsədlə sözügedən qurum öz vergi xidməti orqanlarını yaratmalıdır. Bu funksiyanı hər hansı başqa quruma, o cümlədən mənzil-kommunal istismar sahələrinə həvalə etmək qəti qadağandır. Beləliklə, MİS-lərin vergi tələb etməsi hüquqi baxımdan əsassız olmaqla yanaşı, qanun pozuntusudur və inzibati xəta tərkibi yaradır.

### İslahat zərurəti

Mövcud vəziyyət göstərir ki, bələdiyyə institutunun maliyyə mexanizmlərində ciddi islahatlara ehtiyac var. Vergi toplama mexanizmi aydın, şəffaf və standartlaşdırılmış şəkildə tətbiq olunmalıdır. Bunun üçün aşağıdakı addımlar vacibdir:

*– bələdiyyə xidmətlərinin elektronlaşdırılması və müqavilələrin rəqəmsal qaydada bağlanması;*
*– vətəndaşlara güzəştlər barədə aydın məlumatlandırma mexanizmlərinin yaradılması;*
*– MİS-lərin fəaliyyətinin tam hüquqi yekunlaşdırılması və paralelliyə son qoyulması;*
*– çoxmərtəbəli binaların torpaq mülkiyyəti məsələlərinin dəqiq hüquqi statusunun müəyyən edilməsi;*
*– bələdiyyə vergi xidmətlərinin institusional gücləndirilməsi.*

Bu tədbirlər həm qanunvericiliyin icrasını gerçəkləşdirər, həm vergi uçotunda dəqiqliyi artırar, həm də vətəndaş – bələdiyyə münasibətlərində inam mühitinin formalaşmasına təkan verər.

***Vaqif BAYRAMOV***
***XQ***

# Sumqayıt – yeniləşmə və tərəqqi məkanı

**Bu gün – noyabrın 22-də Sumqayıta şəhər statusu verilməsinin 76-cı ili tamam olur. Xəzərin sahilində, Abşeron yarımadasının şimalında qərarlaşan məkanın tikintisinə hələ 1938-ci ildə başlansa da, İkinci Dünya müharibəsinə görə işlər yarımçıq qalıb və faşizm üzərində qələbədən sonra davam etdirilib. Nəhayət, 1949-cu ildə xəritələrə Sumqayıt adlı yeni şəhərin adı düşüb. Əvvəllər sənaye zonası, tikintilər məkanı kimi təqdim olunan Sumqayıta ölkənin hər yerindən gənclərin axını başlayıb və "taleyi, arzusu nura boyanmış" bu zəhmət meydanı, hünər ünvanı "Gənclik şəhəri" kimi tanınıb.**

Sumqayıtı burada doğulub boya-başa çatan və heç zaman ünvanını dəyişməyən bir sakini kimi, "könlümün paytaxtı" sayıram. Şəhəri bura ürəklərində, arzularında gətirmiş vətənsevərlər tədricən duyğu və düşüncələrini ev-ev, küçə-küçə boz çöllərə köçürüb və möhtəşəm bir quruculuq abidəsi ucaldıblar. İlbəil böyüyüb gözəlləşən Sumqayıt bu gün Cənubi Qafqazın önəmli şəhərləri sırasında layiqli yerini tutur.

Yeni əsrdə gənclik şəhərinin sürətli tərəqqisi ilk növbədə, dövlətimizin və möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə sıx bağlıdır. Dövlət səviyyəsində daimi diqqət sayəsində Sumqayıt vüsət və tərəqqi məkanına çevrilib. İnkişafı şərtləndirən amillər sırasında



sakinlərin doğma şəhərə özəl və sırf təəssübkeş sevgisi də öncül mövqe tutur. Son dövrlərdə Sumqayıtın idarə edilməsinin məhz bu şəhərin yetirməsi olan kadrlara həvalə olunması özünü hərtərəfli doğruldub. Şəhərin durmadan gözəlləşdirilməsi, infrastrukturunun müasirləşdirilməsi bu "komanda"nın gündəlik zəruri qayğısıdır. Son illərdə Sumqayıtda möcüzəli park-bulvar yaradılıb, Heydər Əliyev Parkı tamamilə yenidən qurulub, şəhərdə yaşıllıqlar artırılıb, küçə və məhəllələrin ideal təmizliyi daimi nəzarətdə saxlanır. Qaynar mədəni mühitin bərqərar olması fərəh doğurur. Bu sıraya Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun müasirləşdirilməsini və ardıcıl olaraq beynəlxalq yarışların keçirilməsini, Nizami kinoteatrının açılmasını, gənclər üçün güzəştli mənzil layihələrinin tətbiqini, ayrıca Poeziya Evinin təşkilini və s.-ni də əlavə etsək, inamla deyə bilərik ki, Sumqayıt bu gün çoxları üçün əsl həsəd ünvanına çevrilib.

**Şəhərin yüksəlişini öz əsərlərində ürəkdən vəsf edən ağsaqqal şair, Əməkdar mədəniyyət işçisi, Prezidentin fərdi təqaüdçüsü Əşrəf Veysəllinin dedikləri:**

– Gənclik illərimdən könül verib sevdiyim Sumqayıt bir çoxları kimi, mənim də taleyimin şəhəridir. Daim Sumqayıtın tərəqqisindən ilham alaraq yazıb-yaratmışam. Şəhərimizin 70 illiyi ərəfəsində möhtərəm Prezidentimizin sərəncamı ilə fərdi təqaüdə layiq görülməyim bu ağsaqqal yaşımda məni daha da ruhlandırıb, həyat eşqimi gücləndirib. Heydər Əliyev Parkında möhtəşəm bir sarayın "Poeziya Evi" olaraq qələm sahiblərinin ixtiyarına verilməsi Zakir müəllimin sözü, sənəti necə yüksək dəyərləndirdiyini göstərir.

Xatırlayıram ki, bir neçə il əvvəl dünya şöhrətli yazıçı Oljas Süleymenov beynəlxalq ədəbi heyətlə Sumqayıta gələndə şəhər rəhbərliyi ilə bərabər bizim "Poeziya Evi"nə də təşrif buyurdu, yerli yazarlarla görüşdü, sonra isə Sumqayıt rəhbərliyinin təqdirəlayiq işini Bakıda rəsmi dairələrin nümayəndələri qarşısında rəsmi çıxışında xüsusi qeyd etdi. Bax, bütün bunlar, həm də sumqayıtlıların doğma şəhərə hədsiz sevgisi həqiqi məmnunluq və qürur yaradır. Sözə, nəğməyə, bayatıya, nağıla büküb əzizlədiyimiz Sumqayıta həsr etdiyim şeirdən bir bənd deyim:

***Yaranışdan o mənim könlümə ilham verib,***
***Qoynu coşub daşmalı, çağlamalı şəhərdir.***
***Otuna sığal çəkib, gülünə salam verib,***
***Hər gün halını sorub, yoxlamalı şəhərdir.***

Sumqayıtın 76 yaşı var. İnsan üçün böyük rəqəm olsa da, coğrafiyalar üçün az bir müddətdir. Buna görə də Sumqayıta elə "Gənclik şəhəri" deyirik. Axı, həm də ruhu cavandır bizim Sumqayıtın. Bu da məlumdur ki, Sumqayıt 2025-ci ildə Azərbaycanın "Gənclər paytaxtı" elan edilib. Fevral ayında bu layihənin təqdimatı olub. Gənclər və idman naziri Fərid Qayıbov "Gənclər Paytaxtı"nın rəmzi açarını Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcova təqdim edib. İl ərzində burada gənclik ruhlu bir çox maraqlı tədbir keçirilib.

"Gənclər paytaxtı"nda layihə üzrə düzənlənən tədbirlərin hamısı kütləviliyi, dinamikliyi ilə seçilib. Xalq şairlərinin də qonaq gəldiyi "Poeziya günü", "Sumqayıt gənclik marafonu 2025", Beynəlxalq Velosiped Günü münasibətilə peşəkar və həvəskarların qatıldığı "Gənclərlə veloyürüş", "Gənclər paytaxtında birlikdə" inklüziv gənclik festivalı xüsusilə cəlbedici olub.

Sumqayıtı "Qəhrəmanlar şəhəri" adlandıranlar yanılmırlar. Bu ay 5 illiyi təntənə ilə qeyd edilən "Zəfər" bayramında da iftixarla xatırlandı ki, 100-dən çox Sumqayıt igidi ən ali məqam olan şəhadətə ucalıb. "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülənlərin sırasında doğma torpaq uğrunda canını və qanını əsirgəməyən 6 nəfər Sumqayıt yetirməsi də var. Onlar Milli Qəhrəman olan general Polad Həşimovun ardıcılları Adil İbrahimli, Anar Şükürov, Ramiz Cəfərov, Sübhan Cəbrayılov, Camal İsmayılov və Mehrab Niftəliyevdir. Döyüşdə orden və medallar alanların sayı yüzlərcədir. Birinci Qarabağ müharibəsində isə bu şəhərdən Valeh Müslümov, Qorxmaz Eyvazov, Mətləb Quliyev, Cəlil Səfərov "Milli Qəhrəman" adını qazanıblar. Hərbi hissə komandiri, polkovnik-leytenant Şükür Həmidov 2016-cı ilin Aprel döyüşlərində bu ada layiq görülmüşdü, Vətən müharibəsində şəhid olandan sonra isə "Zəfər" ordeni ilə təltif olunub.

Zəfərin 5 illiyinə həsr edilmiş XXVIII "Şahin" hərbi-idman oyunlarının respublika final mərhələsində 14 komanda sıra hazırlığı, darağa patronların doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, fiziki hazırlıq, maneələrin dəf olunması, tüfəngdən hədəfə atəş açılması, mülki müdafiə hazırlığı, çadırın qurulması və intellektual müsabiqə mərhələlərində güclərini sınayıblar. Sumqayıt komandası 1-ci yerə layiq görülüb. Mərasimdə nazir Fərid Qayıbov, şəhər rəhbəri Zakir Fərəcov və Vətən Müharibəsi Qəhrəmanı Anar Mirzəyev qalibləri təbrik ediblər. Zəfər Günü həm də möhtəşəm hərbi yürüş, konsert, atəşfəşanlıq və ağacəkmə aksiyası (12 minə qədər ting) ilə yaddaşlara yazılıb.

**Hümbət Quliyev, Şəhər İcra Hakimiyyətinin yanında İctimai Şuranın sədri:**

– Sumqayıt növbəti ad gününü də layiqincə qarşılayır. Bildiyimiz kimi, noyabrın 12-də möhtərəm Prezidentimiz İlham Əliyev yeni səlahiyyətli nümayəndə və icra hakimiyyəti başçıları ilə görüşündə onlara tapşırıq və tövsiyələr verərkən ətraf mühitə böyük diqqət göstərilməli olduğunu önə çəkib və deyib: "Həm Bakı, həm Sumqayıt ekoloji cəhətdən ən çirklənmiş şəhərlər hesab olunurdu. Bu gün isə bu, belə deyil. Bu gün Bakı, Sumqayıt parklar şəhərləridir". Bir sumqayıtlı kimi bunu eşitmək mənim üçün çox xoşdur. Uzun müddətdir ki, bu şəhərlə sıx bağlıyam. Vaxtilə dünyanın ən çirkli 10 şəhəri sırasında olan Sumqayıtımızın bu gün parklar və xiyabanlar şəhəri elan edilməsindən hədsiz məmnunam.

Dünyada qəbul edilmiş normaya görə, insanın rahat yaşaması üçün adambaşına 20 kvadratmetr yaşıllıq düşməlidir. Bu gün Bakıda həmin rəqəm 5-7 arasındadır, 2040-cı ilədək 10-a çatdırmaq istəyirlər. Sumqayıtda isə bu rəqəm 27-dir. Deməli, Sumqayıt yaşıllaşdırma baxımından Azərbaycanın ən böyük şəhəridir. Gözəl bulvarımızda ucsuz-bucaqsız yaşıllıq zonası salınıb, 150 mindən çox ağac və kollar əkilib. Belə gözəl şəhər diqqətsiz qalmır. Üstün cəhətləri xarici investorları da cəlb edir. Artıq bir çox ölkənin, xüsusən də Çinin investorları Sumqayıtda iş görmək, yaşayış mərkəzləri tikmək istəyirlər. Sənaye zonamız da xarici sərmayəçilərin diqqətindədir. Bura gələn əcnəbilər yaşayış mühitinin də, uşaqlarının təhsilinin, ailələrinə göstərilən səhiyyə xidmətinin də yaxşı olmasını dəyərləndirirlər. Bir sözlə, Sumqayıt həm yaşamaq, həm də işləmək üçün çox gözəl bir məkandır.

Yeri gəlmişkən, Çinlə işgüzar əlaqələr haqqında. Bu "körpü" eninə və uzununa böyüməkdədir. Sentyabr ayında Sumqayıtda Çin Xalq Respublikasının 12 əyalətini təmsil edən 20 şirkətin nümayəndələri ilə görüş keçirilib. Sumqayıtla Çinin Sian, Mian və Çun Çin şəhərləri arasında qardaşlıq münasibətlərinin mövcudluğu qeyd edilib və bu əlaqələr çərçivəsində sənaye, təhsil və mədəniyyət sahələrində bir sıra birgə layihələr həyata keçirildiyi bildirilib. Çin Xarici İnkişaf Assosiasiyasının prezidenti He Çjenveyi Çin şirkətlərinin Azərbaycanda, xüsusilə də Sumqayıtda birgə layihələrə maraqlı olduqlarını vurğulayıb. Qeyd edilib ki, yaxın gələcəkdə şəhərdə Çin müəssisələrinin sayı daha da artacaq.

Ötən ay isə Sumqayıt şəhər rəhbərliyinin Çinə səfəri zamanı yerli iqtisadiyyatla tanışlıq və konkret planları olan görüşlər keçirilib. Sumqayıtın innovasiya potensialı, yüksək texnologiyalar sahəsində görülən işlər və sənaye klasterlərinin fəaliyyət prinsipi, eləcə də Çin təcrübəsinin bu prosesdə mühüm əhəmiyyət kəsb edə bilməsi barədə söhbətlər aparılıb.

Qeyd edək ki, artıq Sumqayıtda irihəcmli nəqliyyat vasitələri də istehsal olunur. Bu yaxınlarda şəhərdəki Sənaye Parkında "BYD" "Azerbaijan Energy Automotive Factory" MMC-nin istehsal etdiyi ilk elektrik avtobusu "BakuBus" MMC-yə təqdim olunub. Prezidentin 2023-cü ildə imzaladığı "Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında" sərəncama uyğun olaraq, ölkədə ekoloji təmiz nəqliyyat vasitələrinin istehsalı və istifadəsi genişləndirilir. Bu, Azərbaycan-Çin əməkdaşlığının uğurlu nümunəsidir.

Şəhərin gözəlliyi onun yaşıllığından, təmizliyindən, kommunal şəraitdən, xidmət sahələrinin fəaliyyətindən çox asılıdır. Heydər Əliyev Parkı, Dənizkənarı Bulvar, Nəsimi adına Mədəniyyət və İstirahət Parkı, Bələdiyyə parkı, Lüdvişafen Parkı buna misal ola bilər. Parklar şəhərdə gözəgəlimli mənzərələr yaradır. Dövlət başçısı Madrid və Parisdə keçirilən "Global Trade Leaders Club"un forumlarında "İnternational Award for Excellence & Leadership" mükafatına layiq görülmüş Sumqayıt Bulvarında sakinlərlə görüşü zamanı deyib ki, Sumqayıt gələcəkdə Azərbaycanın turizm zonası kimi də özünü göstərməlidir. Bu yöndə də inamlı addımlar atılmaqdadır.



## Sumqayıt

**Böyük arzusuydun böyük millətin,**
**Böyük talelərin şəhəri oldun.**
**Xəzərin qoynunda Azərbaycanın**
**Üzünə açılan səhəri oldun.**

**Həyatın özünə verdik imtahan,**
**Adınla gecəni gündüzə qatdıq.**
**Alın tərimizlə yoğruldu mayan,**
**Səni qarış-qarış qurub-yaratdıq.**

**Yaşıl bağlar saldıq, ağ məhəllələr,**
**Zülmət gecələri çıraqban etdik.**
**Gündüz fəhlən olduq, axşam tələbən,**
**Halal haqqın ilə murada yetdik.**

**Doğma ağuşunda sevdik, sevildik,**
**Sevgilər yaşadıq sulardan təmiz.**
**Qubalı, Qazaxlı, Qəbələliydik,**
**Sumqayıtlı oldu körpələrimiz.**

**Ürəkdən, könüldən bağlandıq sənə,**
**Döndün qəlbimizdə sevgili yurda.**
**İgidlik görküdü, "Can Vətən!" - deyib,**
**Şəhid düşənlərin məzarı burda.**

**Qan-qada da gördük, qələbəlik də,**
**Şanlı tarixini yazdıq kitaba.**
**Bağçada şəninə şeirlər deyən**
**Qızlar nənə oldu, oğlanlar baba.**

**Ağ günlər gözləyir səni qarşıda,**
**Ağ günlər eşqiylə yaranan şəhər.**
**Bu dünya durduqca yaşa, sən yaşa,**
**Ey başdan-ayağa gülüstan şəhər!**

***İbrahim İLYASLI***



Təmizlik baxımından isə Sumqayıtda ideal şərait yaradıldığını desək, mübaliğə etmiş olmarıq. Xüsusilə son 10 ildə bu sahədə əsl dönüş yaranıb. Yaşıllaşdırma, asfaltlama, digər abadlıq tədbirləri – küçə səkilərinin qaydaya salınması, məhəllə və mikrorayonların daxili ərazilərinin görkəmi, yaşayış evlərinin fasadlarının, giriş bloklarının, pilləkən meydançalarının, dam örtüklərinin təmiri, zirzəmilərin qurudulması daimi xarakter daşıyır. Lift təsərrüfatı intellektual idarə olunur. Şəhər rəhbərliyinin ciddi nəzarəti sayəsində məişət tullantılarının yığılması və zərərsizləşdirilməsi üzrə mütəmadi tədbirlər görülür. Sumqayıt şəhərində kommunal təsərrüfatının maddi-texniki bazası xeyli gücləndirilib, yeni və müasir texnikalarla təminat həyata keçirilib. Bu, xüsusilə qış aylarında özünü göstərərək, qar və buzla mübarizə tədbirlərinin operativ, effektiv icrasına imkan yaradıb.

**Hüseyn Həsənov, Sumqayıt Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyinin rəisi:**

– Şəhərin təmizliyi gündəlik qayğımızdır. Dövlətin diqqəti bizi daha da ruhlandırır. Şəhərimizin növbəti ad gününü də layiqli göstəricilərlə qarşılayırıq. Bu gün Sumqayıt Qafqazın ən gözəl müasir şəhərlərindən biridir. Fəxr edirəm ki, şəhərimizin təkcə Azərbaycan miqyasında deyil, regionda da ən təmiz və abad məkan səviyyəsinə çatmasında mənzil-kommunalçıların da danılmaz zəhmət payı var.

Ötən illər ərzində Sumqayıt təkcə yeni binalar və obyektlərlə deyil, həm də şəhər sakinlərinin düşüncə və yaşam tərzindəki dəyişikliklərlə yenilənib. Biz sumqayıtlılar qazanılan nailiyyətlərlə kifayətlənmir, arxayınlaşmırıq. Qarşıda daha böyük hədəflər var: ağıllı şəhər (smart city) konsepsiyasının hərtərəfli reallaşdırılması, turizm infrastrukturunun inkişafı, ekoloji layihələrin davam etdirilməsi və sair.

**Sumqayıtın ekologiyası yaxşılaşdıqca, perinatal sahədə də problemlər ən aşağı səviyyəyə enib. Bu barədə danışan Perinatal Mərkəzin rəhbəri, Əməkdar həkim Təranə Rəcəbli bildirdi:**

– Mən özüm Sumqayıtda, indi rəhbəri olduğum bu doğum evində anadan olmuşam. Hazırda şəhərimizin ekoloji durumu o qədər yaxşıdır ki, bunu o gün mərkəzimizə gələn yaponiyalı qonaqlar da etiraf etdilər. Səhiyyə xidmətlərimiz də nümunəvidir. Bura hətta Azərbaycanın regionlarından patologiyalı xəstələr inamla gəlirlər və biz onlara fərqli xidmətlər göstəririk. Sumqayıt Perinatal Mərkəzində ambulator-poliklinika, cərrahiyyə, anesteziologiya və reanimasiya, ginekologiya, təcili tibbi yardım, doğum və hamiləliyin patologiyası, yarımçıq və xəstə yenidoğulmuşlar şöbələri fəaliyyət göstərir. Hamısı da yüksəkkeyfiyyətli avadanlıqla, eloktron idarə olunan stollar, narkoz aparatları ilə təchiz edilib. Reanimasiya şöbəsində xaricdən gətirilən süni tənəffüs aparatları quraşdırılıb. Tibb ocağında yenidoğulmuşların reanimasiya və intensiv terapiya bölməsi də yaradılıb. Ginekologiya şöbəsində isə doğuş zalı, cərrahiyyə otağı və müasir standartlara cavab verən neonataloji bölmə yeləşir.

Bir sumqayıtlı kimi fəxr edirəm ki, əhalisinin sayı artaraq 428 min nəfərə çatan şəhərimizdə ana və uşaqların sağlamlığına əlimizdən gələn qədər xidmət göstəririk.

**Gənclik şəhərində sahibkarlar və iş adamları üçün əlverişli mühit mövcuddur. Onlar çalışdıqları sahələrdə uğur qazanmaqla bərabər, Sumqayıtın inkişafına da layiqincə xidmət göstərirlər. "Qartal" Tikinti Firmasının rəhbəri Şahin Məmmədov da bu sıradadır. Onun dedikləri:**

– Tale uğurları Sumqayıtla bağlı olanlardan biriyəm. Özəl firma olaraq, Sumqayıtdakı qaçqın və məcburi köçkünlərə lazımi yardımlar göstərməyimizlə öyünə bilərik. Son 5 ildə qazilərə və şəhid ailələrinə, bərpaolunan Laçın rayonuna yardım və digər istiqamətlərdə xeyriyyəçilik fəaliyyətimiz daha da genişlənib. Bu müddət ərzində bütövlükdə 481 min manatlıqdan artıq vəsait sərf etmişik. Bütün bunlar yaşayıb-yaratdığımız Sumqayıtda özəl sektorun inkişafına münbit şərait yaradılması sayəsində mümkün olub.

Şəhərimizin gözəlliyinin daha da artırılması üzrə təşəbbüslərə ilk qoşulanlar sırasında bizim firmanın da adı çəkilir. Məsələn, Bulvar ərazisində sakinlərin və qonaqların önündə şəkil çəkdirdikləri "Balaca rəqqaslar" abidəsi bizim firmanın şəhərə hədiyyələrindən biridir.



Hazırda Sahibkarlar Konfederasiyasının Sumqayıt şəhər şöbəsinin sədri kimi iş adamlarımızın fəaliyyətini əlaqələndirirəm. Gərək hər birimiz doğma şəhərimizin daha da tərəqqi edib şöhrətlənməsi üçün əlimizdən gələni edək.

Sumqayıta səfərlərinin birində Prezident İlham Əliyev deyib: "Sumqayıt sovet vaxtında kimya sənayesi mərkəzi idi. Kimin ağlına gələ bilərdi ki, Sumqayıt belə gözəl, ekoloji cəhətdən təmiz şəhərə çevriləcək. İndi Sumqayıtın havası çox təmizdir. Sumqayıtda ekoloji problemlər öz həllini tapıb. Şəhərin abadlaşdırılması işi böyük zövqlə və böyük məhəbbətlə aparılır. Küçələr salınır, Sumqayıta giriş küçəsində abadlıq işləri aparılır, yaşıllıq zolaqları yaradılır, ağaclar əkilir. Yəni bunu ancaq öz şəhərini, öz xalqını sevən insanlar edə bilər". Əlbəttə, bu fikirlər gənclik şəhərində hər kəsi sevindirməklə yanaşı, məsuliyyət hissini daha da artırır. Hamı Sumqayıtın tərəqqisinə töhfələr verməyi şərəf işi sayır.

***Səhifəni hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

*Zamiq Əliyev –75*

# Ustad tarzənin könül nəğmələri

## *Onun barmaqlarından daim Müşfiqin “Oxu tar” harayı qanadlanır*

**Görkəmli Azərbaycan rəssamı Toğrul Nərimanbəyovun 1965-ci ildə çəkdiyi “Muğam” kompoziyasında tarzən, kamançalan və xanəndədən ibarət trio təsvir olunub. Onların hər üçü ifa etdikləri ecazkar musiqidən cuşə gələrək təsirləniblər. Bu yaxınlarda 75 yaşı tamam olmuş Xalq artisti, görkəmli tarzən Zamiq Əliyev barədə redaksiyadan yazı hazırlamaq tapşırığı alanda, ani olaraq həmin tablo gözlərim önündə canlandı.**




Rəsmdəki ifa zamanı az qala özünü unudan tarzəndən fərqli olaraq uzun illər ifalarını dinlədiyim qəhrəmanım həyatda olduğu kimi, səhnədə də sanballı, təmkinli, hətta ən gözəl musiqiləri ifa edərkən belə hiss və həyəcanlarını büruzə verməyən insandır.

Sözümü çox uzatmadan xalqımızın sevimlisi, istedadlı tarzənin uğur hekayətinə başlayıram. Müasir oxucu uzunçuluğu sevmədiyi üçün (elə Zamiq Əliyev də qısa və lakonik təhkiyənin tərəfdarıdır – müəllif) bu avtobioqrafik yazıda, ilk növbədə ən mühüm məqamları dilə gətirəcəyəm.

1970-ci ildə o, Mirzağa Əliyev adına Azərbaycan İncəsənət İnstitutunun 2-ci kurs tələbəsi idi. Cəmi 20 yaşı vardı. Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasına işə qəbul etmişdilər. O, filarmoniyanın nəzdində fəaliyyət göstərən Ağası Məşədibəyovun ansamblında tar çalacaqdı. Çox sevinirdi.

Evdə bu xəbərə birdən-birə inanmadılar. Bakının “Sovetski” məhəlləsində böyümüşdü. Atası adi sürücü idi, böyük bir ailə halal zəhmət ilə dolanırdı. Çox mehriban idilər. O gündən ailə üzvlərinin leksikonuna tarzən, filarmoniya, ansambl sözləri də daxil oldu. Və Zamiqdən yeni uğurlar gözləməyə başladılar.

Azərbaycanda tar ifaçılığı sənəti hər zaman güclü olub. 1970-ci illərdə isə səhnədə ları toplaşmışdı. Korifeylər bir yerdə böyük musiqi möcüzələri yaradırdı.

İllər hiss olunmadan ötüb keçirdi. İndi Zamiq Əliyevin filarmoniyanın səhnəsində ilk dəfə tar çaldığı vaxtdan düz 55 il keçir. Tarzən ona xalq sevgisi gətirən tarı heç vaxt kökdən salmadı. Hər dəfə sinəsinə şəstlə, sevgi ilə qaldırdı. Onun ifaçı kimi özəlliyi onda idi ki, onun tarında sarı sim kimi, ağ simlər ağ simlər kimi, kök simlər məhz kök simlər kimi səslənirdi. Onun çalqısı səliqəli çalğı idi.

Allah ona həm də bir virtuoz musiqiçi kimi səhnəni, bütövlükdə, duymaq, hiss etmək qabiliyyəti verib. Hətta 300-500 nəfərlik salonda tamaşaçıların hər birinin ovqatını hiss edir! Deyilənlərə görə, böyük sənətkarlarda bəsirət gözü olur. Deyirlər ki, Habil Əliyev də gözlərini yumanda səhnədə ən zəif pıçıltını belə hiss edirdi. Zamiq Əliyev də məhz belələrindəndir!

1992-ci ildə Zamiq Əliyev sənət dostları Xalq artisti Ağaxan Abdullayev və Əməkdar artist rəhmətlik Ədalət Vəzirovla (kamança) 3 aya yaxın Təbrizdə, Əhərdə, Ərdəbildə möhtəşəm konsertlər verib. Etiraf etməyə dəyər ki, İranda, həqiqətən, muğamın biliciləri və sevənləri çoxdur. Orada sənəti olmayanları səhnəyə yaxın belə buraxmırlar. Təbriz qəzetləri yazmışdı ki, “quzeyli üç sənətkarın ustad dərsləri yaddaşlardan uzun müddət silinməyəcək!”.



Hacı Məmmədov, Mənsurov, Sərvər İbrahimov və b. korifey sənətkarlar vardı. Onların cərgəsinə qoşulmaq, əlbəttə, çox çətin idi. Gənc Zamiq böyük ustadlardan öyrənə-öyrənə öz ifaçılıq yolunu, üslubunu tapmalı idi. Bu gün fəxrlə demək olar ki, Zamiq Əliyev bunu bacardı və adı ən yaxşı tarzənlərin sırasında çəkilməyə başladı.

O illərin adlı-sanlı muğam ifaçıları gənc tarzəndən səhnədə onları müşayiət etməsini rica edirdilər. “Bakılı balası” qəlbinin arzu və istəklərini, ürəyinin hərarətini tarının məlahətli səsinə calayırdı. Zamiqin kübar səhnə etikası da diqqəti cəlb edirdi.

O, tarla “əsl mücadilə”yə girmişdi. Gecə-gündüz bilmədən bu qədim çalğı alətinin sehirli pərdələri üzərində gəzişərək yeni xallar, səslər arayırdı. Tezliklə aparıcı ansamblardan cəlbedici təkliflər almağa başladı. 1974-cü ildə “Dan ulduzu” ansamblının rəhbəri, Əməkdar incəsənət xadimi Gülarə Əliyeva onu ikinci tarzən kimi rəhbərlik etdiyi kollektivə dəvət etdi. Burada düz 5 il dünyanın ən nüfuzlu konsert salonlarında Azərbaycan bəstəkarlarının bir-birindən gözəl lirik mahnılarını kollektivlə birlikdə böyük şövqlə ifa etdi.

1979-cu ildə tarzənə növbəti dəvət gəldi. Bu dəfə dünya şöhrətli müğənni, SSRİ Xalq artisti Zeynəb Xanlarova onu öz ansamblında görmək istəyirdi. Zamiq Əliyev 23 il fasiləsiz olaraq burada əvvəlcə tarzən, konsertmeyester, nəhayət, bədii rəhbər kimi çalışdı. O, ansambla Yer kürəsini qitə-qitə, şəhər-şəhər gəzdi. O günlər həyatının ən gözəl çağları idi. Ansamblda o dövrün “ən bərk gedən” instrumentalçı-

1990-cı illər onun musiqi yaradıcılığının ən qaynar dönəmi idi, uğur uğur ardınca gəlirdi. Zamiq Əliyevin yetirməsi gənc müğənni Simarə xanım üçün bəstələdiyi “Yar, bu gecə” mahnısı o dövrdə populyarlıq qazanmışdı. Tarzən bundan ruhlanıb bir-birinin ardınca çox sayda zərif mahnılar bəstələdi. Onların bir çoxu bu gün də tanınmış müğənnilər tərəfindən həvəslə ifa olunur.

1997-ci ildə isə Səmərqənddə keçirilən “Şərq ulduzları” festivalında yaxın-uzaq müsəlman ölkələrindən ən ünlü sənətkarlar toplaşmışdı. Azərbaycan muğamını Özbəkistanın bu qədim mədəniyyət mərkəzində Zamiq Əliyev və Ədalət Vəzirov və Simarə İmanova təmsil edirdilər. Orada elə parlaq çıxış etmişdilər ki, münsiflərin birinci yer üçün seçim etmələrinə ehtiyac qalmamışdı. Festivalın ən yüksək “Qran-pri” mükafatı alqış sədaları altında azərbaycanlı sənətçilərə təqdim edilmişdi.

Ulu öndər Heydər Əliyev tarzən Zamiq Əliyevin ifaçılıq sənətinə böyük dəyər verirdi. Dahi siyasətçi bir çox rəsmi və dövlət səfərlərində Zamiq Əliyevin rəhbəri olduğu muğam üçlüyünü də özü ilə aparmışdı. Bu unudulmaz səfərlər bir tarzən və vətəndaş olaraq onun qəlbində görkəmli dövlət xadiminə sonsuz inam və məhəbbət hissi doğurmuşdu. O, bütün bu hiss və duyğularını 2008-ci ildə qələmə alaraq nəşr etdirdiyi “Heydər Əliyev 85. Səhnəarxası görüşlər” kitabında dolğun şəkildə əks etdirməyə çalışıb.

Zamiq Əliyev özünü televiziya aparıcılığı sahəsində də sınamışdır. “Lider” televiziyasında 2005-2011-ci illərdə “Qızıl səslər”, “İncilər”, 2019-cu ildən 2020-ci ilədək “İnstrumental aləm” adlı müəllif proqramının müəllifi və aparıcısı olmuşdur. Kifayət qədər populyarlıq qazanan bu verilişlərdə hər dəfə Azərbaycan tarının yaranması və təkamülü tarixindən ürəkdolusu söhbət açmış, muğamlarımızın özəlliklərini incələmiş, gənc ifaçılara öz dəyərli tövsiyələrini vermişdir.

O, tələbələrlə işləməyi sevən sənətkarlardandır. 2000-ci ildən Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində “Xalq çalğı alətləri” kafedrasında baş müəllim, dosent, müəyyən müddət kafedra müdiri vəzifələrində çalışmışdır. 2013-cü ildən həmin kafedranın professorudur. Tələbələrinin hər birini çox sevir. Onları daim inandırmağa çalışır ki, hər bir uğurun kökündə istedadla yanaşı gərgin əmək, həvəs və zəhmət dayanır.

Azərbaycan dövləti istedadlı tarzən Zamiq Əliyevin milli incəsənətimizin inkişafındakı xidmətlərini yüksək dəyərləndirmişdir. O, 1998-ci ildə ildə Əməkdar artist, 2007-ci ildə Xalq artisi fəxri adlarına layiq görülmüşdür. Azərbaycan Respublikasının Prezidentinin fərdi təqaüdçüsüdür. Sənətkar söylədi ki, əməyinə verilən bu yüksək qiymətə görə Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya sonsuz dərəcədə minnətdardır.

2022-ci ildə Azərbaycan Televiziyası tərəfindən çəkilmiş “Musiqili ömrün fəsilləri” filmi ustad tarzənin həyat və yaradıcılığına həsr olunmuşdur. Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi Firəngiz Əlizadə, bəstəkar Eldar Mənsurov, Xalq artistləri Habil Əliyev, Əlibaba Məmmədov, Mənsum İbrahimov və digərlərinin onun barədə fikirləri filmdə geniş yer almışdır. Tarzən üçün sənət dostlarının rəy və düşüncələri çox əziz və dəyərlidir.

...Sevimli, “təbii rəvan şairimiz” Müşfiq “Oxu tar” şeiri ilə hələ ağır repressiyaların tüğyan etdiyi dövrdə tara əbədi heykəl ucaltmışdır. Bu məqamda Müşfiqdən bir neçə misra səsləndirməmək günah olardı:

***Oxu, tar, oxu tar!…***
***Səsindən ən lətif şeirlər dinləyim,***
***Oxu tar, bir qadar,***
***Nəğməni su kimi alışan ruhuma çiləyim.***
***Oxu tar!***
***Səni kim unudar?***

Əziz oxucu, Azərbaycan musiqisini tarsız, muğamsız təsəvvür etmək qeyri-mümkündür. Nə yaxşı ki, tarımız, muğamımız var, nə yaxşı ki, tarın, muğamın hörmət və izzətini yüksəklərə ucaldan ustad sənətkarlarımız var. Onlar hər zaman olub və olacaq! Zamiq Əliyev də öz parlaq istedadı ilə milli tar ifaçılığında özünə layiqli yer qazanan xoşbəxt tarzənlərdəndir.

Bir müddət əvvəl Beynəlxalq Muğam Mərkəzində Xalq artisti Zamiq Əliyevin anadan olmasının 75, yaradıcılığının 55 illiyinə həsr olunmuş gözəl bir ədəbi-bədii musiqi məclisi təşkil olunmuşdu. Yadımdadır, həmin gecə çıxışçıların çoxu yubilyar barədə düşüncələrini bu sözlərlə bitirdi: Əziz Zamiq müəllim, tar sinənizdən heç vaxt düşməsin. Yubilyarın yaxın dostu olaraq “XQ”-nin redaksiyası da bu səmimi arzuya ürəkdən qoşulur!

***Məsaim ABDULLAYEV***
***XQ***

**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Kalvalı Əli Dədənin anadan olmasının 150 illiyinə həsr olunan I Beynəlxalq Türk Dünyası Ənənəvi Musiqi və Mədəni Kimlik Simpoziumu işə başlayıb.**

# AMEA-da beynəlxalq musiqi simpoziumu



AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Folklor, Memarlıq və İncəsənət institutları, Milli Konservatoriya, Ankara Musiqi və Gözəl Sənətlər, Erzincan Binəli Yıldırım, Qars Qafqaz, Xoca Əhmət Yesevi Beynəlxalq Türk-Qazax universitetləri, Azərbaycan Aşıqlar Birliyi və Beynəlxalq Muğam Mərkəzinin birgə təşkil etdiyi məclisin iştirakçılarını salamlayaraq açılış nitqi söyləyib.

AMEA rəhbəri qeyd edib ki, simpoziumun məqsədi Türk dünyasının zəngin musiqi folklorunun, xüsusilə balaban, zurna və saz kimi qədim musiqi alətlərinin tarixi köklərinin, mədəni kimlikdəki yerinin və kollektiv yaddaşdakı izlərinin elmi müstəvidə araşdırılması, bu baxımdan zurna-balaban məktəbinin görkəmli nümayəndəsi, Kalvalı Əli Dədə kimi tanınan Əli Kərimovun yaradıcılığına ümumtürk musiqi ifaçılığı çevrəsində nəzər salınmaqdır.

Akademik deyib ki, el sənətkarlarının və ənənəvi ifaçıların irsinin araşdırılmasına, xüsusən qarmon, zurna, balaban, qaval kimi alətlərin daha geniş tanıdılmasına böyük ehtiyac var. O, Kalvalı Əli Dədənin zurna, balaban və tütək kimi nəfəs alətlərinin mahir ifaçısı olduğunu, 70-dən çox rəqs havasının müəllifi kimi böyük bir məktəb yaratdığını xatırladaraq, onun sənətinin bu gün də həm davamçıları, həm də ailə üzvləri tərəfindən yaşadıldığını qeyd edib.




Sonra Türk Mədəniyyəti və İrsi Fondunun aparat rəhbəri, tarix elmləri doktoru Fəxri Hacıyev qurumun prezidenti Aktotı Raimkulovanın məclisə ünvanladığı məktubu səsləndirib. Azərbaycan Milli Konservatoriyasının rektoru professor Kamilə Dadaşzadə simpoziumun türk xalqlarının mədəni inteqrasiyası, elmi əməkdaşlıq mühiti və ortaq mədəni dəyərlər ətrafında sıx birləşməsi üçün mühüm platforma yaratdığını bildirib.

ADPU-nun prorektoru professor Mahirə Hüseynova Kalvalı Əli Dədənin irsinin gənc nəslə tanıdılmasının vacibliyinə toxunaraq bildirib ki, 150 il əvvəl “kalvalı” olmaq böyük sənətkarlıq, dərin mənəvi dəyərlər və ustalıq tələb edirdi.

Kalvalı Əli Dədə ifaçılığının “Heyvagülü”, “Alma gülü”, “Alça gülü”, “Bənövşə”, “Kalvalı”, “Çəmənlik”, “Mehribanı”, “Dağ çiçəyi”, “Xırdaca” kimi havaları çağdaş zurna-balaban sənətinin davamçıları üçün örnəkdir.

Ankara Musiqi və Gözəl Sənətlər Universitetinin rektoru, professor Erhan Özden, Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru Hikmət Quliyev və Özbəkistanın Xarəzm Regional Pedaqoji Bacarıqlar Mərkəzinin direktoru, dosent Jasurbəy Salayev belə simpoziumların türk milli yaddaşının, musiqi düşüncəsinin və folklor irsinin öyrənilməsi baxımından son dərəcə önəmli olduğunu söyləyiblər. Onlar qeyd ediblər ki, milli musiqi xalqın özünüdərki, etnik fərqlənməsi və mədəni özəlliyinin qorunması baxımından aparıcı mənəvi dəyərlərdəndir.

Kalvalı Əli Dədənin ailəsi adından çıxış edən Folklor İnstitutunun aparıcı elmi işçisi, dosent Elçin Qaliboğlu ustad sənətkarın yaradıcılığına verilən dəyərə görə təşəkkürünü bildirib.

Bədii hissədən sonra müxtəlif mövzularda elmi məruzələr dinlənilib, müzakirələr aparılıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

# “Əkinçi ” qəzetinin irəvanlı dostları

**XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan maarifçilik hərəkatında, ictimai-siyasi, ədəbi-mədəni, elmi-nəzəri düşüncəsində milli intibaha geniş yol açdı. Təbiətşünas alim, maarifçi-demokrat Həsən bəy Zərdabinin redaktorluğu ilə 1875-ci il iyul ayının 22-də ana dilində nəşr olunmuş “Əkinçi” qəzeti bu oyanışın ilk qaranquşlarından idi.**

İrəvan ziyalıları “Əkinçi”nin nəşrindən 4 il qabaq Həsən bəy Zərdabinin ana dilində qəzet nəşr etmək üçün ciddi mücadilə apardığından məlumatlı idilər. Həsən bəy yaratdığı xeyriyyə cəmiyyətinə kömək məqsədilə 1871-ci ilin yayında tələbəsi Nəcəf bəy Vəzirovla birlikdə Cənubi Qafqazın bir sıra şəhərlərinə səfər etmişdi. O, İrəvanda yaşayıb-yaradan ziyalılarla – Axund Məhəmmədbağır Qazızadə, Mirzə Ələkbər Elxanov, Məşhədi İsmayıl Hacı Kazımzadə, Abdulla xan, Abasqulu xan İrəvanski, Mirzə Kazım Qazi Əsgərzadə və başqaları ilə keçirdiyi görüşlərdə bu barədə fikir mübadiləsi aparmışdı. Qafqazda çıxan bəzi qəzetlər Həsən bəyin bu nəcib təşəbbüsünün əhəmiyyəti ilə bağlı məlumatlar dərc etmişdi.

Nəhayət, “Əkinçi”nin nəşrə başlaması münasibəti ilə İrəvan ziyalılarından, həm də qəzetin bölgə üzrə təmsilçisi olmuş Mirzə Kazım Qazi Əsgərzadə Həsən bəyə göndərdiyi təbrik məktubunda onun əsl millət fədaisi və tərəqqi aşiqi olduğunu, bu yoldakı əziyyətini yüksək qiymətləndirərək yazmışdı: “Müəllimi-mədrəseyi-darülfünuni-Badkubə cənab Həsən bəy Zərdabi özünün və əhli-məmləkətinin haləti-haliyyəsi və mayəhtacının qeyri-fərahəm olduğu ilə yeni “Əkinçi” qəzetinin binasını qoyubdur və nə qərar zəhmətlər çəkibdir ki, onu çəkməyən bilməz”. Mirzə Kazım Qazi Əsgərzadənin Həsən bəyə ünvanladığı məktubunda ona həsr etdiyi “Əkinçi”nin bina olması münasibətilə” adlı şeiri bu cəhətdən maraqlıdır:

*Ey edən qəzetilə hər şəhrə gövhərlər nişar,*
*Kənzi-məxfi imişsən əvvəl, indi oldum aşkar.*

*Adını qoydun “Əkinçi”, dəhrdə xoş qoydun ad,*
*Eylədin bu ad ilə hər şurəzarı laləzar.*

*Ey qoyan elmi-ədəb şəhrinə bir asan bina,*
*Ey çəkən imlavü inşa mülkünə möhkəm hasar.*

*Ey Həsən bəy, ey cənabi-xacə, ey bəhrül-ülüm,*
*Ey tapan hər fəndə həddindən artıq iştihar.*

Mirzə Kazım Qazi Əsgərzadə həmin məktubu və bu şeirinin “Əkinçi” qəzetində çap olunmasını Həsən bəydən xahiş etsə də, hansısa səbəbdən nəşr olunmamışdır.

“Əkinçi” qəzetinin uğurlu fəaliyyəti, qısa zaman ərzində artan nüfuzu onun yayılma çevrəsini daha da genişləndirmiş, Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərini və digər bölgələri də əhatə etmişdir. İrəvanda yaşayıb-yaradan, ictimai-mədəni həyatın önündə gedən ziyalılar, qələm sahibləri, eləcə də “Əkinçi”nin İrəvan üzrə təmsilçiləri – Məşədi İsmayıl Hacı Kazımzadə “Bəzmi”, Məhəmmədəli bəy Məşhədi Əsədulla bəy oğlu “Məxfi” kimi şairlər qəzetdə müxtəlif janrlı bədii nümunələr çap etdirirdilər.

“Əkinçi” qəzetinin irəvanlı müxbirlərindən “Sabir” təxəllüslü şair, jurnalist Hacı Seyid Rza Əmirzadənin adını xüsusi qeyd etmək lazımdır. Hacı Seyid Rza İrəvana gəlməmişdən əvvəl bir müddət Bakıda “Əkinçi” qəzetində işləmişdir. O, “Əkinçi”nin işıq üzü görməsi münasibətilə Həsən bəy Zərdabinin xalqa bəxş etdiyi ilk qəzeti və onun milli qeyrətini təsvir edərək yazırdı:

*Mərhəba, ey Həsən bəy aqil,*
*Elm hikmətdə qabili-kamil,*
*Ba fəhm olmağında söz yoxdur,*
*Oldu məlum ki, qeyrətin çoxdur.*

*Əhli-Qafqazı etmisən xoş-nud,*
*Əhli sayəndə olmuşuq məsud...*

Qərbi Azərbaycanın müxtəlif bölgələrindən – İrəvandan Məhəmməd Xanla-rov, Üçmüədzindən Yaqub Mirzə Məmməd oğlu Əlibəyov, Dərəçiçəkdən Ələkbər bəy Sultanov və başqa ziyalılar “Əkinçi” ilə əməkdaşlıq etmiş, qəzetin bölgələrdə yayılmasına, geniş oxucu cəlb etməsinə ciddi səy göstərmişlər. Abbasqulu xan İrəvanski, Cəfər xan Makinski, Ələkbər bəy Ağalarov, Bəhram bəy Makinski, Əli bəy Məmmədbəyov, Mirzə Ələkbər Elxanov “Əkinçi” qəzetinin abunəçiləri olmuşdular.

“Əkinçi”nin səhifələrində İrəvanın ictimai, sosial və mədəni həyatına dair yazılar dərc edilmişdir. Milli mətbuatımızın bünövrəsi olan, cəmi 56 nömrəsi işıq üzü görən “Əkinçi” qəzeti xalqımızın milli oyanışına və mənəvi inkişafına töhfələr vermiş, elm və təhsilin təbliğində, milli özünüdərkin yüksəlməsində böyük xidmətlər göstərmişdir.

Lakin “Əkinçi” qəzetinin nəşri erməni millətçilərini ciddi narahat etmişdir. 1877-ci ildə Rusiya-Türkiyə müharibəsinin qızğın dövründə Bakı quberniya mətbəəsinin mürəttibi, milliyyətcə erməni olan Minasov



“Əkinçi” qəzetinin Rusiyaya etimadsızlıq, Türkiyəyə isə açıq rəğbət göstərməsi barədə rəy yaratmışdı. Onun yazdığı donos nəticəsində Həsən bəy Zərdabi sıxışdırılmış və “Əkinçi”nin nəşri dayanmışdı. “Əkinçi”nin bağlanması İrəvanda yaşayan azərbaycanlıları da məyus etmişdir.

***Cəlal ALLAHVERDİYEV,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

*Səfər təəssüratları*

# İki fərqli Çin – Avropa mənzərələrindən imperatorlar tarixinə səfər

*(əvvəli qəzetin 1 və 14 noyabr tarixli saylarında)*

**Çinin Şərq sahillərində yerləşən Tsindao bizə müasirliyin, təravətli dəniz küləyinin və Avropa memarlığının qarmaqarışıq mənzərəsi içində yaşayan şəhər kimi görünmüşdü – dalğaların səsi, küçə kafelərinin xoş qoxusu, sahil boyunca uzanan sakitlik… Lakin səfərin növbəti dayanacağı bu əhvalı tam dəyişdi. Burada ilk andan etibarən hiss edirsən ki, zaman başqa cür axır. Sanki, bir qapıdan keçib Çinin dəniz kənarı gələcəyindən, qədim imperiyalar nəfəsi ilə yoğrulmuş keçmişinə düşürsən.**



### Sian – imperatorlar şəhəri

3100 ildən çox yaşı olan, Çinin ən qədim və ən önəmli şəhərlərindən biri sayılan Sian şəhəri əsrlər boyunca Çjou, Tsin, Xan, Suy və Tan sülalələrinin paytaxtı olub, Çin tarixinin formalaşmasında mühüm rol oynayıb. Bu gün Sian Şensi vilayətinin mərkəzi, 13 milyon əhalisi olan müasir meqapolisdir. Şəhər son onilliklərdə təhsil, sənaye və texnologiya sahələrində böyük inkişaf göstərib. Sürətli dəmir yolu xətti, metro sistemi və iri biznes mərkəzləri Sianı Çinin ən inkişaf etmiş şəhərlərindən birinə çevirib.

Tarixən Sian həm də Böyük İpək Yolunun başlanğıcı olub. Bu səbəbdən buraya dünyanın müxtəlif yerlərindən tacirlər gəlib, Sian isə Çin mədəniyyətini, necə deyərlər, qərbə daşıyıb. Buddizm də məhz bu yol vasitəsilə şəhərə gəlib və sonradan ölkəyə yayılıb. Hazırda Sian və ətrafında çoxsaylı buddist məbədləri var. Şəhərdə islam və xristianlıq da geniş yayılıb.

Sian tarix və memarlıq abidələri ilə zəngindir, lakin şəhərin ən məşhur tarixi obyekti imperator Sin Şi Xuaŋdının məqbərəsi və Terrakota Ordusudur. Sianın yaxınlığında yerləşən bu nəhəng kompleks 60 kvadratkilometr ərazini əhatə edir və minlərlə insanın 40 ildən çox əmək sərf etdiyi yeraltı şəhəri xatırladır. 13 yaşında taxta çıxan Sin Şi Xuaŋdi Çin torpaqlarını birləşdirərək ölkənin ilk imperatoru kimi hörmətlə anılır. Bu da əbəs deyil – o, vahid pul və ölçü sistemi yaradıb, yazı standartlarını müəyyənləşdirib və Çin səddinin ilkin hissələrini birləşdirib. Bununla yanaşı, ölümündən sonra da "həkimiyyətini davam etdirmək" üçün özünə möhtəşəm məqbərə hazırlatdırıb. O məqbərə ki, hazırda Sian şəhərinin turizm sənayesinin orbiti sayılır.

### Axirət döyüşçüləri

1974-cü ildə su axtarılarkən təsadüfən tapılan terrakota əsgərləri dünyanın ən böyük arxeoloji kəşflərindən biri sayılır. İki il sonra intensiv arxeoloji qazıntılar başlayıb və 8000-dən çox fiqurdan ibarət Terrakota Ordusu aşkar edilib. Gil döyüşçülərin yerləşdiyi yeraltı tikililərin 4 sektoru aşkar edilib və hər biri düzbucaqlı otaqdan ibarət olub. Ən böyüyü olan birinci sektor 14260 kvadratmetr sahəni tutur. Piyada və arabaçılar şərqə doğru döyüş mövqeyində düzülüblər. Bu gündək 8 mindən çox əsgər fiquru, atlar və yüzlərlə silah aşkar edilib. Kompleksin çox hissəsi hələ də açılmayıb, çünki arxeoloqlar abidənin zərər görməməsi üçün ehtiyatla işləyirlər. Maraqlıdır ki, 8 min əsgər heykəlin hər birinin sifət cizgiləri unikaldır, yəni heykəllər bir-birilərinə oxşamır! Heç iki fiqurun bir-birinin eyni olmadığı elmi tədqiqatlarla təsdiqlənib.

Maraqlıdır ki, bu fərqlilik təsadüfi deyil. Qədim ustalar hər bir heykəli real insan surətinə bənzətməyə çalışıblar. Əsgərlərin simalarında müxtəlif etnik xüsusiyyətlər, fərqli yaş, xarakter və rütbə əlamətləri sezilir. Məsələn, zabitlərin geyimləri daha zərif və bəzəklidir, başlarında fərqli papaqlar və ya zirehli dəbilqələr olub, adi əsgərlərin isə sadə geyimləri, daha sərt, bəzən yorğun simaları var. Tədqiqatçılar hesab edirlər ki, bu fərqlilik Sin Şi Xuandinin ordusunun real modelini əks etdirir. Yəni Terrakotta Ordusu, sadəcə, simvolik rituallıq deyil, eyni zamanda, tarixi və etnoqrafik baxımdan çox dəyərli bir sənəddir. Onun vasitəsilə alimlər eramızdan əvvəl III əsr Çin ordusunun strukturunu, geyim üslubunu, hətta döyüş nizamını öyrənə biliblər.

Heykəllərin bu qədər fərqli hazırlanması həm də o dövrün sənətkarlıq səviyyəsini və texniki imkanlarını göstərir. Ustalar fiqurların gil qəliblərdə əsas formalarda hazırlayır, sonra isə hər birinə əl ilə üz cizgiləri, saqqal forması, saç düzümü və geyim detalları əlavə ediblər. Əvvəllər bu fiqurlar parlaq rənglərlə boyanıb, lakin əsrlər ərzində boya qatı təbii şəraitin təsirindən itib. Döyüşçülər içi boş gil heykəllərdir. Hər fiqurun çəkisi 130 kiloqramdan çox, hündürlüyü isə 180-190 santimetrdir.

Beləliklə, terrakotta əsgərlərinin bir-birindən fərqlənməsi təsadüfi bədii seçim olmayıb, bu, imperatorun əbədi ordusunu mümkün qədər real və canlı göstərmək arzusunun nəticəsidir. Sin Şi Xuandi istəyib ki, axirət dünyasında da onun qarşısında müxtəlif tayfalardan gələn, fərqli simalara malik, amma eyni məqsədə - imperatora xidmətə sədaqətli döyüşçülər dayansın. Terrakotta ordusunun bir-birindən fərqli olması həm də Tan İmperiyasının çoxmillətli quruluşunu əks etdirir. O dövrdə imperiyanın tərkibində onlarla müxtəlif tayfa və bölgə vardı, onların hər birindən əsgərlər toplanırdı. Heykəllərin fərqli sifətləri bu etnik müxtəlifliyin bədii izidir.

Bu ordu həm də qədim Çin insanının ölümə münasibətini, əbədiyyət anlayışını göstərir. Sin Şi Xuandi inanırdı ki, insan ruhu ölmür və yeni dünyada da səltənətini qorumağa davam edəcək. Onun üçün bu ordu yalnız qoruyucu deyil, həm də ölümsüzlüyün simvolu idi. Elə Sian səfərinin ən həlledici anı da şübhəsiz ki, Terrakotta Ordusu kompleksinə daxil olduğumuz andan başladı. Sanki oxuduğumuz tarix kitabları, sənədli filmlər bir anda real ölçülərdə qarşımızda dirildi. Girişdə böyük turist axınına baxmayaraq, havada qəribə bir sakitlik hiss olunur. Bəlkə də bunun səbəbi insanların eyni anda həm heyranlıq, həm də ehtiram duyub susmasıdır. İlk pavilyona daxil olanda bu hiss daha da güclənir - gözlər önündə minilliklərdən gələn nəhəng bir səhnə açılır. Çuxurun içində yüzlərlə terrakotta əsgəri… Fərqli baxış, fərqli üz cizgisi, fərqli duruş. İnanmaq olmur ki, bu misilsiz bir sənətkarlıq, amma arxasında sarsıdıcı bir fakt dayanır: seyr etdiyimiz heykəllər imperatorun axirət dünyasında onu qorumaq üçün əsl ordu kimi planlaşdırılmış məzar kompleksinin ayrılmaz hissəsidir!

Kompleksin ikinci və üçüncü zalları daha kiçik olsa da, epizodlar kimi bütöv mənzərəni tamamlayır. Burada generalların, döyüş arabalarının, at fiqurlarının bərpa prosesini göründə bir daha anlayırsan ki, Terrakotta Ordusu ümumən bəşəriyyət irsinin ən möhtəşəm arxeoloji tapıntılarından biridir. Əlbəttə, Terrakotta Ordusu kompleksini ziyarət təkcə reportaj materialı kimi dəyərli deyil, həm də tarixin içində addımlamaq və sükuta bürünmüş bir ordunun gözləri ilə keçmişə baxmaq imkanıdır.

Məzarın ətrafındakı gil heykəllərin yerləşdiyi dəfn otaqlarının aşkarlanmasından 2000 ildən çox vaxt keçib. Bu müddət ərzində yerin ağırlığının yaratdığı təzyiq, eləcə də müntəzəm daşqınlar fiqurları ciddi şəkildə sınağa çəkib. Nəticədə arxeoloqlar və bərpaçılar ordunu, sözün əsl mənasında, hissə-hissə yenidən yığmaq məcburiyyətində qalıblar. Bəzi nümunələr 200-dən çox fraqmentə parçalanıb. Müasir elmi yanaşmalardan istifadə edərək, Çin tədqiqatçıları Terrakotta Ordusunun bərpası və qorunması üçün hər cür yeni metodlar hazırlamağa davam edirlər.

Kompleksi tərk edəndə bələdçidən soruşuruq ki, bəs bu ordunun "sahibi" olan imperatorun məqbərəsi haradadır və onu ziyarət edə bilərikmi? Cavabı maraqlı oldu: Məqbərə çox mürəkkəb struktura malikdir, o tam açılarsa, içərideki artefaktları oxşar vəziyyətdə qorumaq üçün hazırda lazım olan texnologiya yoxdur. Bundan başqa, qədim Çin mənbələri məqbərənin içində çay və göllərin təqlid edən civə axınlarının olduğunu yazırlar. Müasir geofiziki ölçmələr də torpağın altında həddindən artıq yüksək civə konsentrasiyası olduğunu təsdiqləyir. Bu həm arxeoloqlar üçün təhlükə yaradır, həm də məqbərənin açılmasının risklərini artırır.

Məqbərənin açılmamasının siyasi və mədəni amilləri də var. Məsələ ondadır ki, Tsin Şi Xuandi Çin tarixində son dərəcə simvolik şəxsiyyətdir, onun məqbərəsinin açılması böyük ictimai və mədəni məsuliyyət tələb edir. Məsələyə həm də fəlsəfi meyarlarla yanaşmaq olar: torpaq layları altında zaman çökmüş vəziyyətdədir və orada heç nə qocalmır, çünki heç nə hava almır. Hər daş, hər naxış, hər qızıl lövhə o günün son anını – Tan İmperiyasının nəfəsinin dayanıb əbədiyyətə qarışdığı anı qoruyur. Bəlkə də məhz buna görə çinlilər bu məqbərəni açmağa tələsmirlər. Çünki orada bir imperatorun ölməzlik arzusu, sirləri, ruhu dolaşır. O sirr hələ də torpağın altında yaşayır və hər kəs bilir ki, bir gün məqbərənin qapıları açılarsa, bu, təkcə arxeoloji deyil, həm də mənəvi dünyanın qapısının açılması olacaq.

Sian bu gün həm qədim tarixini qoruyan, həm də müasir həyatla inkişaf edən xüsusi bir şəhərdir. Buraya gələn hər kəs Çinin minillik ruhunu və müasir dinamizmini eyni anda hiss edə bilər. Ona görə də çinli bələdçilər deyirlər ki, əgər Sianda olmamısınızsa, Çinin nə olduğunu bilməyəcəksiniz. Buna görə də 13 sülalənin paytaxt seçdiyi Sianın hər birimizdə böyük təəssürat doğurması təəccüblə qarşılanmadı. Ənənəvi blogerlərdən birinin dediyi kimi, "Sianın sirləri kitabda yox, küçələrdə gizlidir". Həqiqətən də hər dönən küçə yeni bir hekayə açırdı. İpək Yolunun bütün əfsanələri də elə bu şəhərdə "doğulub". Şərqdən Qərbə uzanan, ipəyi, kağızı, ədviyyatı və ideyaları daşıyan karvanların ilk izləri məhz bu torpaqda qoyulub. Bir zamanlar buradan çıxan ticarət yolları yalnız mal daşımayıb - sivilizasiyanın özünü aparıb.



### Sianın çağdaş üzü

Siana səfərimiz çərçivəsində Şensi əyalətinin televiziya kanalını ziyarət etmək fürsəti əldə etdik. Kanalın binasına daxil olan andan etibarən jurnalistika dünyasının canlı enerjisi bizi bürüdü. Hər bir künc, mikrofonlar, kamera aparatları, montaj otaqları, redaksiya masaları – sanki bir şəhərin özəl ritmi burada nəfəs alırdı. Redaksiya otağında jurnalistlərin fəaliyyətini izləyərkən onların sürətli qərarvermə bacarığı, məlumatları ani şəkildə analiz edib təqdimetmə qabiliyyəti diqqətimizi çəkdi. Tez-tez monitorlar üzərində xəbərlər axır, operatorlar kameraları ilə səhnələri izləyir, redaktorlar isə, eyni zamanda, səhnələrin yazılarını yoxlayırdı. Burada hər kəs bir simfoniyanın notları kimi ahəngdar işləyirdi.

Kanal rəhbərliyi Şensi əyalətində xəbər istehsalının incəliklərindən danışdılar. Regional xəbərlərin hazırlanmasında həm milli siyasət, həm də lokal problemlərin diqqətlə balanslaşdırıldığını öyrəndik. Jurnalistlər, həmçinin, sosial media və televiziya xəbərlərinin birgə işlənməsinin vacibliyini vurğuladılar, çünki izləyici həm sürətli, həm də dəqiq informasiyaya ehtiyac duyur. Ziyarət zamanı biz həm texnologiyanın, həm də insan faktının jurnalistika işində nə qədər önəmli olduğunu müşahidə etdik. Kameralar və montaj proqramları xəbərləri sürətlə auditoriyaya çatdırır, amma bütün prosesin mərkəzində məlumatın obyektivliyi və peşəkarlıq dayanırdı.

Əlbəttə, televiziya kanalı, sadəcə, xəbərlərin çatdırıldığı yer deyil, həm də bir regionun gündəlik həyatının, problem və uğurlarının aynasıdır. Bu ziyarət bizə jurnalistikanın yalnız texnika ilə deyil, həm də insan təcrübəsi, analitik düşüncə və əzmkarlıqla qurulduğunu göstərdi.

### Pekinə qayıdış

Tsindao və Sian şəhərlərindəki zəngin təəssüratlardan sonra Pekinə qayıtdıq. Şəhərin müasir küçələri və tarixi məkanları arasında keçirdiyimiz günlər boyunca əldə etdiyimiz müşahidələr, həm də seminar çərçivəsində öyrəndiklərimiz iştirakçılar arasında canlı müzakirələrə çevrildi. Çinli mühazirəçilər növbəti iki gün ərzində beynəlxalq kommunikasiya və xəbər materiallarının hazırlanması sahəsində Çin təcrübəsini bölüşdülər. Mühazirələr Çin media mühitinin incəliklərini və xəbər istehsalının sirlərini daha yaxından anlamağa imkan yaratdı.

Seminarın yekun mərasimində çıxış edən Çin Ticarət Nazirliyinin xarici yardımlar üzrə direktor müavini Çjen Minyuan tədbirin əhəmiyyətini vurğuladı. O, belə seminarların ölkələrarası əməkdaşlığı gücləndirdiyini, iştirakçıların yeni bilik və bacarıqlar əldə etməsinə şərait yaratdığını bildirdi və Pekinin gələcəkdə də bu cür proqramları davam etdirəcəyini açıqladı.

Sonda iştirakçılara sertifikatlar təqdim olundu. Bu an həm fərdi uğurun, həm də beynəlxalq əməkdaşlığın simvolu kimi yadda qaldı. Səfər yalnız Çin mədəniyyəti və iş təcrübəsi ilə tanış olmaqla kifayətlənmədi, həm də beynəlxalq kommunikasiya və media sahəsində yeni perspektivlər açdı. Hər birimizin bu təcrübəni həm peşəkar, həm də şəxsi inkişaf yolunda dəyərli bir resurs kimi unutmayacağımıza əminəm. Çünki 12 gün ərzində Çinin zəngin mədəni irsini və müasir inkişafını duymaq imkanı qazandıq, əldə etdiyimiz bilik və təcrübə isə gələcək fəaliyyətlərimiz üçün dəyərli bir bələdçi olacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

*Xuntaçıların məhkəməsi*

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin ifadələri dinlənilib

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi noyabrın 21-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavab verən zərərçəkmiş Bəylər Şabanov qeyd edib ki, Suqovuşandan Ağdərə-Kəlbəcər istiqamətində hərəkət edərkən Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən içərisində olduqları "Niva" markalı avtomobilə atəşlər açılıb. Hadisə nəticəsində avtomobilə ciddi ziyan dəyib.

Zərərçəkmiş Kənan Rzazadə bildirib ki, Kəlbəcər rayonu ərazisində üzərində fərqlənmə nişanı olan tibbi yardım maşınında hərəkətdə olan zaman düşmən tərəfindən avtomobilin minaatan mərmisi ilə vurulması nəticədə o və həmin vaxt yanında olan Elvin Süleymanov yaralanıb.

Hasil Talıbov diqqətə çatdırıb ki, Zəngilan rayonu ərazisində düşmənin təxribatı nəticəsində Fərid Mehbalı və Elşən Babazadə həlak olub, o, İlkin Vasalov, Mehdi Yusifov və daha bir neçə nəfər müxtəlif xəsarətlər alıb.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş Zamin Əmrəli qeyd edib ki, Zəngilan rayonu ərazisində düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində Fərid Rüstəmov və Nahid Məmmədov həlak olub, o, Fərid Məmmədov, Saleh Həsənov və daha bir neçə şəxs yaralanıb.

Zərərçəkmiş Orxan Ələsgərov ifadəsində bildirib ki, Kəlbəcər rayonunda düşmənin açdığı artilleriya atəşi nəticəsində xəsarət alıb, həmin vaxt yanında olan Sərxan Ömərov isə həlak olub.

Zərərçəkmiş İbrahim Mayıllı qeyd edib ki, Zəngilan rayonu ərazisində düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində Fərid Mehbalı, Təbriz Rəhimov həlak olub, o, Rahib Məmmədov, Seymur Həsənli və daha bir neçə nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Alim Məhərrəmov bildirib ki, Qubadlı rayonu ərazisində düşmənin basdırdığı minaların təmizlənməsi işləri ilə məşğul olan zaman partlayış baş verib. Hadisə nəticəsində o, V.Nağıyev, E.Əlişanov və V.İbrahimov müxtəlif xəsarətlər alıblar.

Zərərçəkmiş Fərid Şahbazov bildirib ki, Ağdam rayonunun Əliağalı kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan minaatan mərmilərinin yaxınlığına düşüb partlaması nəticəsində o, Sadiq Şəkərov və Murad Əliyev yaralanıblar.

Zərərçəkmiş şəxs Pərviz Şirinov qeyd edib ki, Ağdərə rayonunun Canyataq kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan qumbaranın yanında partlaması nəticəsində o, Elnur Soltanov və Sadiq Həmidov xəsarətlər alıblar.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavab verən zərərçəkmişlər - Murtuz Namazov və Məhəmməd Gilmizliyev bildiriblər ki, Zəngilan rayonu ərazisində meşə yolunda düşmənin basdırdığı minanın partlaması nəticəsində xəsarətlər alıblar. M.Namazov başından yaralanıb, M.Gilmizliyevin isə sağ ayağı dizdən amputasiya olunub.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş Sərxan İsgəndərov qeyd edib ki, Ağdərə rayonunun Gülyataq kəndi ərazisində düşmən tərəfindən avtomat silahdan açılmış atəşlər nəticəsində yaralanıb.

Zərərçəkmişlər Abdul Məlikov, Mərdan Allahverdiyev və Sahil Rəsulov bildiriblər ki, Ağdərə rayonunun Vəngli kəndi ərazisində yerləşən Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan artilleriya mərmisinin və əl qumbaralarının yaxınlıqlarına düşərək partlaması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Həmin hadisədə Zamin Həsrətov, Bayram Hüseynov, Tamerlan Rəşidli, Sübhan Abbasov, Rəvan Məmmədov, Emin Cəfərov da yaralanıblar.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş Ramil Manafov qeyd edib ki, Zəngilan rayonu ərazisində düşmənin açdığı atəşlər nəticəsində xəsarət alıb.

Samir Əkbərov dedi ki, Ağdam rayonu ərazisində düşmənin basdırdığı minanın partlaması nəticəsində xəsarət almış şəxslərin təxliyəsi zamanı özü və yanında olan bir neçə şəxs də minaya düşüb və partlayış nəticəsində yaralanıblar.

Zərərçəkmiş Rüstəm Rüstəmov isə ifadəsində qeyd edib ki, Ağdərə rayonu ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılan atəşlər nəticəsində yaralanıb.

Ramal Bədəlli və Xəyal Hacıyev də ifadələrində müxtəlif istiqamətlərdə düşmən tərəfindən açılmış atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Daha sonra məhkəmə prosesi cinayət işi materiallarında olan sənədlər və digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası noyabrın 24-nə təyin olunub.

***XQ***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 248 (30942) 22 noyabr 2025-ci il, şənbə

## İDMAN

## Sərbəst güləşçilərimizin İslamiada medalları



**Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən İslam Həmrəyliyi Oyunlarında güləş yarışlarına yekun vurulub. Azərbaycan sərbəst güləşçisi Arseniy Djioyev (86 kq) finalda Bəhreyn idmançısı Xıdır Saypudinova 5:1 hesabı ilə qalib gələrək Oyunların çempionu olub.**

Sərbəst güləşçilərimiz İslam Bazarqanov (57 kq) və Ağanəzər Novruzov (74 kq) finalda məğlub olaraq gümüş medal qazanıblar.

Maqomedxan Maqomedov (97 kq) isə bürünc medal qazanıb. Onun bəhreynli rəqibi Əhməd Tajudinov üçüncü yer uğrunda görüşə çıxmayıb.

Qadın güləşçilərimizdən Ruzanna Məmmədova (62 kq) finalda nigeriyalı Ester Kolavole ilə görüşdə son saniyələrdə qələbəni əldən verib və debüt etdiyi İslamiadanı gümüş medalla başa vurub.

Nigar Mirzəzadə (68 kq) indoneziyalı Desi Sintaya 12:7 hesabıyla qalib gələrək yarımfinala yüksəlsə də, qırğızıstanlı Meerim Jumanazarovayla bacarmayıb – 1:12. Üçüncü yer uğrunda mübarizədə banqladeşli Həlimə Akter xalçaya çıxmadığı üçün Mirzəzadə fəxri kürsünün üçüncü pilləsinə yüksəlib.

Zəhra Kərimzadə (76 kq) 1/4 finalda kamerunlu Vilita Pelaqiyeyə uduzub – 0:10.

## “Kəpəz”in 2-ci qələbəsi



**Misli Premyer Liqasının XII turu start götürüb. qalib gəlib. Yevlax şəhər stadionunda baş tutan “Karvan-Yevlax”- “Kəpəz” matçında qonaqlar 2:1 hesablı qələbə qazanıblar.**

Hesabı 14-cü dəqiqədə Luis Paçu açaraq qonaqları önə çıxarıb. 31-ci dəqiqədə meydan sahibləri hesabı bərabərləşdiriblər – 1:1. Araz Abdullayev topu qapıçı Yusif İmanovun ayaqları arasından tora göndərib.

Gəncəlilərin qələbə topunu isə 76-cı dəqiqədə Rauf Hüseynli vurub. Futbolçu kobud oyuna görə təyin olunan penaltini qola çevirib.

Qeyd edək ki, bu qələbə sayəsində xallarının sayını 6-ya çatdıran “Kəpəz” turnir cədvəlində sonuncu pillədən qurtularaq onuncu sıraya yüksəlib. “Karvan-Yevlax” isə 5 xalla 12-ci pilləyə “yuvarlanıb”. Günün ikinci oyununda “Sumqayıt” “Qarabağ”ı qəbul edib. Oyun 2:4 hesabı ilə ağdamlıların qələbəsi ilə başa çatıb.

## Qadın millimizin Malayziya sınağı



**Qadınlardan ibarət Azərbaycan milli komandası noyabrın 24-dən dekabrın 3-dək Banqladeşdə təlim-məşq toplanışında olacaq. AFFA-dan verilən məlumata görə, yığma Dəkkə şəhərində “FIFA Tri Nations Women’s Football Series 2025” adlı turnirdə Banqladeş və Malayziya yığmaları ilə mübarizə aparacaq.**

Komanda noyabrın 29-da Malayziya, dekabrın 2-də Banqladeş seçməsi ilə Milli Stadionda qarşılaşacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**XALQ QƏZETİ**

**Abunə yazılışını davam etdirir!**

***Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda, aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:***

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 156 (yüz əlli altı) manat.
6 aylıq – 78 (yetmiş səkkiz) manat.
3 aylıq – 39 (otuz doqquz) manat.
1 aylıq – 13 (on üç) manat.




**Hörmətli abunəçilər!**
**Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.**

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## Tbilisidə Azərbaycan bayrağının rəngləri

**Tbilisidəki televiziya qülləsi yenidən Azərbaycan bayrağının rəngləri ilə işıqlandırılıb**



Gürcüstanın paytaxtı Tbilisi şəhərinin ən hündür yerində - Mtaçminda parkında yerləşən və paytaxtın məşhur televiziya qülləsi Azərbaycan bayrağının rəngləri ilə işıqlandırılıb.

Şəhərin mərkəzindən və müxtəlif rayonlardan aydın görünən işıq şousu paytaxtın səmasında xüsusi mənzərə yaradıb.

İşıqlandırma iki ölkə arasında dostluq və tərəfdaşlıq münasibətlərinin simvolik ifadəsi kimi qiymətləndirilir. Tbilisi televiziya qülləsinin Azərbaycan bayrağının rənglərinə bürünməsi sosial şəbəkələrdə geniş rezonans doğurub və bu görüntü çoxsaylı istifadəçi tərəfindən paylaşılıb.

*XQ*

*Unutsaq, unudularıq*

# Naxçıvan xanlarının maarifpərvər oğlu

## *Bir portretin öyünclü və kədərli tarixçəsi*

**Milli realist rəngkarlığımızın banisi Bəhruz Kəngərlinin yaratdığı bu portret Milli İncəsənət Muzeyində qorunub saxlanılır. Bu yaxınlarda ünlü sənət ocağında rəsmdə təsvir edilmiş nəcib pedaqoq və Azərbaycan Xalq Cümhuriyyəti dövrünün xeyiyyəçi maarif xadimi Mirzə Məhəmməd Zamanbəylinin 165 illik yubileyi qeyd edilib.**



Xalqının maariflənməsi yolunda böyük xidmətlər göstərmiş Mirzə Məhəmməd Zamanbəylinin xatirəsi bu gün də yaddaşlarda əsl ziyalı, böyük maarif xadimi, mesenat kimi ehtiramla anılır. İndiki nəsillərin daha geniş tanımasına haqqı çatan bu insan kim olub?

Şərqin ilk demokratik siyasi qurumu Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq mövcudluğu dövründə yurdumuzun adlı-sanlı ziyalılarını, maarif xadimlərini, xeyriyyəçiləri milli dövlət quruculuğu uğrunda mübarizəyə səfərbər etmiş, cəmiyyətin formalaşmasında, xalqın ictimai şüur səviyyəsinin inkişafı yolunda böyük addımlar atmışdır. Belə işıqlı və əməlpərvər ziyalılarımızdan biri də Xalq Cümhuriyyətinin maarif xadimi, xeyriyyəçi-mesenant Mirzə Məhəmməd Zamanbəyli olmuşdur.

Mirzə Məhəmməd Zamanbəyli 1 avqust 1860-cı ildə Naxçıvanın Şahbuz rayonunun eyniadlı kəndində (Şahbuzkənddə) tanınmış sərkərdə, Rus–İran müharibələrinin iştirakçısı olmuş Zaman xan Kəngərlinin oğlu Hacı Fərzəli Sultan Kəngərlinin ailəsində anadan olmuşdur. O, Qori Müəllimlər Seminariyasında təhsil almış, maarifçilik fəaliyyəti dövründə həm də xeyriyyəçi kimi tanınmışdır. Mirzə Məhəmməd öz vəsaitini xalq yolunda xərcləyərək yoxsul və kimsəsiz uşaqların təhsil almasına qayğı göstərmişdir.

Qori Seminariyasının ilk məzunlarından olan Məhəmməd Zamanbəyli bütün ömrünü xalqın maariflənməsinə həsr etmişdir. Dövrünün A.Çernyayevski kimi maarif və elm adamları ilə tanışlıq onun ziyalı kimi formalaşmasında, dünyəvi görüşlərə yiyələnməsində böyük rol oynamışdır. Sonralar o, xeyriyyə cəmiyyəti yaratmaqla doğulduğu Şahbuzkənddə məktəb tikdirmiş, öz vəsaiti hesabına uşaqları təhsilə cəlb etmiş, savadlı yetirmələrini Qori Seminariyasına təhsil almağa göndərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi Mirzə Məhəmmədə maarif sahəsində məsul vəzifələr təklif etsə də o, bundan imtina edərək, ömrünü uşaqların təhsil almasına həsr etmişdir. Bununla Zamanbəyli Xalq Cümhuriyyətinin maarif siyasətinə fəal kömək göstərmişdir. O, Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi maliyyə və xalq maarifi şurasının üzvü olmuş, milli hökumətin təhsil layihələrinə maddi dəstəyini əsirgəməmişdir.

Mirzə Məhəmməd bir çox vacib sənədləri dilimizə tərcümə etmiş, Qazaxa köçürülmüş Qori Müəllimlər Seminariyası Azərbaycan bölməsində dərslərin ana dilimizdə təşkilinə də yardımçı olmuşdur. Ölkəmizdə ali təhsil sisteminin yaradılmasına öz təcrübəsi ilə qoşulan pedaqoq 1919-cu ilin sentyabrında fəaliyyətə başlayan Bakı Dövlət Universitetinin təsis edilməsində də fəal iştirak etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra təqiblərə məruz qalmış Məhəmməd Zamanbəyli İran dövlətindən sığınacaq istəmiş, lakin onun müraciətləri cavabsız qalmışdır. Maarifə, mədəniyyətə, ölkənin inkişafına həsr edilmiş bir ömür yolu 63 il davam etmiş, görkəmli maarifçi 1923-cü ildə nisgil və diqqətsizlik şəraitində vəfat etmişdir.

Mirzə Məhəmməd Zamanbəylinin nəticəsi Anar Zamanbəyli babasının maarifçilik fəaliyyətindən danışarkən dedi ki, onun bu xidməti Naxçıvanda çox yüksək qiymətləndirilmişdir. Bu məşhurluğun və qədirbilənliyin göstəricisi kimi, Bəhruz Kəngərli 1907-ci ildə öz dövrünün böyük mütəfəkkir ziyalısı kimi onun da portretini yaratmışdır. Zamanbəylilər ailəsi bu nadir əsəri rəssamın və portret sahibinin xatirəsinə ehtiram olaraq və qorunub saxlanmaq üçün Azərbaycan Milli İncəsənət Muzeyinə hədiyyə etmişdir.

Mirzə Məhəmməd Zamanbəylinin ölümü ilə bağlı ailə üzvlərində dəqiq məlumat yoxdur, hətta dəfn olunduğu yer də bilinmir. Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra bütün mülkləri kimi, məktəbi də əlindən alınmış, xeyriyyə cəmiyyəti bağlanmışdır.

Lakin Mirzə Məhəmmədin maarifçilik yolu onun ailəsində davam etmişdir. Övladları Xurşud və Qafar Zamanovlar da müəllim olmuşlar. Qafar müəllim Naxçıvan Pedaqoji Texnikumunda ümummilli lider Heydər Əliyevə dərs demişdir.

.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

## *HAVA*

## Yağmursuz, arabir də dumanlı şənbə...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, gecə və səhər bəzi yerlərdə zəif duman olacağı gözlənilir. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 9-14, gündüz 16-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 770 millimetr civə sütunu, nisbi rütubət gecə 80-85, gündüz 70-75 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, arabir duman olacağı proqnozlaşdırılır. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10, gündüz 17-21, dağlarda gecə 1-6, gündüz 12-17 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

✓ ***“Z-LİNE GROUP” MMC-nin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır. (VÖEN-1406020571).***

✓ ***1996-cı ildə Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi tərəfindən Məmmədov Bəxtiyar Vahid oğlunun adına verilmiş 11587 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.***

## Şirvanda beynəlxalq şahmat festivalı

**“Shirvan Open 2025” beynəlxalq şahmat festivalına start verilib. Azərbaycan Şahmat Federasiyası, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Şirvan Şəhər Olimpiya İdman Kompleksinin təşkilatçılığı, “SOCAR”ın sponsorluğu, “Sirabın”ın tərəfdaşlığı ilə keçirilən festivalda 8 ölkədən 240-dan çox şahmatçı iştirak edir.**



Yarışın açılış mərasimində Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov və Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov çıxış edərək şahmatçılara uğurlar arzulayıb.

Festivalda şahmatçılar A və B qruplarında mübarizə aparır. Hər iki qrupda yarışlar İsveçrə sistemi üzrə 9 turdan ibarət olmaqla təşkil olunur. Festivalın ümumi mükafat fondu 22650 AZN təşkil edir. A qrupunun qalibi 5100 AZN, B qrupunda isə ilk yeri tutacaq şahmatçı 1000 AZN qazanacaq.

Festival çərçivəsində həmçinin rapid və blits keçirilməsi də nəzərdə tutulur.

Qeyd edək ki, festival Azərbaycan Şahmat Federasiyasının “Chess Tour Azerbaijan" layihəsi çərçivəsində keçirilir. Bu, layihənin sayca 8-ci və bu il üçün sonuncu festivalıdır. Festivala noyabrın 26-da yekun vurulacaq.

***XQ***

**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.**

**Ü N V A N I M I Z:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3519**
**SİFARİŞ 2324**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Tahir AYDINOĞLU**
**Çapa imzalanmışdır 00:00**